# QARABAĞ AZƏRBAYCANDIR!

RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 232 (8548) ŞƏNBƏ, 7 noyabr 2020-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Azərbaycanın ərazi bütövlüyü tam təmin ediləcək

## İlham Əliyevin Ali Baş Komandanlığı ilə Ordumuz döyüş meydanında Ermənistana tarixinin ən acınacaqlı məğlubiyyətini yaşadır

**İkinci Qarabağ müharibəsi Azərbaycan Ordusunun qələbələri ilə davam edir. Döyüş əməliyyatlarının getdiyi bütün ərazilərdə işğalçı ordu darmadağın edilməkdədir. Ən müasir döyüş üsulları ilə əks-hücum əməliyyatları həyata keçirən ordumuzun gücü qarşısında düşmən tamamilə acizdir. Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı işğaldan azad olunub, Tərtər və Xocavənd istiqamətlərində işğalçının mövqeləri yarılaraq yaşayış məntəqələri düşmənlərdən təmizlənib.**

### Azərbaycan Prezidenti dünya erməniliyinin təbliğatını darmadağın etdi

Azərbaycan torpaqlarını işğaldan güc yolu ilə azad etməyə başladıqdan sonra dünyanın diqqəti ölkəmizə yönəlib. Məlumdur ki, dünyada ikili standartların, hegemonluq iddialarının, sivilizasiyalararası problemlərin olduğu bir vaxtda öz hüquqlarını güc yolu ilə təmin etmək asan məsələ deyil. Lakin Azərbaycan bunu bacardı. Prezident, Ali Baş Komandan İlham Əliyev özünün müdrik siyasəti ilə danışıqlardan imtina edən, torpaqlarımızın işğalından əl çəkmək istəməyən Ermənistanı güc yolu ilə cəzalandırır, onu qədim yurd yerlərimizdən qovub çıxarır.

Ona görə də bu gün beynəlxalq ictimaiyyətin marağı öz qətiyyəti ilə dünyaya səs salan, işğalçı Ermənistana tarixin ən gözəl dərsini verən Azərbaycandadır. Əməliyyatların başladığı günlərdə dünyanın tanınmış kütləvi informasiya vasitələrinin müsahibə almaq üçün Prezident İlham Əliyevə müraciət etmələri bunu bir daha təsdiq edir. Onların hamısını ilk növbədə məhz torpaqlarını inamla işğaldan azad edən Azərbaycanın mövqeyi, Prezident İlham Əliyevin məsələyə münasibəti maraqlandırır. Çünki İlham Əliyev bu müharibənin qalibidir, dövlətinin ərazi bütövlüyünü təmin edən müzəffər sərkərdədir.

Bu müsahibələr həm də Azərbaycanın Ermənistana qarşı informasiya savaşının uğurlarını təmin edən əsas silaha çevrildi. Məlum olduğu kimi, dünya erməniliyi, erməni lobbisi bu günlərdə Azərbaycana virtual hücumunu daha da gücləndirib, "məzlum erməni" obrazında yeni informasiya savaşına başlayıb. Lakin İlham Əliyevin tanınmış KİV-ə verdiyi müsahibələr onların bütün planlarını alt-üst edib. Etibarlı və daha çox müraciət edilən mənbə kimi İlham Əliyevin müsahibələri erməni iddialarını və yalanlarını ifşa etdi. Azərbaycan Prezidenti bu müsahibələrlə respublikamızın haqq səsini dünyaya çatdırdı, əks-hücum əməliyyatlarının başlanmasını diplomatik məharətlə əsaslandırdı, əsl həqiqətlər barədə beynəlxalq ictimaiyyəti məlumatlandırdı. Bütün bunların nəticəsidir ki, sentyabrın 27-dən sonra dünya erməniliyi Azərbaycana qarşı diplomatik cəbhənin yaradılmasına nail ola bilmədi.

### Ordumuzun müzəffər yürüşü davam edir

Bu günlərdə İtaliyanın tanınmış "La Repubblica" qəzetinə və İspaniyanın EFE İnformasiya Agentliyinə müsahibələr verən Prezident İlham Əliyev bir daha müharibənin başlanmasına səbəb olan əsl həqiqətləri diqqətə çatdırdı. Dövlət başçısı faktlara, beynəlxalq hüquqa, BMT Təhlükəsizlik Şurasının qətnamələrinə istinad edərək göstərdi ki, bu müharibənin başlanmasının səbəbi Ermənistanın işğalçılıq siyasətindən əl çəkmək istəməməsidir.

*Ardı 4-cü səh.*

## Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin, "AzerGold" Qapalı Səhmdar Cəmiyyətinin, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyətinin və Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyindəki "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyətinin Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 5 noyabr tarixli 1174 nömrəli Fərmanının 1-ci hissəsi ilə təsdiq edilmiş siyahıda göstərilən aşağıdakı dövlət müəssisələri ilkin mərhələdə Azərbaycan İnvestisiya Holdinqinin idarəetməsinə verilsin:

1.1. Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti;

1.2. "AzerGold" Qapalı Səhmdar Cəmiyyəti;

1.3. "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti;

1.4. Azərbaycan Respublikası Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyinin tabeliyindəki "Bakı Beynəlxalq Dəniz Ticarət Limanı" Qapalı Səhmdar Cəmiyyəti.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Azərbaycan İnvestisiya Holdinqi bu Sərəncamdan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 noyabr 2020-ci il*

## "Sizin uzaqgörənliyiniz və uğurlu siyasətiniz sayəsində Azərbaycan hər zaman zəfər çalacaq"

**Azərbaycan vətəndaşları, eləcə də xaricdə yaşayan soydaşlarımız Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə məktublar göndərməkdə davam edirlər. Onlar rəşadətli ordumuzun uğurlu əməliyyatları, torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı sevinc hisslərini bölüşür, dövlət başçısına minnətdarlıqlarını bildirirlər.**

AZƏRTAC Prezidentin saytına istinadla həmin məktubların daha bir neçəsini təqdim edir.

Rusiyanın Sankt-Peterburq şəhərindən **Müşfiq Əmiraslanov** yazır: "Hörmətli cənab Prezident, biz xaricdə yaşayan azərbaycanlılar Sizinlə fəxr edirik. Sizin bütün çıxışlarınızı və müsahibələrinizi çox maraqla dinləyirik. Allah Sizdən və Azərbaycanın mərd əsgərlərindən razı olsun, onlara kömək etsin. Biz həmişə dua edirik ki, tezliklə Qələbə xəbəri ilə hamımızı sevindirəsiniz, ölkəmizi bu dərd-bəladan xilas edəsiniz. Mənim qardaşım oğlu Kamran da ön cəbhədədir. Onunla fəxr edirəm. Biz hamımız Sizin bütün qərarlarınızı dəstəkləyirik. Heç kim bizim birliyimizi poza bilməz. Arzu edirəm ki, Allahın köməyi, xalqın inamı ilə tezliklə Azərbaycanı bütün düşmənlərdən təmizləyəsiniz".

*Ardı 3-cü səh.*

◆ **Qarabağ söhbətləri**

## "İndi müxalif partiya lideri deyiləm, sadəcə əsgərəm..."

### "Ümid"in sədri İqbal Ağazadənin ən böyük ümidi artıq doğrulur



**23 avqust 1993-cü il... Həmin ilin həmin günü yenə kənddəki evlərinə getdi. Amma bu gediş həmişəkindən deyildi. Bəlkə heç özü də onun tam fərqində deyildi, ya da sadəcə inanmaq istəmirdi.**

Bu, son ola bilməzdi axı. Mümkün deyildi. Evə girib ata-anasına "tez hazırlaşın, gedirik" deyəndə də birdəfəlik gedişi nəzərdə tutmurdu. Elə bilirdi hər şey müvəqqətidi, bir neçə gündən sonra yenidən kəndə qayıdacaqlar. Ona görə də evdən hər hansı bir əşya götürməyə lüzum görmədi.

Amma darvazadan çıxan zaman anasının maşının arxa pəncərəsindən evə boylanması ürəyini sızlatdı. Gözü arxada qalmasın deyə maşını saxlatdırıb anası ilə bərabər yenidən evə qayıtdı. Və bu dünyagörmüş qadın evdəki qiymətli heç nəyə toxunmadı. Sadəcə mətbəxə keçdi, ocağı söndürdü və qazın üstündəki yenicə bişmiş dolma qazanını götürdü... O evdə süfrə arxasında ailəlikcə yığışıb şam etmək onlara qismət olmadı.

Bir də... Qapıdan çıxanda evin, pəncərələrin önünü bəzəyən, öz əllərilə əkdiyi rəngbərəng, növbənöv çiçəklərin içindən birini seçib dərdi. O günə qədər ayrılıq rəmzi olduğuna inanmadığı sarı rəngli qızılgül...

*Ardı 6-cı səh.*

## Ermənistan vətəndaş müharibəsi ərəfəsindədir

**Qarabağdakı məğlubiyyət və sosial-iqtisadi çətinliklər ucbatından Ermənistan tarixinin ən ağır günlərini yaşayır. Proseslərin gedişatı göstərir ki, işğalçı dövlətin üzləşdiyi problemlərdən xilas ola bilməsi mümkünsüzdür.**

Ona görə də iki il yarım əvvəl hakimiyyətə qarşı etirazlar fonunda baş nazir kürsüsünə yiyələnən Nikol Paşinyanın indi başı dərddədir. Ermənistanda problemlər səbəbindən diqqəti çəkən ilk məsələ Sarkisyan-Koçaryan koalisiyası ilə Paşinyana bağlı qüvvələr arasındakı ənənəvi siyasi qarşıdurmanın güclənməsidir. Yerli medianın yazdığına görə, hazırkı hökumətlə keçmiş hərbi xunta arasında münasibətlər görünməmiş dərəcədə pisləşib. Hərbi xunta baş naziri məğlubiyyətdə, Paşinyan isə onları qəsdən daxili sabitliyi pozmaqda ittiham edir. Əslində, hərəsinin öz həqiqəti var. Məlumdur ki, Paşinyanın işğalçı siyasəti davam etdirməsi səbəbindən Azərbaycan döyüş meydanında Ermənistanı cəzalandırır. Vəziyyətdən istifadə edən hərbi xunta isə məğlub Paşinyan hakimiyyətinə qarşı etirazları daha da körükləyərək bundan öz maraqları naminə yararlanmağa çalışır.

"4rd.am" saytı yazır ki, bu günlərdə Laçın rayonunda müdafiə naziri David Tonoyanla general Vitali Balasanyan arasında ciddi münaqişə yaşanıb. Nazirin qərargahına gələn V.Balasanyan onu Qarabağda ağır məğlubiyyətə görə ittiham edib.

*Ardı 9-cu səh.*

## Qlobal pandemiyanın fəsadları daha da artır

**Koronavirus bütün ölkələrdə tüğyan etməkdə davam edir və infeksiyaya yoluxanların sayı rekord sayda artaraq epidemik vəziyyəti gərginləşdirir.**




Eyni zamanda payız və qış fəsillərində mövsümi qrip və digər tənəffüs yolları infeksiyalarının sayının artması da müşahidə edilir. Buna görə də bir çox ölkələrdə virusun yayılmasının qarşısını almaq üçün ciddi tədbirlər həyata keçirilir, tətbiq olunmuş karantin rejimi sərtləşdirilir.

Almaniyada noyabrın 2-dən ayın sonuna qədər koronavirus infeksiyası ilə bağlı "məhdud karantin", Fransanın bütün ərazisində oktyabrın 30-dan dekabrın 1-dək davam edəcək özünütəcrid rejimləri tətbiq edilib. Böyük Britaniyada da noyabrın 5-dən etibarən gücləndirilmiş karantin rejimi həyata keçirilir. İtaliyada koronavirusa yoluxma hallarının yenidən artması ilə əlaqədar noyabrın 4-dən etibarən ölkə ərazisində komendant saatı tətbiq olunur. Ukraynada koronavirusla bağlı vəziyyət pisləşdiyindən karantin müddəti dekabrın 31-dək uzadılıb və qaydalar sərtləşdirilib.

### Bizdən asılı olan və olmayan səbəblər var

Dünyada olduğu kimi, ölkəmizdə də son dövrlər koronavirusa yoluxma sayı artıb. Sanitar-epidemioloji vəziyyətin təhlilinə əsasən, Nazirlər Kabineti ölkə ərazisində xüsusi karantin rejiminin müddətini dekabrın 1-dək uzadıb. Bütün təhsil pillələri üzrə tədrisin distant təşkilinə başlanılıb.

*Ardı 8-ci səh.*

**Düşmənin 3 "Su-25" tipli hücum təyyarəsi məhv edilib, 315 tankı - 262-si məhv edilib, 53-ü qənimət kimi götürülüb; 79 ədəd piyadaların döyüş maşını - 50-si məhv edilib, 29-u qənimət kimi götürülüb; 341 ədəd müxtəlif çaplı toplar - 264-ü məhv edilib, 4 ədəd "Qvozdika" özüyeriyən haubitsası, 24-ü qənimət kimi götürülüb; 106 ədəd minaatan - 61-i məhv edilib, 45-i qənimət kimi götürülüb; 54 ədəd tank əleyhinə vasitə; 102 "Qrad" qurğusu; 2 "Uraqan" Yaylım Atəşli Raket Sistemi; 1 "Tos"; zenit-raket kompleksləri - 4 "Tor", 43 "Osa", 1 ədəd "Zastava M-55" tipli zenit qurğusu, 3 ədəd PDM, 2 ədəd "Smerç", 6 "Kub", 1 "Kruq", 2 "S-125" qurğusu; 6 "S-300" atıcı qurğusu; 14 ədəd müxtəlif artilleriya qurğusu, 1 aşkaretmə stansiyası; 1 lokator; əməliyyat taktiki raket kompleksləri - 2 ədəd "Elbrus"; yeni istismara verilmiş raket-artilleriya silahları anbarı, 1 ədəd "Toçka-U", P-18 radiolokasiya stansiyası məhv edilib; 3 ədəd "KamAz" maşını, qoşqusunda top olan 6 ədəd "Ural" maşını, 1 ədəd UAZ markalı avtomobili, 441 yük avtomobili - 248-i, onlardan 25-i sursatı ilə birgə məhv edilib, 173 yük avtomobili hərbi qənimət kimi götürülüb.**

# 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsi və aradan qaldırılması ilə bağlı tədbirlər haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2020-ci il sentyabrın 27-də Ermənistan Respublikası silahlı qüvvələrinin ölkəmizə qarşı törətdiyi növbəti hərbi təxribata cavab olaraq, Azərbaycan Respublikasının Silahlı Qüvvələri qətiyyətli əks-hücum əməliyyatlarına başlamış və Azərbaycan Respublikasının bir neçə rayonunu, eləcə də strateji əhəmiyyətli digər ərazilərini işğaldan azad etmişdir. Vətən torpaqlarını işğaldan azad edən rəşadətli və müzəffər Ordumuzun həyata keçirdiyi uğurlu hərbi əməliyyatlar nəticəsində Ermənistan Respublikasının silahlı qüvvələri darmadağın edilərək, canlı qüvvə və texnika sarıdan böyük itkilər verərək geri çəkilməyə məcbur olmuş və döyüş meydanındakı acınacaqlı məğlubiyyətlərinin əvəzini çıxmaq üçün Azərbaycanın münaqişə zonasından və cəbhə xəttindən uzaqda yerləşən şəhər və rayonlarındakı mülki əhalini, eləcə də infrastruktur obyektlərini hədəf seçmiş, müxtəlif növ silahlarla, o cümlədən artilleriya və ballistik raketlərlə atəşə tutaraq insanlıq əleyhinə cinayətlər və müharibə cinayətləri törətmiş, mülki şəxsləri vəhşicəsinə qətlə yetirmiş, insanların əmlakına, infrastruktur obyektlərinə irimiqyaslı zərər vurmuşlar.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini və aradan qaldırılmasını təmin etmək məqsədilə aşağıdakı tərkibdə Dövlət Komissiyası (bundan sonra - Dövlət Komissiyası) yaradılsın:

**Dövlət Komissiyasının sədri**

Əli Əsədov - Azərbaycan Respublikasının Baş Naziri

**Dövlət Komissiyasının sədr müavini**

Şahin Mustafayev - Azərbaycan Respublikası Baş Nazirinin müavini

**Dövlət Komissiyasının üzvləri**

Anar Ələkbərov - Azərbaycan Respublikası Prezidentinin köməkçisi

Zeynal Nağdəliyev - Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri

Şahmar Mövsümov - Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri

Gündüz Kərimov - Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

Xalid Əhədov - Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi

Kəmaləddin Heydərov - Azərbaycan Respublikasının Fövqəladə Hallar naziri

Mikayıl Cabbarov - Azərbaycan Respublikasının İqtisadiyyat naziri

Samir Şərifov - Azərbaycan Respublikasının Maliyyə naziri

Ceyhun Bayramov - Azərbaycan Respublikasının Xarici İşlər naziri

Anar Quliyev - Azərbaycan Respublikası Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri

Kamran Əliyev - Azərbaycan Respublikasının Baş prokuroru.

2. Dövlət Komissiyası:

2.1. 2020-ci il sentyabrın 27-dən başlayaraq Ermənistan Respublikası silahlı qüvvələrinin Azərbaycan Respublikasının ərazisinə təcavüzü nəticəsində mülki əhaliyə, dövlət əmlakına, o cümlədən infrastruktur obyektlərinə, habelə sahibkarlıq fəaliyyəti subyektlərinə dəymiş ziyanın qiymətləndirilməsini iki ay müddətində təmin edib Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

2.2. bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulan qiymətləndirmənin nəticələrinə əsasən, dəymiş ziyanın aradan qaldırılması, zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin həyata keçirilməsi üçün tələb olunan maliyyə vəsaiti barədə təkliflərini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

2.3. aidiyyəti dövlət orqanları (qurumları) ilə birlikdə bu Sərəncamın 2.1-ci bəndində nəzərdə tutulan ziyana və onun aradan qaldırılmasına, o cümlədən zərər vurulmuş obyektlərin tam bərpası və təmir-tikinti işlərinin aparılmasına çəkilmiş xərclərə dair vahid məlumat bazasının yaradılmasını, habelə həmin məlumatların daim yenilənməsini təmin etsin;

2.4. görülmüş işlər barədə ictimaiyyətin mütəmadi məlumatlandırılmasını təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi bu Sərəncamın 2.3-cü bəndində nəzərdə tutulmuş məlumatların beynəlxalq ictimaiyyətə, o cümlədən beynəlxalq təşkilatlara çatdırılması üçün tədbirlər görsün.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 6 noyabr 2020-ci il*

# MDB Hökumət Başçıları Şurasının videokonfrans formatında iclası keçirilib

**Özbəkistan Respublikasının təşəbbüsü ilə MDB Hökumət Başçıları Şurasının noyabrın 6-da videokonfrans formatında iclası keçirilib. Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov iclasda iştirak edib.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, MDB hökumət başçıları üzv dövlətlər arasında müxtəlif istiqamətlərdə, xüsusən də iqtisadi və humanitar sahələrdə əməkdaşlığın aktual məsələlərini müzakirə ediblər.

Azərbaycan Respublikasının Baş Naziri Əli Əsədov iclasda çıxış edib.

Baş Nazir deyib ki, bugünkü iclasın gündəliyi iqtisadi və humanitar əməkdaşlıq da daxil olmaqla bir çox məsələlərin müzakirəsini nəzərdə tutur. Bu gün nəzərdən keçirilən sənədlərdən biri də iqtisadiyyatın və ticari-iqtisadi əməkdaşlığın inkişafına, yeni infrastruktur layihələrinin hazırlanmasına, iqtisadiyyatın rəqəmsallaşdırılmasının inkişafına, elmi, texniki və təhsil potensialının reallaşmasına yönəlmiş 2030-cu ilədək dövr üçün MDB İqtisadi İnkişaf Strategiyasının birinci mərhələsinin həyata keçirilməsinə dair Fəaliyyət Planıdır. Azərbaycan MDB-yə üzv dövlətlərlə həm ikitərəfli, həm də çoxtərəfli formatda əməkdaşlığın inkişafında maraqlıdır. Ancaq qeyd etmək lazımdır ki, Birlik çərçivəsində hərtərəfli əməkdaşlıq Ermənistan-Azərbaycan münaqişəsi həll olunmadan mümkün deyil.

Məlum olduğu kimi, sentyabrın 27-də Ermənistan Azərbaycana qarşı növbəti hərbi təxribat törətmişdir. İşğal olunmuş ərazilərimizdə yerləşən Ermənistan silahlı qüvvələri Azərbaycan Ordusunun bütün cəbhə xətti boyunca mövqelərini və cəbhə bölgəsində yerləşən yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından istifadə etməklə intensiv atəşə tutmuş, nəticədə mülki əhali və hərbçilərimiz arasında itkilərimiz olmuşdur. Beynəlxalq hüquqa, xüsusən özünümüdafiə hüququna əsaslanaraq Azərbaycan Ermənistan tərəfindən işğal olunmuş beynəlxalq səviyyədə tanınmış ərazilərində əks-hücum əməliyyatına başlamışdır. Əks-hücum əməliyyatı nəticəsində bu günədək 4 şəhər, 3 qəsəbə, habelə 200-dən çox yaşayış məntəqəsi işğaldan azad edilmişdir.

İşğal olunmuş ərazilər azad edildikcə işğal altındakı Azərbaycan torpaqlarına qarşı barbar münasibəti sübut edən getdikcə daha çox yeni faktlar üzə çıxır. Beynəlxalq ekspertləri cəlb etməklə foto və video materiallar, həmçinin digər maddi sübutlar əsasında biz işğal olunan ərazilərdə inventarlaşma və zərərin qiymətləndirilməsi işlərini aparacağıq.

Son hadisələr başlamazdan əvvəl Azərbaycan bir neçə dəfə Ermənistanın Azərbaycana qarşı yeni müharibə başlamaq niyyəti barədə dünya ictimaiyyətinə xəbərdarlıq etmişdir. Müxtəlif televiziya kanallarına verdiyi müsahibələrdə, həmçinin BMT tribunasından çıxışı zamanı Azərbaycan Prezidenti təcavüzkar dövlətin dayandırılmasının zəruriliyini bildirmişdir. MDB Hökumət Başçıları Şurasının 29 may tarixində keçirilmiş iclasında mən münaqişənin təxirəsalınmadan həll edilməsi üçün müraciət etmişdim. Ancaq təəssüf ki, bizim çağırış və müraciətlərimiz eşidilmədi.

2018-ci ildən başlayaraq Ermənistanın yeni hərbi-siyasi rəhbərliyi məqsədyönlü hərəkətləri ilə danışıqlar prosesini tamamilə məhv etməyə çalışır. Ermənistan baş nazirinin bəyanatları və hərəkətləri, o cümlədən danışıqlar formatını dəyişdirmək cəhdləri, "Qarabağ Ermənistandır və nöqtə" deməsi, Şuşa şəhərində qeyri-qanuni rejiminin rəhbəri üçün dırnaqarası andiçmə mərasiminin keçirilməsi, qondarma "parlamentin" Şuşaya köçürülməsinə dair təhrikedici qərar, hərbi könüllü dəstələrin yaradılması barədə bəyanat, işğal altındakı ərazilərdə hərbi təlimlərin keçirilməsi, eləcə də Yaxın Şərq bölgəsindən, əsasən də Suriya və Livandan olan etnik ermənilərin işğal olunmuş ərazilərdə qanunsuz məskunlaşdırılması siyasəti buna sübutdur.

ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin dövlət başçılarının işğal olunmuş ərazilərdə status-kvonun qəbuledilməzliyi barədə bəyanatlarına baxmayaraq, Ermənistan hökumətinin destruktiv hərəkətlərinin məqsədi status-kvonun saxlanılmasıdır.



Azərbaycan həmişə münaqişənin danışıqlar masası arxasında həll edilməsinə sadiq olub. Ancaq Ermənistan qeyri-konstruktiv mövqeyi ilə danışıqlar prosesini pozur. Belə ki, Ermənistan son bir ayda ATƏT-in Minsk qrupunun həmsədr ölkələrinin vasitəçilik səyləri nəticəsində əldə olunmuş humanitar əsaslarla atəşkəs rejimini üç dəfə kobud şəkildə pozub. Rusiya Federasiyası Prezidentinin təşəbbüsü ilə xarici işlər nazirlərinin Moskva Bəyannaməsinin qəbul edilməsindən cəmi bir gün sonra - oktyabrın 11-i gecə saatlarında Ermənistan silahlı qüvvələri Azərbaycanın ikinci böyük şəhəri Gəncədəki yaşayış məntəqələrinə raket hücumu həyata keçirib.

Ermənistan silahlı qüvvələri kaset və fosfor bombaları kimi qadağan olunmuş silah-sursat növlərindən istifadə edərək, Azərbaycanın cəbhə bölgələrini davamlı top atəşi altında saxlamağa davam edir. Döyüş bölgəsindən kənarda yerləşən bölgələrə də raket zərbələri endirilmişdir.

Azərbaycanda minlərlə yaşayış evi və yüzlərlə mülki infrastruktur obyekti, o cümlədən çox sayda məktəb və uşaq bağçası dağıdılmış və zədələnmişdir. Mingəçevir şəhərində Cənubi Qafqazın ən böyük istilik elektrik stansiyası Ermənistan silahlı qüvvələrinin raket hücumlarına məruz qalmışdır.

Sentyabrın 27-dən başlayaraq Ermənistanın həm öz ərazilərindən, həm də Azərbaycanın işğal olunmuş ərazilərindən "Tochka-U", "Elbrus" və digər sistemlərdən istifadə etməklə həyata keçirdiyi raket və artilleriya atəşləri yaşlı insanlar, qadınlar və 11 uşaq daxil olmaqla 92 mülki şəxsin həlak olmasına səbəb olmuş, 404 mülki şəxs yaralanmışdır.

Gecə saatlarında Gəncə və Bərdə şəhərlərinin ballistik raketlərlə bombalanması nəticəsində 53 mülki şəxs həlak olmuş, 245 nəfər yaralanmışdır. Ermənistandan fərqli olaraq, Azərbaycanın Silahlı Qüvvələri mülki əhaliyə və mülki obyektlərə hücum etmir, yalnız legitim hərbi hədəfləri məhv edir.

Biz MDB-yə üzv dövlətləri Azərbaycanın dinc əhalisinə qarşı hərbi cinayətlər törədən Ermənistanın hərəkətlərini qətiyyətlə pisləməyə çağırırıq.

Bizə və ümid edirəm ki, iclasda iştirak edən hər kəsə aydındır ki, öz ərazisindən münaqişə zonasından kənarda yerləşən Azərbaycan şəhərlərini atəşə tutmaqla, Ermənistan Azərbaycanı Ermənistan ərazisinə cavab atəşi açmağa, bununla da üçüncü dövlətləri, xüsusən də KTMT üzvü olan ölkələri münaqişəyə cəlb etməyə və hərbi əməliyyatlar coğrafiyasını genişləndirməyə çalışır.

Bir daha vurğulamaq istərdim ki, döyüş əməliyyatları Ermənistan ərazisində deyil, Azərbaycan Respublikasının beynəlxalq səviyyədə tanınmış ərazisində aparılır.

Onu da qeyd etmək istərdim ki, mülki aviasiyadan istifadə etməklə Azərbaycanın işğal olunmuş ərazilərinə ötürülmək üçün Ermənistana qaçaqmalçılıq yolu ilə silah təchizatı həyata keçirilir. Bu cür qanunsuz hərəkətlər Beynəlxalq Mülki Aviasiya Təşkilatının məqsəd və prinsiplərinə ziddir. Bundan əlavə, Azərbaycan Ordusuna qarşı döyüşlərdə iştirak etmək üçün dünyanın müxtəlif ölkələrindən muzdlular Ermənistana aparılır.

Əli Əsədov bildirib ki, oktyabrın 29-da Beynəlxalq Qızıl Xaç Komitəsinin xətti ilə Azərbaycan münaqişə zonasında həlak olmuş 30-a yaxın erməni əsgər və zabitinin cəsədini birtərəfli qaydada Ermənistana ötürmüşdür. Bu, Rusiyanın vasitəçilik səyləri sayəsində mümkün olmuşdur. Bu addım humanizm prinsiplərini rəhbər tutaraq atılmışdır. Baxmayaraq ki, Ermənistan uzun müddət həlak olanların cəsədlərini təhvil almaqdan imtina edirdi.

"Azərbaycan tərəfi ardıcıl olaraq bütün səviyyələrdə gələcəkdə erməni və Azərbaycan icmalarının Dağlıq Qarabağ ərazisində dinc yaşamalı olduqlarını bildirmişdir. Necə ki, minlərlə üzvü olan erməni icması Bakı da daxil olmaqla Azərbaycanın digər yaşayış məntəqələrində, eləcə də Rusiyada və MDB-nin, habelə dünyanın digər ölkələrində dinc yaşayırlar.

Biz erməni xalqına qarşı müharibə aparmırıq, beynəlxalq səviyyədə tanınmış torpaqlarımızı işğaldan azad edirik. Yeganə hədəfimiz Azərbaycanın ərazi bütövlüyünün tam bərpası, Ermənistan tərəfindən işğal olunmuş bütün ərazilərin BMT Təhlükəsizlik Şurasının dörd qətnaməsinə uyğun olaraq azad edilməsi və bölgədə uzunmüddətli sülhün və təhlükəsizliyin bərqərar edilməsidir. MDB-yə üzv olan dövlətlər tərəfindən bir-birilərinin ərazi bütövlüyünün və mövcud sərhədlərin toxunulmazlığının tanınması və hörmət edilməsi 1991-ci il Alma-Ata Bəyannaməsi də daxil olmaqla Birliyin təməl sənədlərində təsbit edilmişdir", - deyə Əli Əsədov qeyd edib.

Baş Nazir vurğulayıb ki, Azərbaycanın heç vaxt bir qarış özgə torpağına iddiası olmayıb. Eləcə də bir qarış torpağımızın belə işğalı ilə heç vaxt barışmayacağıq. Bu, bizim prinsipial mövqeyimizdir və bu məsələdə biz sona qədər gedəcəyik.

Əli Əsədov əminliyini bildirib ki, bugünkü iclasda qəbul olunacaq qərarlar MDB çərçivəsində qarşılıqlı əlaqələrin gücləndirilməsinə və əməkdaşlığımızın səmərəsinin artırılmasına xidmət edəcək.

# "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında Azərbaycan Respublikası

## Nazirlər Kabinetinin Qərarı

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarında aşağıdakı dəyişikliklər edilsin:

1.1. 1.1-ci bəndə "ərazisində" sözündən sonra "(bu Qərarın 1.2-ci və 1.3-cü bəndləri nəzərə alınmaqla)" sözləri əlavə edilsin;

1.2. 1.1.2-1-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.1.2-1. operativ və xüsusi təyinatlı nəqliyyat vasitələrinin, habelə yükdaşıyan avtomobillərin hərəkəti istisna olmaqla, Sabirabad şəhərinə, Sabirabad rayonunun Cavad, Türkədi, Qalağayın və Kürkəndi kəndlərinə, Mingəçevir, Şəki, Lənkəran şəhərlərinin, Ağstafa, Qax, Zaqatala, Biləsuvar, Cəlilabad, Masallı, İsmayıllı, Quba və Xaçmaz rayonlarının inzibati ərazisinə giriş-çıxışın dayandırılması;";

1.3. 1.1.15-ci yarımbənd aşağıdakı redaksiyada verilsin:

"1.1.15. Gəncə, Yevlax, Mingəçevir, Şirvan şəhərlərinin, Göygöl, Samux, Sabirabad, Ağstafa rayonlarının inzibati ərazisində 7 noyabr saat 00:00-dan 9 noyabr saat 06:00-dək, 14 noyabr saat 00:00-dan 16 noyabr saat 06:00-dək, 21 noyabr saat 00:00-dan 23 noyabr saat 06:00-dək və 28 noyabr saat 00:00-dan 30 noyabr saat 06:00-dək ictimai nəqliyyatın hərəkətinin dayandırılması.";

1.4. aşağıdakı məzmunda 1.3-cü bənd əlavə edilsin:

"1.3. Bu Qərarın 1.1-ci bəndində göstərilənlərlə yanaşı, sərtləşdirilmiş xüsusi karantin rejimi dövründə Şəki, Lənkəran şəhərlərinin, Qax, Zaqatala, Biləsuvar, Cəlilabad, Masallı, İsmayıllı, Quba, Xaçmaz rayonlarının inzibati ərazisində 2020-ci il 23 noyabr saat 06:00-dək bu Qərarın əlavəsində nəzərdə tutulan sahələr istisna olmaqla, digər sahələrdə və istiqamətlərdə fəaliyyət dayandırılır.".

2. Bu Qərar 2020-ci il 7 noyabr saat 00:00-dan qüvvəyə minir.

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş Naziri***

*Bakı şəhəri, 6 noyabr 2020-ci il*

# Operativ Qərargah bir sıra şəhər və rayonlarda xüsusi karantin rejiminin yeni qaydalarının tətbiqinə dair qərar qəbul edib

## Şəki, Lənkəran şəhərlərinin, Qax, Zaqatala, Biləsuvar, Cəlilabad, Masallı, İsmayıllı, Quba, Xaçmaz rayonlarının inzibati ərazisində xüsusi karantin rejimində dəyişikliklər edilib





**Ölkə ərazisində sanitar-epidemioloji vəziyyəti nəzərə alaraq Nazirlər Kabineti yanında Operativ Qərargah müxtəlif şəhər və rayonların ərazisində xüsusi karantin rejiminin yeni qaydalarının tətbiq edilməsinə dair qərar qəbul edib.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildiriblər ki, qərara əsasən 2020-ci il noyabrın 7-si saat 00:00-dan noyabrın 23-ü saat 06:00-dək sərtləşdirilmiş xüsusi karantin rejimi dövründə Şəki, Lənkəran şəhərlərinin, Qax, Zaqatala, Biləsuvar, Cəlilabad, Masallı, İsmayıllı, Quba, Xaçmaz rayonlarının inzibati ərazisində aşağıdakı sahələr istisna olmaqla, digər sahələr və istiqamətlərdə fəaliyyət dayandırılır:

- Hüquq mühafizə, məhkəmə orqanlarının, hərbi xidmət nəzərdə tutulmuş orqanların və vəkillərin fəaliyyəti;
- digər dövlət orqanlarının (qurumlarının) fəaliyyəti (Nazirlər Kabineti tərəfindən müəyyən edilən say həddi çərçivəsində);
- səhiyyə və sosial xidmət müəssisələrinin fəaliyyəti, dezinfeksiya xidmətləri;
- kommunal xidmətlər (su, elektrik enerjisi, qaz, istilik, rabitə və telekommunikasiya, məişət tullantıları);
- yük daşımaları və logistika xidmətləri;
- fasiləsiz fəaliyyət göstərən müəssisələrin, həmçinin qida məhsullarının istehsalı, tədarükü, təchizatı, saxlanması və topdan satışı müəssisələrinin fəaliyyəti;
- kənd təsərrüfatı, meliorasiya və su təsərrüfatı fəaliyyəti;
- apteklərin, ərzaq mağazalarının (bazarlar və yarmarkalar istisna olmaqla), yanacaqdoldurma məntəqələrinin fəaliyyəti;
- kütləvi informasiya vasitələrinin fəaliyyəti;
- maliyyə təşkilatlarının (bank, sığorta və s.) fəaliyyəti;
- mühafizə xidmətləri.

Bu vaxtadək həmin inzibati ərazilərdə ictimai nəqliyyatın fəaliyyəti yalnız həftə sonları dayandırılırdı. 2020-ci il noyabrın 7-si saat 00:00-dan noyabrın 23-ü saat 06:00-dək həmin ərazilərdə ictimai nəqliyyatın fəaliyyəti tam dayandırılacaq.

Bu qaydaların tətbiq olunduğu şəhər və rayonlarda:

- İqtisadiyyat Nazirliyi tərəfindən bu şəhər və rayonlarda muzdlu işçilərin əməkhaqları üzrə müvafiq ödənişlər ediləcək və fərdi (mikro) sahibkarlara birdəfəlik maliyyə dəstəyi göstəriləcək;
- Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə sərtləşdirilmiş xüsusi karantin rejiminin tətbiq olunduğu 10 şəhər və rayon üzrə işsiz və xüsusi karantin rejiminə görə gəlirini itirən qeyri-formal işləyən aztəminatlı şəxslərə yaşayış minimumu həcmində (190 manat) birdəfəlik ödəmə verilməsi tapşırılıb.

Nazirlər Kabineti yanında Operativ Qərargah yuxarıda sadalanan şəhər və rayonların sakinlərinə ciddi şəkildə evdə qalmağı tövsiyə edir, karantin rejiminin qaydalarına əməl etməyə çağırır.

◆ Prezidentə yazırlar



# “Sizin uzaqgörənliyiniz və uğurlu siyasətiniz sayəsində Azərbaycan hər zaman zəfər çalacaq”

*Əvvəli 1-ci səh.*

Ulyanovsk şəhərindən **İslam Hüseynovun** məktubunda deyilir: “Çox hörmətli cənab Prezident, bu gün dünyanın harasında olmasından asılı olmayaraq bütün dünya azərbaycanlılarının diqqəti Sizə yönəlib. Müzəffər Ali Baş Komandan kimi xalqımızın torpaqlarımızın bütövlüyü, haqq və ədalət uğrunda mübarizəsinə rəhbərlik edirsiniz. Bu gün ölkəmizə qarşı şər və böhtan kampaniyalarına külli miqdarda vəsait xərclənir. Azərbaycanın dünyaya açıq və aydın mesajları təhrif olunur. İndi ən mühüm işlərdən biri Azərbaycanın həqiqətlərini və hədəflərini dünyaya çatdırmaq üçün informasiya hücumlarını dəf etməkdir. Bu, hər bir vətənpərvər insanın ümumi vəzifəsidir. Cənab Prezident, icazə verin, Ulyanovsk vilayətində yaşayan bütün azərbaycanlılar adından Sizə və Qarabağın qaytarılması, Azərbaycan torpaqlarında sülhün bərqərar edilməsi uğrunda əməliyyatlarda iştirak edən hərbçilərimizə alovlu dəstəyimizi çatdırım. Biz həmişə Sizinləyik. Sizin müdrikliyinizə, xoşməramlılığınıza, qətiyyətinizə əminik. Daim xalqımızın, dövlətimizin mənafelərini qorumaq üçün davamlı səy göstərdiyinizə inanırıq. Uca Allah qətiyyətinizi, gücünüzü yüz qat artırsın və Sizin vasitənizlə xalqımızı gücləndirsin”.

İmişli rayon sakini **Yeganə Nəsirli:** “Hörmətli cənab Prezident İlham Əliyev, mən bu məktubla Sizə və bütün Azərbaycan xalqına böyük qələbə sevinci arzu etməklə, qəlbimdəki səmimi hisslərimi çatdırmaq istədim. Xalqımızın igid oğlu, dəyanətli dövlət başçımız, Siz 30 illik bir həsrətə son qoyursunuz, Sizinlə fəxr edirik. Vətən müharibəsi başlayan gündən Sizin televiziyada etdiyiniz çıxışları səbirsizliklə gözləyirəm, şad xəbər verəcəyinizə inanaraq hər kəlmənizi diqqətlə dinləyirəm. Bu gün mən də əlimə silah götürüb, çəkinmədən mənfur düşmənə qarşı vuruşmaq istərdim. Lakin iki qız övladı böyüdən bir ana olduğum üçün bunu edə bilmirəm. Amma var olsun Azərbaycanımın mərd oğulları ki, onlar bizi qoruyur və işğalçıların dərsini layiqincə verirlər. Nə yaxşı ki, mən azərbaycanlıyam və bizim Sizin kimi dövlət başçımız var. Tanrı Sizi qorusun! Qələbə bizimlədir! Yaşasın Azərbaycan əsgəri! Qarabağ Azərbaycandır!”

Yevlaxdan **Ömər Əsədli:** “Cənab Prezident, mənim 7 yaşım var. Bu məktubu da Sizə nənəmin köməyi ilə yazıram. Yevlax şəhərində yaşayıram. Evimizi çox sevirəm. Harasa qonaq gedəndə evə qayıtmağa tələsirəm. Belə başa düşürəm ki, evimiz mənim Vətənimdir. 30 il - nənəmin dediyinə görə, bu, çox böyük bir müddətdir. Bilirəm ki, 30 il bundan əvvəl mən yaşda olan uşaqlar da öz evlərindən qaçqın düşüblər. Onu da bilirəm ki, qaçqın düşmək ürəyin istəsə də öz evinə qayıda bilməmək deməkdir. Mən onların nə çəkdiyini çox qəşəng bilirəm. 30 il sonra bu insanlar evlərinin, torpaqlarının bir addımlığındadırlar. Bu gün torpaqlarımız Sizin sayənizdə işğaldan azad edilir. Çox sevinirəm. Bilirəm ki, mən evimizi istədiyim kimi, hamı öz evini istəyir. Tezliklə hamı öz doğulduğu torpağa qayıdacaq və kim hansı yaşda evlərindən qaçqın düşübsə, özünü elə o yaşda da hiss edəcək. Mən buna əminəm. Onları uşaqlığına qaytaracaqsınız. Onlara yeni həyat bəxş edəcəksiniz”.

Qubadlı sakini **Heyvagül Vəliyeva:** “Hörmətli cənab Prezident, Sizə bir şəhid anası kimi müraciət edirəm. Sizin rəhbərliyinizlə ordumuz böyük qələbələr qazanır. Qələbə xəbərləri bizi çox sevindirir. Mən inanıram ki, tezliklə bütün torpaqlarımız işğaldan azad ediləcək. Sizə sonsuz təşəkkürlərimi bildirirəm. Dualarımız həmişə Sizinlədir. Allah Sizi və Ordumuzu qorusun!”

Neftçaladan **Sahib Güllərov** yazır: “Möhtərəm Prezident, müzəffər Ali Baş Komandan, bir vətəndaş olaraq Sizin son zamanlar Azərbaycan torpaqlarının işğaldan azad edilməsi ilə bağlı atdığınız hər bir addımı bəyənir və dəstəkləyirəm. Bu haqq yolunda apardığınız şanlı mübarizəyə görə Allahdan Sizə yar və yardımçı olmasını arzu edirəm. Sizin sayənizdə Ordumuzla və igid əsgərlərimizlə qürur duyuruq. Biz həmişə Sizinləyik. Sizə inanır və güvənirik. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”.

Bakı şəhərindən **Rəsul Hacızadə** yazır: “Möhtərəm Prezident, müzəffər Ali Baş Komandan, Sizin rəhbərlik etdiyiniz ölkənin vətəndaşı olduğum üçün fəxr edirəm. Dünyada dahi çoxdur. Amma Siz Vətənimizin ərazi bütövlüyü uğrunda apardığınız bu müharibə ilə dahi sərkərdə olduğunuzu sübut etdiniz. Sizin rəhbərliyinizlə şanlı ordumuzun ölkəmizin ərazi bütövlüyünü təmin etmək üçün apardığı müqəddəs Vətən müharibəsini hər bir azərbaycanlı kimi ürəkdən dəstəklədiyimizi bildirmək istəyirəm. Biz ailəliklə Sizi çox sevirik, hər zaman Sizin çıxışlarınızı sevə-sevə gözləyirik. Biz fəxr edirik ki, azərbaycanlıyıq! Qarabağ Azərbaycandır!”

Füzuli sakini **Arzu Həbibova:** “Hörmətli cənab Prezident, bir hərbçi anası olaraq Sizə öz dərin minnətdarlığımı bildirirəm. Siz öz işinizi layiqincə yerinə yetirir və bizləri bu qələbə xəbərləri ilə sevindirirsiniz. Mənim oğlum hazırda ön cəbhədə öz vəzifəsini yerinə yetirir. Mən bununla fəxr edirəm ki, oğlum belə şücaətli bir Orduda öz torpaqlarımızı mənfur düşməndən azad etmək üçün vuruşur. Səngərdə olan bütün əsgər və zabitlərimizə bu çətin yolda uğurlar arzu edirəm. Rəbbimiz hər birini qorusun. Allahın nəzəri üzərlərində olsun. Biz Sizinlə fəxr edirik, Azərbaycan əsgəri. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!”

Gəncə şəhərindən **Turanə Allahverdiyeva:** “Möhtərəm Prezident, müzəffər Ali Baş Komandan, mən əslən Füzuli rayonundanam. Dədə-baba torpaqlarımız işğaldan azad edildikdən bəri sevincimizin həddi-hüdudu yoxdur. İnşallah, tez bir zamanda tam qələbə çalarıq və işğal altında olan bütün ərazilərimiz yenidən bizim olar. Ümid yalnız Sizədir, Ali Baş Komandan və müzəffər Azərbaycan Ordusu! Allah Sizi və bütün hərbçilərimizi qorusun. Qarabağ Azərbaycandır!”

Şəkidən **Tərlan Abdullayev** yazır: “Cənab Prezident, Vətənini, millətini canı, qanı bahasına qoruyan əsgərlərimizə Ulu Tanrı yar olsun. Torpaqlarımızın mənfur düşmənlərdən azad edilməsi uğrunda canından keçən şəhidlərimizə də Allah rəhmət eləsin. Mən də bir Azərbaycan gənci kimi hər zaman Vətən uğrunda döyüşə hazıram. Tanrı Sizi qorusun”.

Neftçaladan **Şəhla Abdullayeva:** “Müzəffər Ali Baş Komandan, artıq hər gün Sizin cəbhədəki uğurlarla bağlı xəbərlərinizi eşitməyə alışmışıq. Xalq olaraq Sizin arxanızdayıq və Sizə güvənirik. İnanırıq ki, tezliklə bütün torpaqlarımız işğaldan azad ediləcək, düşmən tapdağı altında bir qarış belə torpağımız qalmayacaq. Müzəffər Ali Baş Komandanımız, bu gün mən fəxr edirəm ki, azərbaycanlıyam və Sizin kimi dövlət başçımız vardır. Qarabağ Azərbaycandır!”

Şamaxıdan **Famil Umudov:** “Hörmətli Prezident, mən Umudov Famil Təvəkkül oğlu Şamaxı rayonunun Çarhan kəndində yaşayıram. Allah Sizi qorusun. Sizin sayənizdə Azərbaycan günü-gündən inkişaf edir. Bildiyimiz kimi, Azərbaycan müharibə dövrünü mətinliklə yaşayır, əsgərlərimiz hər gün irəliləyir. Bunlara görə əsgərlərimizə borclu olduğumuz qədər, Sizə də borcluyuq. Sizin uzaqgörənliyiniz və uğurlu siyasətiniz sayəsində Azərbaycan dövləti hər zaman zəfər çalacaq. İnşallah, bayrağımız tezliklə Qarabağda, Şuşada dalğalanacaq və bir daha enməyəcək. Şamaxı şəhəri də bu müharibə dövründə Sizin və Azərbaycan Ordusunun yanındadır. Şamaxıdan hərbi xidmətə gedən çağırışçılarla yanaşı, xeyli sayda könüllü ordu sıralarına qatılıb. Cənab Prezident, bu Sizin düzgün siyasətinizin, çıxışlarınızın, güclü təşkilatçılığınızın nəticəsidir. Çünki biz Sizə güvənirik və Sizinlə fəxr edirik. Allah tezliklə bizə qələbə sevincini yaşatsın. Mən və həmkəndlilərim Sizə dərin təşəkkürümüzü bildiririk. Ötən il baş vermiş zəlzələ zamanı Sizin göstərdiyiniz qayğı və diqqəti heç vaxt unutmarıq. Şamaxıda ziyan dəymiş evlər bərpa edilib və ya yenidən tikilərək insanlara verilib. Hörmətli Prezident, son illərdə ölkəmizin əldə etdiyi uğurlar, sabit inkişaf Sizin adınızla bağlıdır. Bu, Ulu Öndər Heydər Əliyevin işlərinin davamıdır. İnanıram ki, Ordumuz qələbə çalacaq. Var olsun Prezidentimiz, Ali Baş Komandanımız ki, Azərbaycan tarixini zəfərlə yazır. Eşq olsun Prezidentimizə!”

Lənkərandan **Mədinə Kəlbiyeva** yazır: “Hörmətli sərkərdəmiz, mən 5-ci sinifdə oxuyuram. Həmişə Sizin çıxışlarınızı televiziyadan izləyirəm və Sizi alqışlayıram. İşğal altında olan 4 rayonumuzu və 200-dən çox kəndimizi azad edərək özümüzə qaytardığınız üçün Sizə təşəkkür edirəm. Bu müharibə bizim haqq səsimizdir. Mənim atam da hazırda ön cəbhədə həkim-cərrah kimi çalışır. Mən hər gün Siz, atam və əsgərlərimiz üçün dualar edirəm. Allah Sizi də, atamı da, bütün əsgər və zabitlərimizi də qorusun! Tezliklə bütün Qarabağımızı qaytarmaq ümidi ilə... Sizi çox sevirəm. Qarabağ Azərbaycandır!”

## Milli Məclisin iclasında

# Prezidentin yorulmaz və məqsədyönlü fəaliyyəti hər kəsə nümunədir

### Parlamentin iclasında Azərbaycan Ordusunun zəfər yürüşünün uğurla başa çatacağı günün uzaqda olmadığı bəyan edildi




**Noyabrın 6-da Milli Məclisin növbəti plenar iclası keçirildi. İclası açan Milli Məclisin Sədri Sahibə Qafarova bildirdi ki, Azərbaycan Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə Ordumuzun və xalqımızın Qarabağ uğrunda qurtuluş savaşı həlledici mərhələyə daxil olub.**

Erməni vandalizminin dəhşətlərini yaşamış torpaqlarımızın böyük bir hissəsi uğurlu hərbi əməliyyatlar nəticəsində işğaldan azad edilib. Bu gün Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərlərində, 3 qəsəbədə, 200-dən çox kənddə yenidən Azərbaycan bayrağı dalğalanır.

### Azərbaycan bayrağı digər şəhər və kəndlərimizdə də ucalacaq

Milli Məclisin Sədri qeyd etdi ki, Azərbaycan Ordusu özünün möhtəşəm qələbələri ilə dünya hərb tarixinə yeni şanlı səhifələr yazır. Silahlı Qüvvələrimizin kompleks inkişafı və modernləşdirilməsi ilə bağlı son 17 ildə həyata keçirilən hərbi siyasətin səmərəliliyi döyüş meydanında təcəssümünü tapır. Hərbi əməliyyatların aparıldığı 1 ay 10 günlük müddət göstərir ki, Azərbaycan Ordusu mümkün olmayanı etməyə qadirdir. Düşmənin uzun illər ərzində qurduğu, keçilməz hesab etdikləri müdafiə xətləri yarılıb, Ermənistanın hava hücumundan müdafiə sistemi və hərbi hava qüvvələri sıradan çıxarılıb. İşğalçı qüvvələrə ağır zərbələr endirilir, onların çoxlu sayda canlı qüvvəsi və hərbi texnikası məhv edilir.

Sahibə Qafarova xalqımızın haqq işinə göstərilən beynəlxalq dəstəyin artdığını, qədim Qarabağ torpağında Xeyirlə Şərin qarşı-qarşıya gəldiyini getdikcə daha çox insanın dərindən anladığını vurğuladı. Bildirdi ki, tarixin yanlış tərəfində yer tutan erməni şovinizmi öz havadarları ilə birlikdə bir əsrdən artıq dövrdə xalqımıza qarşı apardığı informasiya müharibəsində sarsıdıcı zərbələr alır. Azərbaycan Prezidenti İlham Əliyevin demək olar ki, hər gün xarici ölkələrin mötəbər kütləvi informasiya vasitələrinə müsahibələr verməsi, bölgədə cərəyan edən hadisələr, dövlətimizin beynəlxalq hüquqa əsaslanan mövqeyi barəsində məlumatları dünya ictimaiyyətinə çatdırması, erməni faşizminin insana zidd mahiyyətini ifşa etməsi bu baxımdan müstəsna və həlledici rola malikdir.

Spiker Azərbaycanın haqq işi uğrunda mübarizə aparan, bütün vasitələrdən istifadə edərək ölkəmizin ərazi bütövlüyünü bərpa edəcəyini söyləyən möhtərəm Prezidentin yorulmaz və məqsədyönlü fəaliyyətinin hər kəsə, o cümlədən deputatlara nümunə olduğunu xüsusilə vurğuladı. Əmin olduğunu bildirdi ki, Azərbaycan Ordusunun zəfər yürüşünün uğurla başa çatacağı gün uzaqda deyil.

Tezliklə Azərbaycan bayrağı Qarabağın incisi və tacı olan Şuşada, Laçında, Xankəndidə, digər şəhər və kəndlərimizdə yüksələcəkdir.

Spiker fikirlərini “Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!” şüarları ilə yekunlaşdırdı.

Gündəliyin təsdiqindən sonra deputatlar cari məsələlər barədə fikirlərini bildirdilər.

Komitə sədrləri Zahid Oruc, Bəxtiyar Əliyev, deputatlar Azər Badamov, Əli Məsimli, Erkin Qədirli, Bəhruz Məhərrəmov, Fazil Mustafa öz çıxışlarında Azərbaycan cəmiyyətinin səfərbər olmasının, torpaqlarımızın işğaldan azad edilməsinin ölkəmizə qürur yaşatdığını bildirib, artıq informasiya müharibəsində də Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə öndə olduğumuzu iftixar hissi ilə qeyd etdilər.

### Ali təhsil diplomlarının tanınması proseduru təkmilləşdirilir

Sonra gündəliyə daxil olan qanun layihələrinin müzakirəsinə başlanıldı. Milli Məclisin Elm və təhsil komitəsinin sədri Bəxtiyar Əliyev “Təhsil haqqında” qanunda dəyişiklik edilməsi barədə layihəni üçüncü oxunuşda təqdim etdi. Qeyd olundu ki, bu dəyişiklik nəticəsində ali təhsil diplomlarının tanınması proseduru təkmilləşdiriləcək, tanınan sənədlərin əhatə dairəsi genişləndirilərək ali təhsilə aid olan və ya ali təhsilə qəbul olunmaq imkanı verən subbakalavr diplomlarının da tanınma imkanı və proseduru yaradılacaq. Qanun layihəsi üçüncü oxunuşda təsdiq edildi.

Bəxtiyar Əliyev “Peşə təhsili haqqında” qanunda dəyişiklik edilməsi ilə bağlı layihə (üçüncü oxunuş) barədə də məlumat verərək bildirdi ki, sənəd “Təhsil haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinə uyğun olaraq hazırlanıb və terminologiyanın eyniləşdirilməsi məqsədi daşıyır. Komitə sədri ikinci oxunuşda müzakirələrdən sonra ötən dövrdə heç bir təklif və ya iradın daxil olmadığını bildirdikdən sonra qanun layihəsi üçüncü oxunuşda qəbul olundu.

Parlamentin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev Azərbaycan Respublikasının Meşə Məcəlləsində, Azərbaycan Respublikasının Torpaq Məcəlləsində, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, “Torpaq islahatı haqqında”, “Torpaq bazarı haqqında”, “Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında”, “Dövlət rüsumu haqqında”, “Daşınmaz əmlakın dövlət reyestri haqqında” və “Torpaqların dövlət ehtiyacları üçün alınması haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə qanun layihəsini ikinci oxunuşda təqdim etdi. Bildirdi ki, layihə “Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında” Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1438-VQD nömrəli Qanununun icrası məqsədilə hazırlanıb. Qanun layihəsi ikinci oxunuşda təsdiq olundu.

### Əmək müqaviləsində icbari tibbi sığortalanma barədə məlumatlar əks olunacaq

Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev Əmək və Ailə məcəllələrində dəyişiklik edilməsi haqqında qanun layihəsi barədə məlumat verdi. Qeyd etdi ki, ikinci oxunuşda təqdim olunan layihə “Tibbi sığorta haqqında” qanunda dəyişiklik edilməsi barədə” Azərbaycan Respublikasının 2019-cu il 3 dekabr tarixli 1718-VQD nömrəli Qanununun icrası ilə əlaqədar hazırlanıb. Sənədə əsasən, Əmək Məcəlləsinə işçinin hüquqları və işəgötürənin vəzifələri sırasına işçilərin icbari tibbi sığortası ilə bağlı məsələlərin daxil edilməsi nəzərdə tutulub. Dəyişikliyə görə, əmək müqaviləsində işçinin icbari tibbi sığortalanması barədə müvafiq məlumatlar əks olunmalıdır. Ailə Məcəlləsinə təklif olunan dəyişiklikdə isə bildirilir ki, nikaha daxil olmaq istəyən şəxslərin tibbi müayinəsinin maliyyələşdirilməsi “Tibbi sığorta haqqında” qanunun tələblərinə uyğunlaşdırılır. Qanun layihəsi ikinci oxunuşda təsdiq edildi.

İclasda “Hərbi qulluqçuların statusu haqqında”, “Əhalinin sağlamlığının qorunması haqqında”, “Yol hərəkəti haqqında”, “Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş uşaqların sosial müdafiəsi haqqında”, “Avtomobil yolları haqqında”, “Özəl tibb fəaliyyəti haqqında”, “Dövlət qulluğu haqqında”, “Psixiatriya yardımı haqqında”, “Onkoloji yardım haqqında” və “Tütün məmulatlarının istifadəsinin məhdudlaşdırılması haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi də ikinci oxunuşda müzakirəyə çıxarıldı. Parlamentin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov qanun layihəsinin “Tibbi sığorta haqqında” qanunda dəyişiklik edilməsi barədə” 2019-cu il 3 dekabr tarixli 1718-VQD nömrəli Qanunun icrası ilə əlaqədar hazırlandığını dedi. Bildirdi ki, tibbi sığortaya keçidlə əlaqədar icbari tibbi sığorta olunanlara tibbi yardım xidmətlər zərfində nəzərdə tutulduğu hallarda icbari tibbi sığorta haqları hesabına, digər hallarda isə dövlət büdcəsi hesabına göstəriləcək. Hazırda vətəndaş üçün bu, pulsuz tibbi yardım kimi görünsə də, həmin yardımın dəyəri tibb müəssisəsinə dövlət büdcəsi hesabına ödənilir. Tibbi sığortanın tətbiqi isə tibb müəssisələrinin və tibbi yardımın maliyyələşdirilməsinin qaydasını da dəyişmiş olur.

Ziyafət Əsgərov sənədin Milli Məclisin iclasında Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanovun təqdimatı ilə birinci oxunuşu zamanı və sonrakı müddətdə qanun layihəsi ilə bağlı heç bir təklif və iradın qeydə alınmadığını bildirdi. Bundan sonra qanun layihəsi ikinci oxunuşda təsdiq olundu.

İclasda “Tibbi sığorta haqqında” qanunda dəyişiklik edilməsi ilə bağlı layihəni parlamentin Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov ikinci oxunuşda müzakirəyə təqdim etdi. Diqqətə çatdırdı ki, “Maliyyə xidmətləri bazarında tənzimləmə və nəzarət sisteminin idarəedilməsinin təkmilləşdirilməsi haqqında” Azərbaycan Prezidentinin Sərəncamı ilə maliyyə xidmətləri bazarında, o cümlədən sığorta bazarında tənzimləmə və nəzarət səlahiyyətləri Azərbaycan Respublikasının Mərkəzi Bankına verilib. Buna uyğun olaraq, “Tibbi sığorta haqqında” qanunun 7.2-ci maddəsinə müvafiq dəyişiklik edilib. Dəyişikliklər “Əhalinin sağlamlığının qorunması haqqında” qanuna uyğun olaraq aparılıb. Komitə sədri bildirdi ki, deputatlar tərəfindən sənədlə bağlı heç bir təklif və sual qeydə alınmayıb. Qanun layihəsi ikinci oxunuşda qəbul olundu.

### Dövlət qulluqçusunun fəaliyyətinin qiymətləndirilməsi qaydaları təkmilləşdirilir

İclasda son olaraq “Dövlət qulluğu haqqında” qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirə olundu. Milli Məclisin Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Kamal Cəfərov bildirdi ki, qanun layihəsinin əsas məqsədi dövlət qulluqçularının fəaliyyətinin düzgün qiymətləndirilməsi, onların potensial imkanlarının aşkara çıxarılması, inkişafı və səmərəli istifadəsidir. Layihədə əsas istiqamət dövlət qulluqçusunun fəaliyyətinin qiymətləndirilməsi qaydalarını təkmilləşdirməkdir. Qiymətləndirmə müvafiq icra hakimiyyəti - Nazirlər Kabineti tərəfindən aparılacaq. Diqqətə çatdırıldı ki, dövlət qulluqçusunun peşə səriştəliyini artırmağın stimullaşdırılması və onun əlavə təhsilə ehtiyacının, habelə tutduğu vəzifəyə uyğun gəlib-gəlmədiyinin müəyyənləşdirilməsi məqsədilə hər təqvim ilinin sonunda inzibati vəzifə tutan dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi həyata keçiriləcək. Yekun qiymətin 50 faizi tapşırıqların icra vəziyyətinə, 40 faizi meyarlar əsasında, 10 faizi isə əmək intizamı əsasında qiymətləndirməyə əsaslanacaq.

Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticələri qiymətləndirmə barədə sənədlə rəsmiləşdiriləcək. Dövlət qulluqçusunun xidməti fəaliyyəti üzrə yekun qiymət müəyyən edildikdən sonra onunla müsahibə keçiriləcək. Müsahibə zamanı dövlət qulluqçusunun xidməti fəaliyyətinə verilən qiymət və şərhlər müzakirə olunacaq. Kamal Cəfərov bildirdi ki, dövlət orqanının rəhbəri tərəfindən dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsinə görə, onun barəsində mükafatlandırılma, vaxtından əvvəl ixtisas dərəcəsinin verilməsi, fəaliyyətinin və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə əlavə təhsilə və xüsusi təlimlərə cəlb edilməsi, bilik və bacarıqlarına uyğun digər analoji vəzifəyə keçirilməsi, aşağı inzibati vəzifəyə keçirilməsi kimi tədbirlərdən biri görülə bilər. Dövlət qulluqçusu xidməti fəaliyyətinin qiymətləndirilməsinin nəticəsi ilə razılaşmadıqda inzibati qaydada və məhkəmə qaydasında şikayət etmək hüququna malik olacaq. Sənədlə bağlı komitə sədrləri Tahir Mirkişili, Siyavuş Novruzov, komissiya sədri Eldar Quliyev, deputatlardan Fazil Mustafa, Elşad Mirbəşiroğlu, Etibar Əliyev, Erkin Qədirli fikirlərini bildirdilər. Qanun layihəsi birinci oxunuşda qəbul edildi.

İclasın sonunda Milli Məclisin Sədri Sahibə Qafarova qarşıdan 9 Noyabr - Dövlət Bayrağı günü, 12 Noyabr - Konstitusiya günü, 17 Noyabr - Milli Dirçəliş günü kimi gözəl bayramların gəldiyini xatırlatdı. Spiker bu münasibətlə deputatları təbrik etdi, xalqımıza xoş arzularını çatdırdı.

***Rəşad CƏFƏRLİ,***
***“Azərbaycan”***

# Səfir Milan Ekert: "Çexiya Azərbaycanla əməkdaşlığın inkişafına böyük önəm verir"



Noyabrın 6-da Milli Məclisin sədri Sahibə Qafarova Çex Respublikasının ölkəmizdəki səfiri Milan Ekert ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən verilən məlumata görə, görüşdə sədr bildirib ki, Azərbaycanla Çexiya arasında siyasi-iqtisadi münasibətlər yüksək səviyyədədir. Əlaqələrimizin bu səviyyəyə çatmasında dövlət və hökumət başçılarının qarşılıqlı səfərlərinin və görüşlərinin rolu böyükdür. Siyasi dialoqun yüksək səviyyədə olması həyatın digər sahələrində də əməkdaşlığımızın dərinləşməsinə öz müsbət təsirini göstərir. Biz gələcəkdə Çexiya ilə iqtisadi, mədəni, humanitar sahələrdə əlaqələrimizi daha da inkişaf etdirmək niyyətindəyik.

Bildirilib ki, ölkələrimiz arasında bu günədək imzalanmış sənədlər münasibətlərimizin möhkəm hüquqi bazasını təşkil edir. Son illər ərzində bu sahədə görülən işlərin məntiqi nəticəsi kimi, qarşılıqlı ticarət dövriyyəsinin ilbəil artması müşahidə olunur. Bu gün Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rol oynayır. Çexiya da Avropa İttifaqı ölkələri arasında enerji sahəsində əməkdaşlıq üzrə Azərbaycanın əsas tərəfdaşlarından biridir. İqtisadiyyatın rabitə, ticarət, nəqliyyat, tikinti, maşınqayırma, elektronika kimi sahələrində qarşılıqlı faydalı əməkdaşlıq üçün geniş imkanlar var.

Spiker bildirib ki, iki ölkənin qanunverici orqanları arasında da müsbət münasibətlər mövcuddur. Bu gün hər iki ölkənin parlamentində dostluq qrupları fəaliyyət göstərir. Parlament nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, deputatlarımızın nüfuzlu beynəlxalq parlament təşkilatlarında mütəmadi görüşləri təcrübə və informasiya mübadiləsi baxımından çox önəmlidir.

Söhbət zamanı Ermənistan-Azərbaycan münaqişəsindən danışan Milli Məclisin sədri səfirə cəbhədəki son vəziyyət, həmçinin Ermənistan silahlı qüvvələrinin mülki əhaliyə qarşı törətdiyi təcavüz aktları haqqında məlumat verib.

Səfir Milan Ekert Çexiyanın ölkəmizlə əməkdaşlığın inkişafına böyük önəm verdiyini vurğulayaraq deyib ki, Azərbaycan Çexiya üçün vacib strateji tərəfdaşdır. Səfir bildirib ki, onun təmsil etdiyi ölkə Azərbaycanla ikitərəfli və çoxtərəfli formatda münasibətlərin dərinləşməsində maraqlıdır. Siyasi, iqtisadi, ticari və humanitar sahələrdə əlaqələrimizin inkişafı xalqlarımızın rifahına xidmət edir.

Səfir Cənubi Qafqazın bu bölgəsində baş verən prosesləri yaxından izlədiklərini qeyd edərək Dağlıq Qarabağ probleminin tezliklə aradan qalxacağına inamını ifadə edib.

Görüşdə parlamentlərarası əlaqələrin inkişafı, regional münaqişələrin həlli yolları, COVID-19 pandemiyasına qarşı mübarizə ilə bağlı məsələlər və tərəfləri maraqlandıran digər mövzularda fikir mübadiləsi aparılıb.

# Hikmət HACIYEV: "Ermənistan xaricdə QHT və xeyriyyə təşkilatları adı altında fəaliyyət göstərən erməni diasporunu səfərbər edərək öz ordusuna maliyyə vəsaitləri cəlb edir"




Döyüş meydanındakı böyük itkiləri kompensasiya etmək məqsədilə Ermənistan xarici ölkələrdə qeyri-hökumət təşkilatları və xeyriyyə təşkilatları adı altında fəaliyyət göstərən erməni diasporunu səfərbər edərək öz ordusuna maliyyə vəsaitləri cəlb edir ("We are our borders - All for Artsakh" donation campaign, Armenia Fund, Armenian General Benevolent Union, Armenian Canadian Medical Association of Ontario, Fund for Armenian Relief, Tufenkian Foundation, Armenian Relief Society və s.).

Bu barədə KİV-ə açıqlamasında Prezidentin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev bildirib.

Prezidentin köməkçisi deyib: "Erməni diasporunun idarə etdiyi qeyri-hökumət təşkilatları və xeyriyyə təşkilatlarının xətti ilə əldə edilən maliyyə vəsaitləri Azərbaycanın işğal edilmiş ərazilərində fəaliyyət göstərən Ermənistan ordusunun maliyyələşdirilməsinə yönəlir və bununla da Ermənistan tərəfindən Azərbaycanın mülki əhalisinə qarşı növbəti hücumlara töhfə vermiş olur. Xaricdə yaşayan ermənilər arasında bu barədə sosial media və şəbəkələrdəki yazışmalar bunu sübut edir.

Bu, ilk dəfə deyil ki, xaricdəki erməni diasporu qeyri-hökumət təşkilatları və xeyriyyə təşkilatlarından sui-istifadə edərək əldə edilən vəsaitləri Azərbaycanın işğal olunmuş ərazilərində qeyri-qanuni fəaliyyət və işğalın möhkəmləndirilməsi, eləcə də işğalçı ordu üçün silah-sursatın alınması istiqamətində istifadə edir. Son 30 ildə erməni diasporu bu istiqamətdə fəal iş aparmış və müvafiq xarici dövlətlərin vergiödəyicilərini aldatmışdır. Azərbaycanın işğal altında olan ərazisindəki qondarma rejimə bu müddətdə heç bir nəzarət mexanizmi olmadan qanunsuz vəsaitlər köçürülmüşdür ki, bu da terrorizmin maliyyələşdirilməsi deməkdir.

Terrorizmin maliyyələşdirilməsinə qarşı mübarizə üzrə 1999-cu il tarixli Beynəlxalq Konvensiyanın, eləcə də BMT Təhlükəsizlik Şurasının 1373 (2001), 2178 (2014), 2195 (2014) və 2347 (2017) saylı qətnamələrinin müddəalarına görə, qeyri-kommersiya təşkilatları tərəfindən yuxarıda göstərilən sahələr üzrə fəaliyyət terrorizmin maliyyələşməsi kimi qiymətləndirilir və dövlətlər bu kimi halların qarşısını almaq üçün qabaqlayıcı tədbirlər görməlidir. Bu xüsusda Azərbaycan BMT-nin üzv dövlətlərini öz ərazilərindən ölkəmizin suverenliyi və ərazi bütövlüyünə qarşı yönəlmiş erməni terrorizminin maliyyələşməsi məqsədilə istifadənin qarşısını almağa çağırır".

# Düşmən tərəfindən törədilən bütün hərbi cinayətlər gücsüzlüyün, aşkar məğlubiyyətin təzahürü və sübutudur

"Müzəffər Ali Baş Komandan İlham Əliyevin əzmi, düzgün siyasəti, qətiyyət və strateji idarəetməsi ilə Azərbaycan Ordusu dünya tarixinə zəfər və qalibiyyət salnaməsini həkk etdirir. Artıq bütün dünya ordumuzun yenilməzliyinə, qazandığı nailiyyətlərinə və gücünə bələd olmaqla bərabər, Azərbaycan dövlətinin müharibə şəraitində belə beynəlxalq hüququn bütün norma və prinsiplərinə sadiq qalmaqla apardığı uğurlu hərbi əməliyyatlar nəticəsində öz tarixi, əzəli-əbədi torpaqlarını işğaldan azad edərək regionda sülhün və ədalətin bərpası üçün əməli işlər gördüyünün şahidi olur. Azərbaycanın bütün sahələrdə dayanıqlı və davamlı inkişafa nail olması aparılan uğurlu hərbi əməliyyatların və qələbəmizin rəhnidir. Cəsarətlə deyə bilərik ki, qalib Azərbaycan Ordusu regionda sülhün və ədalətin təminatçısı olmaq əzmində və gücündədir".



Bu fikirlər Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Hərbi məsələlər şöbəsinin müdiri Məhərrəm Əliyevin "Düşmən tərəfindən törədilən bütün hərbi cinayətlər gücsüzlüyün, aşkar məğlubiyyətin təzahürü və sübutudur" sərlövhəli məqaləsində yer alıb. Məqaləni təqdim edirik.

Mülki vətəndaşlarımızın beynəlxalq miqyasda qadağan olunmuş raketlərlə hədəfə alınması və dinc əhalinin daim atəş altında saxlanılması Ermənistan rəhbərliyinin riyakar planlarının bir hissəsi idi. Bütün bunlara baxmayaraq, xain hücumlar qarşısında məğrur dayanan, öz Ali Baş Komandanına və ordusuna güvənən Azərbaycan xalqı düşmənin bu planlarını da alt-üst etməkdədir. Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Azərbaycan Ordusu düşmənin layiqli cavabını verir.

Müdafiə Nazirliyi tərəfindən əldə edilən kəşfiyyat məlumatlarına əsasən aydın olub ki, Ermənistanın Xocavənd istiqamətinə xeyli miqdarda qadağan olunmuş ağ fosfor tərkibli hərbi sursat gətirərək Şuşa meşələrində yanğınlar törətməsi onların növbəti hərbi cinayət törətmək niyyətinin açıq-aşkar sübutudur. Düşmən döyüş və hərbi əməliyyatlar zamanı ordumuzun uğurlu irəliləyişinin qarşısını almaq məqsədilə ekoloji terror törədərək zəhərli və söndürülməsi mümkün olmayan maddələrdən istifadə edərək meşələri yandırmaqla ətraf mühitin qorunması üzrə beynəlxalq konvensiyaları kobud şəkildə pozur. Ağ fosfor tipli bombalardan istifadə etməklə törədilən yanğınların uzun müddət davam etməsində maraqlı olan riyakar düşmən döyüş meydanında məğlubiyyətini etiraf edir və hərbi cinayətlər törədərək dünyaya öz işğalçı və terrorçu imicini bir daha tanıdır.

Azərbaycan tərəfinin dəfələrlə xəbərdarlıq etməsinə baxmayaraq, Ermənistan tərəfindən hərbi cinayətlər və dinc əhalinin atəşə tutulması davam edir. Azərbaycan Ordusunun nümayiş etdirdiyi təmkin və mərkəzləşmiş vahid komandanlıq altında idarəetmə sistemi ilə Ermənistan ərazisindən bölmələrimizin mövqelərini və yaşayış məntəqələrimizi hədəfə alan atəş nöqtələri və döyüş vasitələri adekvat tədbirlər çərçivəsində legitim hərbi hədəflərə çevrilir və çevriləcək.

Biz döyüş meydanında öz gücümüzü göstərməklə yanaşı, humanist və bəşəri dəyərlərə hörmətimizi də nümayiş etdiririk. Azərbaycan Ordusu tərəfindən əsir götürülən hərbi və mülki vətəndaşlara diqqət və həssaslıqla yanaşılır, onların qarşı tərəfə sağlam təhvil verilməsinə səy göstərilir. Ancaq təəssüflər olsun ki, Ermənistan hərbi və siyasi rəhbərliyi ölkədaxili təzyiq və gərginlikdən qorxaraq öz vətəndaşlarına sahib çıxmır və ölkə ictimaiyyətini yanlış məlumatlarla aldadır. Başda Ali Baş Komandanımız olmaqla müharibənin taleyini müəyyən edən, döyüş meydanında əsl şücaət göstərən şanlı Azərbaycan Ordusunun səyləri nəticəsində iflic vəziyyətə düşən Ermənistan ordusunun arsenalında yer alan köhnə və istismar müddəti bitmiş silah və hərbi sursatların məhv edilməsi illərlə özlərini və dünyanı aldadaraq yaratmış olduqları "məğlubedilməz erməni ordusu" mifinin real durumunu təsbit edir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Rusiyanın RBK televiziya kanalına müsahibəsində qeyd etdiyi kimi: "Müzəffər erməni ordusu" haqqında mif puç oldu, əslində isə, belə ordu yox idi. Münaqişənin tarixinə dərindən bələd olanlar çox gözəl bilirlər ki, bizim torpaqlarımız, o cümlədən sovet ordusunun 366-cı motoatıcı alayı tərəfindən işğal edilib. Xankəndidə yerləşən bu alaydakı hərbi qulluqçuların, məncə, 70 faizi erməni mənşəli idi. Yəni bu, şəxsi heyəti ermənilərdən ibarət olan sovet silahları, sovet komandanlığı idi. Onlar həm etnik təmizləmələrdə, həm də soyqırımında fəal rol oynayırdılar".

Xalqımız şanlı Azərbaycan Ordusunun tam qələbəsini böyük ümid və inamla gözləyir. Hər gün cəbhədən gələn müjdələr Qələbə gününün yaxında olduğuna inam yaradır. Müzəffər Ali Baş Komandanımızın ətrafında sıx birləşən xalqımızın həmrəyliyi və Azərbaycan Ordusunun gücü sayəsində qələbə bizimdir!

Qarabağ Azərbaycandır!

# Azərbaycan Respublikası Baş Prokurorluğunun kollegiya iclası keçirilib

Noyabrın 6-da Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə mövcud şəraitdə prokurorluq orqanlarının, o cümlədən işğaldan azad edilmiş rayonların prokurorluqlarının fəaliyyətinin gücləndirilməsi, prokurorluq orqanlarında başlanmış və istintaq aparılan cinayət işlərinə və işin təşkilinə dair digər məsələlərə həsr olunmuş kollegiya iclası keçirilib.



Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, iclasdan öncə Vətən torpaqlarının azadlığı uğrunda şəhid olmuş hərbi qulluqçularımızın və mülki vətəndaşlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib, döyüşlərdə yaralananlara və xəsarət almış şəxslərə şəfa dilənilib.

İclasda bu il sentyabrın 27-də erməni hərbi birləşmələrinin genişmiqyaslı təxribat törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi intensiv atəşə məruz qoymalarına cavab olaraq müzəffər Ali Baş Komandan İlham Əliyevin əmri ilə işğalçı Ermənistana qarşı bütün cəbhəboyu genişmiqyaslı əks-hücum əməliyyatına başlanmaqla qısa müddətdə qəhrəman ordumuzun əzmi və şücaəti nəticəsində Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı şəhərləri və Hadrut qəsəbəsi də daxil olmaqla ümumilikdə 200-dən artıq yaşayış məntəqələrinin işğaldan azad edilməsi, döyüş əməliyyatlarının gedişində düşmən ordusuna endirilən sarsıdıcı zərbələr nəticəsində düşmənin çox sayda canlı qüvvə və texnika itirərək geri çəkilmək məcburiyyətində qalması vurğulanıb.

Dövlət başçısının müvafiq fərmanı ilə ölkəmizdə hərbi vəziyyət elan olunması ilə əlaqədar prokurorluq orqanlarının qarşısında duran vəzifələrin önəmi diqqətə çatdırılmaqla Ermənistan silahlı birləşmələrinin beynəlxalq hüquqla qəbul edilmiş normaları kobudcasına pozaraq münaqişə zonasından kənarda yerləşən yaşayış məntəqələrimizi atəşə tutması, dinc mülki əhaliyə qarşı törədilmiş sülh və insanlıq əleyhinə, müharibə, eləcə də digər cinayətlərlə əlaqədar başlanmış 51 cinayət işi üzrə təqsirli şəxslərin məsuliyyətə cəlb olunmaları üçün mümkün olan zəruri tədbirlərin görülməsinin, aidiyyəti qurumlarla birlikdə bütün hüquqi mexanizmlərdən istifadə edilməklə beynəlxalq təşkilatlara müraciət edilməsinin vacibliyi qeyd edilib.

Eyni zamanda dövlət başçısının "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" 29 oktyabr tarixli Fərmanından irəli gələn vəzifələrin icrasının təmin olunması məqsədilə Baş Prokurorluğun İstintaq idarəsində başlanmış cinayət işi üzrə aidiyyəti qurumlarla birlikdə erməni vandalizmi nəticəsində planlı şəkildə talan edilmiş, dağıdılmış tarixi, dini-mədəni abidələrə və digər əmlaklara dəymiş ziyanın müəyyənləşdirilməsi məqsədilə zəruri göstərişlər verilib.

İclasda işğal olunmuş ərazilərdə erməni silahlı qüvvələrinin tərkibində digər ölkələrdən cəlb edilmiş muzdlu şəxslərin döyüş əməliyyatlarında iştirak etmələri, həmçinin xarici ölkələrin konkret şirkətlərinin ekologiya və yerin təkinin istismarı qaydalarının kobud şəkildə pozulması ilə nəticələnən qanunsuz sahibkarlıq fəaliyyəti ilə məşğul olmaları faktları ilə bağlı cinayət işləri üzrə hərtərəfli və intensiv istintaq-əməliyyat hərəkətlərinin yerinə yetirilməsinə dair tapşırıqlar verilib.

Bundan başqa, Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni hərbi birləşmələrinin ordumuza qarşı törətdiyi cinayətlərlə əlaqədar Hərbi Prokurorluğun İstintaq idarəsində başlanmış 4 cinayət işi üzrə döyüş şəraitində mümkün olan bütün zəruri istintaq hərəkətlərinin aparılmasının zəruriliyi vurğulanıb.

İclasda həmçinin Silahlı Qüvvələrimizin apardığı əməliyyatlarla yanaşı, vətəndaşlarımızın sağlamlığının qorunması məqsədilə yeni növ koronavirus (COVID-19) infeksiyasının Azərbaycan Respublikası ərazisində yaratdığı təhlükələrin qarşısının alınması ilə bağlı prokurorluq orqanları tərəfindən həyata keçirilən cinayət təqibi və digər tədbirlər müzakirə edilməklə müvafiq göstərişlər verilib.

Aparılmış müzakirələr ətrafında Baş prokurorun birinci müavini Elçin Məmmədov, Baş prokurorun müavini - Azərbaycan Respublikasının Hərbi prokuroru Xanlar Vəliyev, Naxçıvan Muxtar Respublikasının prokuroru Səbuhi Şahverdiyev, Baş prokurorun müavini - Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəisi Nazim Rəcəbov, Bakı şəhər prokuroru İlqar Abbasov və digər Kollegiya üzvləri çıxış edərək gündəlikdə duran məsələlərə dair təkliflərini bildiriblər.

Kollegiya iclasında qeyd edilənlərlə yanaşı, işin təşkilinə dair digər məsələlər üzrə də faydalı müzakirələr aparılmaqla müvafiq qərarlar qəbul edilib.

İclasa yekun vuran Baş prokuror Kamran Əliyev Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusunun qazandığı uğurların dövlət başçısının həm siyasi, hərbi, diplomatik, həm də iqtisadi sahədə apardığı məqsədyönlü fəaliyyətinin nəticələri olduğunu diqqətə çatdırmaqla prokurorluq orqanlarının üzərinə düşən vəzifələri layiqincə yerinə yetirəcəyinə əminliyini ifadə edib.

# Özbəkistan BMT qətnamələri çərçivəsində Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir



Azərbaycan və Özbəkistan arasında əməkdaşlığın inkişafı üzrə Tədbirlər Planının həyata keçirilməsi ikitərəfli əlaqələrin genişləndirilməsinə töhfə verəcək.

İqtisadiyyat Nazirliyinin Mətbuat xidmətindən bildirilib ki, bu fikri nazir Mikayıl Cabbarov Özbəkistanın Azərbaycandakı səfiri Bahrom Aşrafxanovla görüşündə deyib. Nazir ölkəmizdəki diplomatik fəaliyyətində səfirə uğurlar arzulayıb və vurğulayıb ki, Azərbaycan-Özbəkistan əlaqələri inkişaf edir, dövlət başçılarının qarşılıqlı rəsmi səfərləri, aparılan danışıqlar ikitərəfli əməkdaşlığın inkişafında mühüm əhəmiyyətə malikdir. Qeyd edilib ki, Azərbaycan və Özbəkistan arasındakı əməkdaşlığın inkişafı üzrə Tədbirlər Planının həyata keçirilməsi ikitərəfli əlaqələrin genişləndirilməsinə töhfə verəcək. Ölkələrimiz arasındakı əməkdaşlığın inkişafı perspektivləri barədə fikirlərini bölüşən İqtisadiyyat naziri Özbəkistan iş adamlarını birgə fəaliyyətə dəvət edib.

M.Cabbarov Ermənistanın ölkəmizə qarşı təcavüzkar siyasəti və son təxribatları, törətdiyi terror və müharibə cinayətləri, Azərbaycanın beynəlxalq hüquq çərçivəsində vətəndaşlarının təhlükəsizliyinin təmin edilməsi və torpaqlarımızın işğaldan azad olunması üçün öz ərazisində apardığı uğurlu əks-hücum əməliyyatları barədə məlumat verib. Nazir səfirin mülki əhaliyə və obyektlərə artilleriya və raket zərbələri endirilməklə müharibə cinayətlərinin törədildiyi şəhər və rayonlara səfərlərinin yüksək qiymətləndirildiyini bildirib, dost Özbəkistana mənəvi dəstəyə görə minnətdarlıq edib.

İqtisadi əlaqələrin genişləndirilməsi üçün səylərini əsirgəməyəcəyini bildirən səfir B.Aşrafxanov vurğulayıb ki, Azərbaycan Vətən müharibəsi aparır və Özbəkistan BMT qətnamələri çərçivəsində Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir.

Görüşdə iqtisadi-ticarət əlaqələrinin genişləndirilməsi, dövlət-özəl tərəfdaşlığı, qarşılıqlı sərgilərin keçirilməsi və digər məsələlər müzakirə olunub.

*Əvvəli 1-ci səh.*

# Azərbaycanın ərazi bütövlüyü tam təmin ediləcək

30 ilə yaxındır aparılan danışıqlarda Ermənistan daim desturiktiv mövqedən çıxış edib, beynəlxalq ictimaiyyətin həm etinasızlığı, həm də ikili standartlarla işğala dəstək verməsi səbəbindən torpaqlarımızın ilhaqına nail olmağa çalışıb. Azərbaycan isə bu dövrdə danışıqlar prosesinə sadiq olub, problemin sülh yolu ilə həllinə çalışıb.

EFE İnformasiya Agentliyinə müsahibəsində cəbhədəki vəziyyətin Azərbaycan Ordusunun üstünlüyünü göstərdiyini deyən Prezident İlham Əliyev bir daha Silahlı Qüvvələrimizin öz ərazi bütövlüyünü bərpa etdiyini, eyni zamanda BMT Təhlükəsizlik Şurasının qətnamələrinin icra olunduğunu bəyan etdi: *"Cəbhədəki vəziyyət Azərbaycan Ordusunun üstünlüyünü göstərir. Biz bir-birinin ardınca kəndləri, şəhərləri azad edirik. Döyüş meydanındakı bu müddət ərzində Azərbaycan demək olar ki, 30 il işğal altında olan ərazisinin böyük hissəsini azad edib. Azərbaycan Ordusunun uğurlu hücum əməliyyatı davam edir. Bu, bir daha onu göstərir ki, biz güclü ölkəyik və öz torpağımızda döyüşürük. Biz Azərbaycanın beynəlxalq səviyyədə tanınan ərazisini, Azərbaycanın ərazi bütövlüyünü bərpa edirik. Yeri gəlmişkən, biz BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının bizim ərazilərimizdən çıxarılmasını tələb edən, lakin Ermənistan tərəfindən demək olar ki, 30 il ərzində əməl olunmayan qətnamələrini icra edirik".*

## Düşmənin məğlubiyyətdən başqa yolu yoxdur

Məlumdur ki, hərbi əməliyyatlar başlanandan sonra da Azərbaycan problemin danışıqlar yolu ilə həllinin mümkünlüyünü bildirdi. Lakin artıq əvvəlki dövr deyil və bütün dünya gördü ki, Ermənistanın işğalçılığına yalnız güc yolu ilə son qoymaq mümkündür. Artıq şərtləri Azərbaycan diktə edir. Danışıqlara başlamağın yolu İlham Əliyevin şərtlərinə əməl etməsindən keçir. Ermənistanın isə kompromisdən başqa yolu yoxdur. Yerevan işğal altında olan digər rayonları boşaltmaq üçün Azərbaycana vaxt cədvəli təqdim etməlidir. Yalnız bundan sonra Ermənistanla danışıqlar mümkündür.

Hazırkı mərhələdə isə İlham Əliyev Ermənistanın baş naziri ilə görüşməkdə məna görmür. Bəli, İlham Əliyev bu müharibənin qalib sərkərdəsidir. Məğlubiyyətə uğramış dövlətin rəhbərliyi ilə görüş də yalnız və yalnız İlham Əliyevin şərtlərinin tam yerinə yetirilməsi çərçivəsində mümkündür. Ermənistan indiyə qədər işğalçı siyasəti ilə fəxr edirdi, hətta Azərbaycanı yeni əraziləri zəbt etməklə hədələyirdi. Bu illər ərzində düşmən öz ordusu ətrafında mif yaratmışdı, özünü elə aparırdı ki, guya, məğlubedilməzdir. Amma elə döyüşlərin ilk günündən bu mif darmadağın edildi. Kimin kim olduğunu bütün dünya gördü. Dağlıq Qarabağda Ermənistanın yaratdığı möhkəm istehkamlar, betonlaşdırılmış mövqelər, tunellər, sığınacaqlar bir həmlə ilə ələ keçirildi. Azərbaycan Ordusu Qarabağdakı erməni silahlı birləşmələrini darmadağın edərək pərən-pərən saldı, şəxsi heyətinin böyük əksəriyyətini məhv etdi. Bu gün Ermənistanda Qarabağda döyüşə göndərməyə adam tapılmır, yerdə qalanlar da işğalçı siyasətin qurbanı olmaq istəmirlər. Artıq Dağlıq Qarabağda elə bir vəziyyət yaranıb ki, separatçı rejimin rəhbərliyi də Yerevana qaçıb.

Azərbaycan Ordusu hazırda bütün cəbhə xəttində əməliyyat şəraitinə tam nəzarət edir. İşğalçı ordunun qalıqları hər gün məhv edilir və qovulub çıxarılır. Ermənistanın Yaxın Şərqdən gətirdiyi terrorçular da işğalçıya kömək göstərməkdə acizdirlər. Ən mühüm məsələlərdən biri də odur ki, Prezident İlham Əliyevin uğurlu diplomatik gedişləri Ermənistanı beynəlxalq dəstəkdən məhrum etdi. İşğalçının dəstəklənməsinə xidmət edən bütün təşəbbüslərin qarşısı alındı.

Hələ bu ilin iyul ayında Prezident İlham Əliyev dövlət sərhədimizdə təxribat törədən Ermənistanı təkbətək döyüşə çağırmışdı. Budur, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan döyüş meydanında Ermənistana tarixinin ən böyük faciəsini yaşadır. İşğalçı diz çöküb, məğlubiyyətdən başqa yolu yoxdur. Və cəmi bir neçə gündən sonra Azərbaycanın ərazi bütövlüyü tam təmin ediləcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***



# Qələbəyə inamla, Qarabağa İLHAMla!..

Zəfərin fotosalnaməsi "Baku Media Center"in təqdimatında





























# İndi müxalif partiya lideri deyiləm, sadəcə əsgərəm...

## “Ümid”in sədri İqbal Ağazadənin ən böyük ümidi artıq doğrulur



**◆ Qarabağ söhbətləri**

*Əvvəli 1-ci səh.*

*23 avqust 1993-cü il... Həmin ilin həmin günü doğma kənddə, ata yurdunda keçirdiyi son gün oldu...*

*O gündən sonra evlərində dolma çox bişdi. Amma o qazanda yox... Heç bir dolma da kənddə bişən o son dolmanın dadı kimi ləzzətli olmadı...*

*O qazanda bir də heç vaxt yemək bişirilmədi. O qazan kənddəki evdən qalan yeganə yadigar əşya kimi qorunub saxlanıldı. O qazan həm də kəndə, ata ocağına yenidən qayıdacaqları günün gözləntisi, ümidi, arzusu oldu. Məhz həmin gün həmin evdə o qazan yenidən ocağın üstünə asılacaq və içində dolma bişəcəkdi...*

*Və düz 27 ildən sonra o gün gəlib çatdı...*



Ümid Partiyasının sədri, Qarabağ qazisi İqbal Ağazadə “Qarabağ söhbətləri”ndə dünyaya göz açdığı, doğma ata yurdu olan Füzuli rayonunun Merdinli kəndində keçən günlərinə, uşaqlıq xatirələrinə boylandı, işğal gününün acısını bir də yaşadı, qələbə sevincini, arzularını dilləndirdi.

### Kəndimizdə hər fəslin öz gözəlliyi vardı...

- Niyə torpağa bu dərəcədə bağlıyıq, onu bu qədər sevirik? Əslində torpaq insan üçün nədir? Məncə, iməkləyərkən ağzımıza dəyən torpağın dadı bizi o torpağa bağlayıb. Biz yediyimiz qida ilə yanaşı, o torpaqdan da dadmışıq. O dad bizim ruhumuza, qanımıza, orqanlarımıza, bütün hüceyrələrimizə hopub. Bəlkə də o torpağın müqəddəsliyi elə ondadır?!

Mən Füzulinin Merdinli kəndində dünyaya göz açmışam. O kənddəki evdə, torpaqda iməkləyərək həyata, yaşama doğru irəliləmişəm, vətənə bağlanmışam... Füzulinin təbiəti, insanları ilə fərqli bir yer olduğunu hər kəs bilir. Ulu babam yüzbaşı olub, Merdinlinin bəyi idi. Onun oğlu Abbas bəy Qarabağ xanlığının tanınmış şəxslərindəndir, “Qarabağnamə”də adı keçib. Qarabağın ən tanınmış bəylərindən olub. Atam Fehruz isə rayon sovetinin deputatı idi. Füzulidə böyük hörməti vardı. Kənddə elçiliyə, yaxud qan barışdırmağa gedəndə atamı aparırdılar.

Ailədə 7 uşaq idik - 5 bacı, 2 qardaş. Bütün kənd uşaqları necə idisə, biz də o cür idik. Hamı kimi, biz də adi kənd həyatı yaşamışıq. Biz evin damından sallanan sırsıra buzları yeyən uşaqlar olmuşuq. O vaxtlar qış sərt keçirdi, amma gözəl olurdu. Hər tərəf ağappaq qarla bəzənirdi. Səhər tezdən yuxudan duranda görürdük ki, qar o qədər çox yağıb yerimək mümkün deyil. Lap körpə vaxtlarımızda hətta qarın içinə batırdıq. Atam qarı bellə təmizləyərdi, ondan sonra çölə çıxa bilərdik...

Hər fəslin özünəməxsus gözəlliyi, əsrarəngliyi, “donu” vardı kəndimizdə. Təbiəti füsunkar, torpağı bərəkətli idi. O torpaqda hər ağac, hər bitki, məhsul bitirdi. Bu günlərdə bir əsgərimiz Qubadlıdan mənə zəng etdi. Dedi, Füzuli işğal olunandan bəri ilk dəfə idi bu dadda armud yeyirdim...

Tək Füzulidə yox, bütün Qarabağ torpaqlarında bitən meyvənin, tərəvəzin dadından-tamından doymaq olmurdu. Məsələn, Qarabağda heç vaxt qoz ağacı əkməzdilər. Qoz ağacını əkməklə bağlı həm batil inanc vardı, həm də deyirdilər qoz ağacının altında yatmazlar. Qozu qarğalar ağzında gətirərdi, hara düşərdisə, orda bitərdi. Heç kim özü əkməzdi, amma hər tərəfdə vardı. Söyüd, çinar da əkməzdilər, əksəriyyəti təbii şəkildə bitirdi. Biz bu cür zəngin torpaqları itirmişdik. O torpağın nə qədər qiymətli olduğunu onu itirəndən sonra daha çox bildik. İtirməyənə qədər bəlkə də bizim üçün adi rayon, kənd idi, biz də onun bir sakini idik. Lakin itirib Azərbaycanı tanımağa başlayandan sonra təbiətinin, insanlarının, ordakı yaşayışın, dəyərinin nə olduğunu dərk etdik. Dərk edəndə də fərqinə vardıq ki, biz orda əslində hər şeyimizi itirmişik - uşaqlığımızı, gəncliyimizi, xatirələrimizi, səfalı yerlərimizi, ağız dadımızı belə...

### Mahiyyət etibarı ilə həmişə “kəndçi olmuşam”

- Mənim tək uşaqlıq xatirələrim yox, uşaqlıq şəkillərim, ailə albomlarımız, qiymətli nəyimiz vardısa, hamısı kənddə qaldı. Fotolar məhv olsa da, kəndin heç bir küçəsinin, cığırının, həyətimizin, evimizin şəkilləri yaddaşımdan silinməyib. Kəndlə bağlı heç bir xatirəni unutmamışam.

Orta məktəbi Bakıda oxusam da, hər tətildə kəndə gedirdim. Kənd heç vaxt yad olmayıb mənə. Bakıda böyümüş, orta və ali təhsil almış olsam da, mahiyyət etibarı ilə həmişə kəndçi olmuşam. Kəndin bütün dəyərlərinə, adət-ənənələrinə sadiq idim. Çayxanaya da yığışardıq, domino da oynayardıq. Kəndin meydançasında uşaqlarla voleybol, çilingağac da oynayardıq.

Çox böyük bağımız vardı. Orda bitməyən meyvə yox idi. Şabalıddan başqa hər ağac bitirdi. Darvazadan içəri girəndə sağda cır alça əkmişdik. Qəşəng peyvənd, qırmızı, göyçə alçalarımız da vardı. Amma nədənsə uşaqlar o turş alçanı yeyirdi. Ən birinci çiçəkləyən alça da o olurdu. Qapımıza qədər sırayla çinar ağacları bitirdi. O qədər sıx idi ki, arasından keçmək olmurdu. Öz bağımızda hər cür meyvə olsa da, qonşunun bağına oğurluğa girərdik. Qonşu da bilirdi, amma heç nə demirdi. Nəyə görəsə o alma öz bağımızdakı almadan daha şirin olurdu.

Kəndin bir başından Quruçay və o biri başından Köndələn çay axırdı. Günümüz o çaylarda çimməklə keçirdi. Quruçayda su o qədər duru, şəffaf idi ki, farellərin necə üzdüyünü görürdük. İndi Bakıda balıq çox qiymətli ərzaq sayılır. Amma bizim üçün balıq tutmaq adi bir məşğuliyyət idi. Çayın yuxarısından suyla balığı qovurduq, aşağıda bir uşaq xaralla suyu kəsirdi. Bir xaral balıq tuturduq. Hər şey o qədər bol, zəngin, bərəkətli idi ki...

Evdə böyük kitabxanamız vardı. Biz o kitablarla böyümüşdük. Qərb, rus, Azərbaycan ədəbiyyatını orda oxuyub öyrənmiş, sevmişdik. Yay tətilində günümüz ancaq kitab oxumaqla keçirdi, gecələr də ən maraqlı məşğuliyyətimiz mütaliə etmək olardı. O kitabların hamısı yox olub indi.

### O musiqi mənə kəndimizin toyunu xatırladır

- Kənddə Novruz bayramı fərqli keçirilirdi. İlaxır çərşənbə isə daha təntənəli qeyd edilir, bütün bayram rituallarına əməl olunurdu. O gün hamı bir-birinə bayram payı göndərirdi. Bakıda bayram günü də tonqal qalanır. Amma bizdə yalnız çərşənbələrdə tonqal yandırılırdı. Özü də Qarabağda həmişə martın 21-i Novruz axşamı, 22-si bayram günü idi.

Hər mərasim yaddaqalan keçirdi. Hətta məhərrəmlik də. Kəndin ortasında XX əsrin əvvəlində tikilmiş məscid vardı. Sovet qılıncının dalının da, qabağının da kəsən vaxtı Məhərrəmlik ayında Qasım otağı bəzədilir, Kərbəla şəhidləri yad olunur, mərsiyələr deyilirdi. Yezid olurdu, Şümürü at belindən salırdılar. Biz uşaq idik, kənardan baxırdıq ki, görəsən camaat niyə ağlayır. Gecə isə kənd ağsaqqallarından birinin evində ehsan məclisi düzənlənərdi.

Kəndin öz toy adəti vardı. O vaxt toy 2-3 gün olurdu. Hələ 70-ci illərdə toy başlamazdan öncə musiqiçilər gələndə ilk olaraq qara zurna ifaçısı kəndin ən hündür yerinə çıxıb çalardı. Hamı da bilərdi ki, toy başladı. Heç kimin evinə dəvətnamə getməzdi. Çapar at belində qapı-qapı gəzib deyərdi ki, filankəs sizi toya dəvət edir. O toyun səsini buranın ən cah-cəlallı restoranları da əvəz etmir.

Mən musiqini çox sevirəm, bütün janrları dinləyirəm. Musiqi insanın əhvali-ruhiyyəsi ilə bağlıdı. Hərdən o qədər də peşəkar ifa olunmayan gitara musiqisinə qulaq asıram. Dostlarım bunu görəndə musiqi zövqümü bildikləri üçün təəccüblənirlər. Deyirəm, bu musiqi mənə kəndimizin toyunu xatırladır...



O adətlərin hamısı bitdi. Bəlkə indiyə qədər orda yaşasaydıq, yenə də bitərdi. Amma 1993-cü ilə qədər bizim yadımızda qalan adətlər bunlardı. Biz torpaqlarımızı bərpa edəcəyik, hər şey əvvəlkindən də gözəl olacaq, amma kəndin o ansamblı olmayacaq artıq, bitdi. O, bizim xəyalımızda bir ömür yaşayacaq. O vaxtlar insanların məişəti daha kasıb, imkanları daha az idi, amma hər şey o qədər gözəl, məsum, dəyərli idi ki...

### Anamın evdən götürdüyü ən son əşya “dolma ilə dolu qazan oldu”

- Evimizin üstündən də çay axırdı, altından da. Evin altından axan çayın üstündəki körpünü keçən kimi bizim həyətin darvazası görünürdü. O çayların səsi, şırıltısı da bir başqa musiqi, ahəng idi. Evin üst tərəfində qayalıq vardı. Ordan Kirs, Ərgünəş dağları, bütün kəndimiz görünürdü. Axşamlar çıxıb otururduq ordakı təpənin üstündə. Rayonun işğal ərəfəsi idi. Həmin təpəyə qalxıb kəndi seyr edirdik. Birdən anam kəndə diqqətlə baxıb qayıtdı ki, bəlkə bu yerlərə bir də gəlmədik...

Onda bu deyimin gerçək olacağını heç ağlımıza da gətirməzdik. Bu barədə heç düşünmürdük də. Füzuli işğal olunanda 24 yaşım vardı. Avqustun 15-dən ordaydım. Kənddən ən son çıxan adam olmuşam. Hətta rayonun işğalı rəsmən elan ediləndən sonra da erməni qoşunları yolu hələ tutmamışdılar deyə, rayonda idim. Ata-anamı da kənddən Bakıya mən yola saldım. Qaçaraq evə gəlib dedim, tez hazırlaşın, gedirsiz. Anam dedi qoy onu götürüm, bunu götürüm. Dedim yox, heç nə götürmə, onsuz da bir-iki günə qayıdacağıq. Çıxdıq evdən, qapını da açarla bağlamadıq. O vaxt kənddə heç bir qonşu qapısını qıfıllamazdı, heç arada daş hasar da hörülmürdü. Gördüm anamın bir gözü qapıda qalıb. Maşın həyətdən hardasa 20 metr uzaqlaşmışdı. Anam maşının pəncərəsindən geriyə, evə boylandı. Soruşdum, ana, nə götürmək istəyirsən? Dedi, bala, qazın üstündə yeməyim qalıb. Atam dilləndi ki, otur gedək, yemək vaxtıdı? Həqiqətən də kəndi çox güclü bombalayırdılar. Anama baxdım, çox pis oldum. Dedim yaxşı, düş, gedək götür. Evə girdik. Mətbəxdə gördüm ki, qazın üstündə qazan var, içində də dolma... Anamın öz evindən götürdüyü ən son əşya dolma ilə dolu o qazan oldu...







Mən inanmırdım işğal bu qədər uzun çəkər. Heç yuxuma da girməzdi... Fərqinə varsaydım, bəlkə də elə o anda ölərdim. Tək mən yox, heç kim inanmırdı. Fikirləşirdik ki, ara sakitləşəcək, bir neçə gün sonra evə qayıdacağıq. Bir az hərbi taktika, bir az siyasi rəhbərlik, ölkədəki vəziyyət, hadisələr... Mən keçmişə qayıtmaq fikrində deyiləm. Bu günün gözəl notlarını keçmişin köhnə notları ilə zədələmək istəmirəm. 27 ildə biz çox şeylər itirmişik, əzizlərimizin çoxu köçüb həyatdan. O qədər nisgil, həsrət çəkmişik. Kəndimizi, evimizi yuxularda görmüşük...

Hər dəfə havalar soyumağa başlayanda nədənsə mənə elə gəlirdi ağaclarımız üşüyür. Sən demə, ağaclarımız da yox imiş, məhv olubmuş, ermənilər hər tərəfi xaraba qoyublarmış. Amma elə bilirdim bütün Qarabağdakı, qapımızdakı ağaclar insandan daha çox üşüyür. Mənə elə gəlirdi, o ağaclar ona görə qurumurdu ki, bizim isti nəfəsimiz vardı, onları doğma insanların nəfəsi şaxtadan qoruyurdu. İşğaldan azad olunan ərazilərdəki vəziyyəti görəndə bir daha əmin oldum ki, o ağacları da, coğrafiyanı da, gözəlliyi də saxlayan həqiqətən bizim nəfəsimiz imiş.

Yad nəfəsə dözmədi Qarabağın təbiəti də. Orda bizim isti, doğma nəfəsimiz olmadığı üçün hər şey qurudu, xarabalığa çevrildi. Əksər kəndlərin relyefi də dəyişib. İndi insanlar o torpağın hər yerində, hər qarışında bir xatirə axtarır. Yadıma “Dədə Qorqud” filmində Qazan xanın yurdu dağılandan sonra başını atının başına qoyub ağlamağı düşür. Ermənilər bizim də yurdumuzu yağmalayıblar, özü də çox amansız. Torpaqlarımızın işğaldan azad olunmasına nə qədər sevinsək də, yurdumuzun dağıdılmasına da içimizdə ağlayırıq. Amma şükür qələbəmizə. Hər şey zamanla öz yerini alacaq və daha da gözəl olacaq.

### Bu gün Azərbaycanda hamı qarabağlıdı

- Həmişə sual verirlər ki, niyə Qarabağı görməyən gənclər onu bu qədər sevirlər, bu qədər bağlanıblar? Sadə səbəbi var. Analar bətnində gəzdirdiyi körpəni üzünü görmədən sevir, bağlanır, duyurlar. Qarabağ bizim bətnimizdə gəzdirdiyimiz körpəmizdi. Əslində indi Qarabağ yenidən doğulur. Bir başqa şəkildə, bir başqa ruhda... Onu Qarabağın üzünü görməyən insanlar 27 illik həsrətdən sonra doğurlar...

Qarabağ dünənə qədər yalnız qarabağlılar üçün var idisə, bu gün bütün azərbaycanlılar üçün var. Dünən mənim yurdum idi, bu gün bütün azərbaycanlıların yurdu, şərəf yeridir. Ona görə də bu gün qarabağlı kimi Qarabağdan danışmaq çox çətindir. Hətta Qarabağı görməyənlər belə, onun haqqında daha sevgilə, coşğu ilə danışa bilirlər. Çünki Qarabağ bizi bütövləşdirdi, millətləşdirdi, qürurun və mənliyin nə olduğunu, harda vuruşub harda bütövləşmək lazım olduğunu bir coğrafiya kimi yox, simvol kimi yaşatdı.

Bu gün Azərbaycanda qarabağlı olmayan insan yoxdu. Fərqi yoxdur orda kim doğulub kim doğulmayıb. Bu gün Azərbaycanın hər bir fərdi dinindən, dilindən asılı olmayaraq qarabağlıdır. Bu gün təkcə etnik kökən etibarı ilə eyni olanları yox, rus, talış, ləzgi, yəhudi, inqiloy, avar, tat, saxur - hamı qarabağlıdır. Onlar nə qədər qarabağlıdırsa, mən də o qədər qarabağlıyam. Onlar nə qədər füzulilidirsə, mən də o qədər füzuliliyəm. Artıq ora hamımızındır, mənim kəndimdir demək mümkün deyil. Bəlkə orda döyüşən talışın, ləzginin bu gün məndən daha çox qarabağlıyam deməyə haqqı var.

Mən də birinci Qarabağ müharibəsində döyüşmüşəm. Amma biz savaşı uduzduq, Qarabağı itirdik, qoruya bilmədik. Ona görə də bu gün orda qanını axıdan leriklinin, balakənlinin Merdinliyəm, Şuşalıyam deməyə daha çox haqqı var. O haqqı onlara savaşları verib, biz də onu məmnuniyyətlə qəbul edirik. Sevinirəm ki, biz bütövləşdik. Millətimizi bütövləşdirən o dəyərlər Azərbaycanda illər uzunu yığılıb bu dönəmə gəlib çatdı. Şəhabəddin Sührəverdinin belə bir sözü var - zəfər səbrə aşiqdir. Görünür zəfər qazanmağımız üçün bu qədər səbir etmək lazım imiş. Bəlkə zaman bir az çox oldu. Bu dönəmdə hamıya qarşı üsyan etdik, tənqid etdik, asi düşdük, amma şükürlər olsun qalibik.

### Ali Baş Komandanın hər bir əmrini yerinə yetirməyə hazırıq

- Bu gün Azərbaycanda hər kəs bir amal uğrunda Ali Baş Komandanın ətrafında birləşib. Belə bir dönəmdə siyasi baxışlar bir kənara qoyulub. 27 sentyabrdan bu yana ölkədə müxalifət deyə bir şey yoxdu. Və olmayacaq da! Bunu təbii qəbul etmək lazımdır. Əsgərin nə həddi müxalif olsun? Əsgər də müxalif olarmı? Əsgər əmrə tabe olar!

Ölkədə Vətən müharibəsi gedir. Ali Baş Komandan var. Mən ilk gündən dedim ki, əsgərəm, əmrləri sözsüz yerinə yetirirəm. Mən hələ çox-çox əvvəl çıxışlarımın birində belə bir söz işlətmişdim ki, Qarabağın taleyindən o qədər də narahat deyiləm. Çünki Prezident İlham Əliyev məcburiyyət qarşısında qalsa belə, Qarabağı heç vaxt verməz, güzəştə getməz, insan kimi bunu etməz heç vaxt! İnsanın bir xarakteri var. İlham Əliyev o insanlardan deyil ki, millətinə, dövlətinə məxsus nəyisə başqasına verməyi özünə, şəxsiyyətinə sığışdırmaz!

Bu Vətən müharibəsində ən böyük yük Ali Baş Komandanın çiyninə düşür! Hamımızın məsuliyyətini o daşıyır! Diplomatik missiyanın da, beynəlxalq aləmin də, şəhid olan əsgərin də, şəhid anasının da, ölkənin birliyinin qorunmasının, münasibətlər sisteminin normal olmasının, təchizatın, pandemiyanın da - hər bir şeyin! Dünya da, düşmənlərimiz də arzulayırdı ki, müharibə başlayandan bir neçə gün sonra müxalifət etirazlara başlasın, narazılıq olsun, milli birlik pozulsun. Amma yanıldılar.

Ali Baş Komandan harda əmr etsə, əsgər kimi orda durmağa hazır olacağıq. Susmaq lazım olsa, susacağıq. Tovuz hadisələri olanda mən Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə getdim, orduya yazıldım. Ordan çıxanda bəyanat verdim ki, cənab Ali Baş Komandan, mən bu gündən əsgərəm. Bəzi siyasi dairələr, müxalifətin xeyli hissəsi bu sözümü bir az dartışdılar ki, İlham Əliyevin əsgəri olan partiya rəhbəri ilə nəyisə müzakirə etmərik. Dedim Vətən müharibəsi gedəcəksə, mən əsgərdən başqa heç nə olmayacam! Kimin necə qəbul etməyindən asılı olmayaraq!



27 sentyabrdan sonra yenə bəyanat verdim və gördüm digərləri də eyni mövqe ilə yanaşırlar. Sevindim ki, qəbul edənlər çox oldu. Müxalifət, cəmiyyət bu çətin sınaqdan üzüağ çıxdı. Bir yerdə bir zərrə büdrəməyimiz, axsamağımız cəbhədəki halımıza təsir edərdi. Şükürlər olsun büdrəmədik. Bu gün də, sabah da, nə qədər ki Vətən müharibəsi gedir, qalibiyyət əldə olunana qədər əsgər olmağa davam edəcəyik. Ali Baş Komandanın hər bir əmrini yerinə yetirməyə hazır olacağıq.

### Qarabağ təkcə torpaq deyil, bizi birləşdirən dəyərdir

- Millətimizi bütövləşdirən, insanlarımızı şəxsiyyət kimi formalaşdıran bu problem nə qədər ağrılı olsa da, ən sonda Azərbaycan üçün faydalı oldu. Sıradan bir şey yaşamadıq. Qarabağın işğalı bizi diz üstə çökdürmüşdü, indi qalibiyyətlə yavaş-yavaş dikəlirik, qamətimizi düzəldib ayağa qalxırıq. Şuşa, Laçın, Kəlbəcər azad olunandan sonra daha böyük, uğurlu bir xalq olacağıq. Bu qələbə gələcək inkişafımıza, münasibətlər sisteminə də stimul verəcək. 30 ilin məğlubiyyəti insanlarda natamamlıq kompleksi yaratmışdı. Biz natamam idik, evimizdən tutmuş küçədəki danışıqlarımız da o qədər kobud, nifrət dolu, aqressiv idi. İçimizdəki o aqressiyanı yaradan məhz məğlubiyyət, əziklik idi. Qarabağsızlıq, itirilmiş torpaqlar bizi bitkin olmağa imkan vermirdi. Biz onu aradan qaldırandan sonra dolu, qürurlu insan olacağıq. Ayağımız yerə təmkinli dəyəcək, baxışlarımız, danışığımız dəyişəcək. Qarabağ, qələbə bizim hər şeyimizi dəyişəcək.

Hesab edirəm ki, hazırda Azərbaycanda ayrı bir tarix yazılır. Bu, təkcə torpaqlarımızı geri almaq tarixi deyil! 30 ildir bu xalqın ədəbiyyatına, kinosuna, mədəniyyətinə, incəsənətinə baxın. Hamı deyirdi niyə bizim əvvəlki musiqimiz, kinomuz yoxdu. Tək səbəbi məğlubiyyət idi. Məğubiyyətin kinosu, musiqisi olmur. Bütün xalqların tarixində onun ədəbiyyatını, musiqisini, incəsənətini formalaşdıran qalibiyyətdir. Baxın, bundan sonra ədəbiyyatımız, musiqimiz necə olacaq. Qəhrəmanlıq, məhəbbət dastanları, şeirlər, romanlar yazılacaq. Nə qədər material var bunun üçün.

Tərtərdə şəhid nişanlısı dəfn ediləndən sonra gənc qız intihar edir... Gəncədə qadınlar paltarda yatır ki, birdən gecə hücum olar, insan qarşısına ləyaqətli çıxaq. Bərdədə dörd oğlu cəbhədə olan atanın həyətinə qrad düşür, yoldaşına deyir həyəti təmiz saxla, qonaqlarımız gələr... Ucarlı oğlan gözünü itirəndən sonra sevdiyi qızın atası xəbər göndərir ki, qızımı sənə verdim...

Millətin torpaqdan başqa qazancı budur - bütövləşmək. İncəsənət, ədəbiyyat bunun üzərində formalaşır. Bu, Azərbaycan tarixinin tamamilə yeni bir səhifəsidir. Bu gün yazılan tarixi Ali Baş Komandan və əsgərlərimiz başda olmaqla, bütün Azərbaycan xalqı birlikdə yazır. 1988-ci ildən bəri ölkədə baş verən bütün prosesləri yaxından izləyirəm. O vaxtdan indiyə qədər xalqımız heç bir zaman bu qədər birlik nümayiş etdirməyib. Heç bir zaman şəhidliyə anaların münasibəti belə olmayıb! Qarabağ bizi belə bir xalq elədi. Qarabağ təkcə torpaq deyil, bizi birləşdirən dəyərdir.

### Atam burda əmanətdi, onu öz torpağımıza aparacağıq

- Ən böyük arzum Şuşayla bağlıdı. Mənə elə gəlir, Bakı dövlətçiliyimizin rəmzidirsə, Şuşa Azərbaycançılığımızın rəmzidir. Hərdən düşünürəm ki, Şuşada Azərbaycan bayrağı dalğalananda, diz üstə çöküb o bayrağa baxanda sevincdən ürəyim partlaya bilər. Amma o ölümü də çox tez arzulayıram...

Sonuncu dəfə 1989-cu il iyunun 12-də Şuşada olmuşam. Səhər-səhər Şuşanın girəcəyində Xanoğlanın yeməkxanasında xəngəl yeməyə getmişdik. Şuşa işğal olunanda mən Tərtər istiqamətində döyüşdə idim. Onda getmək şansım oldu, amma gedə bilmədik. Bizim hamımızı hazırlıqlı vəziyyətdə Bərdə stadionuna gətirdilər. Dedilər, burdan vertolyotla Şuşaya gedəcəksiniz. 12 saat orda gözlədik. Lakin sonra əmr gəldi ki, Ağdam istiqamətinə gedəcəksiniz. Mayın 10-a keçən gecə Abdal-Gülablı istiqamətində hücuma keçdik. Təəssüf ki, onlar da yarımçıq qaldı...

Amma artıq o ağrılar geridə qalıb. İndi zəfər xəbərlərinə sevinirik. Füzulinin işğaldan azad olunmasını ailəmizdə hamı çox böyük sevinclə, həyəcanla qarşıladı. İndi də böyük intizarla Şuşanın, Laçının, Kəlbəcərin azadlığa qovuşacağı zamanı gözləyirik.

Təəssüf ki, atam bu günü görmədi. Kəndinin işğalda olması onu çox incidirdi. Yaşından çox tez qocalmışdı. Daim həyəcan keçirirdi. 2002-ci il fevralın 26-da televizorda Xocalı hadisələrini izləyəndən sonra çox pis oldu. 28-i səhər qəfil ürəyi dayandı. Heç xəstəliyi də yox idi... Amma atam burda əmanətdi, onu öz torpağımıza geri qaytaracağıq. Kəndimizdə bərpa işləri başlayan kimi qardaş-bacılarının yanına aparacağıq...

Anam da kəndə qayıdacağı günü səbirsizliklə, böyük həsrətlə gözləyir. Hər gün ağlayır, gözünün yaşını saxlaya bilmir. Həmişə deyirdi torpağımı kim mənə qaytarsa, bu yaşımda əllərindən öpməyə hazıram. O kəndə qayıtmaq təkcə torpaq, yurd həsrətinə son qoymaq deyil, bəlkə candan çıxan ruhun ordakı təslimiyyətidir. Ruh bəlkə orda dincələ bilir deyə, ora can atır insan. İnsan can verəndə ən doğma adamının gəlməyini gözləyir. Ona baxıb canını tapşırır. Əslində, Qarabağ həm də bizim canımızı təslim edə biləcəyimiz doğmamızdır.

### “Bax, bu ağacı atam əkmişdi...”

- Hər gün kompüterdə kənddəki evimizin görüntülərinə baxırdıq. Yalnız ağaclar görünürdü. Bizim kənd yoxdur, demək olar ki, tamamilə dağıdıblar. Merdinli ən şiddətli döyüşlərin getdiyi kənd olub. Orda ermənilərin böyük istehkamları vardı. İkinci eşalon olub ora. İndi orda çəkilən videolara baxırıq. Ağaclar belə yoxdu, yalnız kol-kos basıb. Hamı deyir, biz əvvəl elə bilirdik Quruçayın üstündəki körpünü keçəndən sonra kəndə gözüyumulu gedəcəyik. Amma indi kənd o qədər dəyişdirilib ki, tanımaq olmur, qazıb töküblər, evləri yerləyeksan ediblər. Dağılmış yurda baxmaq bilirsiz necə ağırdı? Çalışırıq belə şeyləri anamın yanında çox danışmayaq. Anamın gözü həmişə yol çəkirdi, uzaqlara baxıb deyirdi görəsən o evə bir də gedəcəmmi? İndi azad olunan hər kəndin adını eşidəndə göz yaşı tökür. Deyirəm, ay ana, heç olmasa özünü qoru ki, kəndə gedib çata biləsən.

Ancaq bilmirəm əli ilə qurduğu, dağıdılmış yurduna baxmaq ona necə təsir edəcək. Həyətimizdə o qədər gözəl güllər vardı. Hər növdə, hər rəngdə... Hamısını anam öz əlləri ilə əkmişdi. Elə bir gül yox idi ki, bizim həyətdə olmasın. Kimin həyətində nə gül görürdüsə, əkirdi. Pəncərələrimizin ağzı gülüstanlıq idi. O düzən tamamilə pozulub. Kəndin yolları, bütün cığırları itib, yox olub. Anamın ömrünün 60 ili o cığırlarda keçib. Hər cığırında bir xatirəsi var. O itmiş cığırlarda xatirələrini tapa biləcəkmi? Ona görə bilmirəm anam üçün nə qədər çətin, ağrılı olacaq dağılmış yurda getmək...

Elə mən özüm də kəndə gedəndə nə edəcəyimi bilmirəm, inanın. Necə reaksiya verəcəyimdən, nə görəcəyimdən, görüb də nə edəcəyimdən narahatam. O hissi təsəvvür etmək, belə olacaq deyə ssenariləşdirmək, danışmaq çətindir. Bircə onu bilirəm ki, ailəmizin böyük əksəriyyəti kəndə yenidən qayıdacaq, ata ocağını bərpa edəcək, o yurd yenidən çiçəklənməyi haqq



edir. Arzu etmişəm ki, evimizin işğaldan öncə quruluşu necə idisə, o cür də tikək, olduğu kimi - 3 yataq otağı, bir zal, bir gündəlik yemək otağı, mətbəx. Həyətdə su quyusu, pəncərələrimizin qarşısında çiçəklər... Bəlkə bu, bizi ovundurar...

Ağacların hamısını atam özü əkmişdi. Hamısı gözümün qarısında olub, bu gün də xatirimdədi. Hansı ağac harda yerləşirdi dəqiqliklə, əzbər bilirəm. Ən böyük arzularımdan, xəyallarımdan biri odur ki, atamın əlilə əkdiyi ağaclardan heç olmasa bircəciyi salamat qalsın. Atamın bağımızda əkdiyi son ağac Göyçayın Bığır kəndindən gətirdiyi nar ağacı idi. İlk barını da vermişdi. Güman edirəm ki, nar dözümlü olduğu üçün bəlkə indiyə qalar. Heç olmasa o ağac atamın o torpaqdakı son yadigarı olar. Mən də atamın xatirəsi kimi ona baxıb deyərəm ki, bax, bu ağacı atam əkmişdi...

*Tezliklə o yurd yenidən salınacaq. Ata ocağı əvvəlki formada tikiləcək. Ağacların hamısı bir-bir yenidən əvvəlki yerində əkiləcək. O böyük, gözəl bağ bir də salınacaq... Ana evinin, pəncərələrinin önünü əvvəlki kimi çiçəklərlə bəzəyəcək, gülüstanlığa çevirəcək. Həyətdə yenə hər növdə, hər rəngdə çiçək bitəcək. Amma birindən başqa - ayrılıq rəmzi sayılan sarı rəngli qızılgül...*

*Və o günlər o evdə ocağın üstündə yenə dolma bişəcək. Bu zamana qədər yedikləri ən dadlı dolma... Özü də 27 il evdən qalan yeganə yadigar əşya kimi qoruyub saxladıqları o qazanda...*

**Xəyalə MURADLI,**
**“Azərbaycan”**

# Bakı Metropoliteni – 53




# Yeraltı şəhərin tarixində mühüm mərhələ

## İnkişafın keşməkeşli yolları ilə yüksəlişə doğru

Metronun yaşadığı hazırkı 3-cü dövr 28 fevral 2014-cü ildən başlayır. Həmin gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin sərəncamı ilə Bakı Metropoliteninin və "Azərtunelmetrotikinti" Səhmdar Cəmiyyətinin yenidən təşkili yolu ilə "Bakı Metropoliteni" Qapalı Səhmdar Cəmiyyətinin təməli qoyuldu. Dövrün yeni iqtisadi münasibətlərinin tələblərindən irəli gələn bu qərar metropolitenin inkişafında fərqli bir dövrün başlandığını bildirirdi. Həmin vaxtdan keçən 7 ilə yaxın bir müddətdə metropolitenin istismarı və yeni xətlərin tikintisi sahəsində indiyə kimi görünməmiş bir vüsət yaşandı. Dövlət başçısının yuxarıda qeyd olunan sərəncamı ilə yeni quruma təyin edilən yeni rəhbərlik müasir iqtisadi münasibətlərin təməl prinsiplərinə uyğun olan proseslərin həyata keçirilməsinə başladı. Bu prinsiplərə uyğun olmayan istehsalat sahələrinin yenidən qurulması, kadrların düzgün yerləşdirilməsi və yeni kadr hazırlığı, vaqon təmirinin maddi-texniki bazasının möhkəmləndirilməsi, təmirin keyfiyyətinin yüksəldilməsi, istismar müddətini başa vurmuş avadanlıqların daha müasir analoqları ilə əvəz edilməsi, vaqon parkının sağlamlaşdırılması və yeniləşdirilməsi, hərəkətin təşkilinin müasir sistemlərinin tətbiqi üzrə işlərin başlanması, sosial sahədə tətbiq edilən yeniliklər metronun inkişafının yeni mərhələsinin ilk illərində daha böyük diqqət ayrılan istiqamətlər idi. Bu yeniliklərin bəhrəsini çox gözləmək lazım gəlmədi. Vaqon təmiri sahəsinə ayrılan diqqətin nəticəsində deponun, xüsusən də təmir heyətinin nöqsanları, işdə yol verilən çıxdaşların sayı kəskin şəkildə azaldı. Bunu nasazlığa görə vaxtından əvvəl xətdən çıxarılan qatarların sayındakı azalma da təsdiq edirdi.

Vaqon təmiri sahəsində nəzərdə tutulan planlar təkcə miqyasına görə deyil, həm də köhnə təfəkkür tərzinin sərhədlərinə sığmazlığı ilə fərqlənirdi. Məqsəd deponun layihə imkanlarında nəzərdə tutulmayan təmir həcmlərini yerinə yetirmək idi. Belə ki, o vaxta qədər vaqonların orta və əsaslı təmiri Moskva Elektrik Qatarlarının Təmiri Zavodunun Tbilisi filialında, Moskva və Xarkov metropolitenlərində yerinə yetirilirdi. Bu da istismar xərclərinin böyük bir hissəsi hesabına başa gəlirdi. Yeni rəhbərlik əsaslı təmirin yerli şəraitdə aparılması üçün imkanların araşdırılmasından, mühəndis-texniki heyətlə ətraflı müzakirələrdən sonra, bu işin yerli şəraitdə aparılmasının texniki-iqtisadi əsaslara söykəndiyinə əmin olmaqla, qəti tədbirlərə başladı. İlk dövrlər Tbilisi zavodunda yerinə yetirilən təmir işləri, eləcə də vaqonların modernləşdirilməsi mövcud istehsal şəraiti və texniki imkanlar çərçivəsində yerinə yetirildi. Sonradan bu işlə daha peşəkar səviyyədə məşğul olmaq üçün vacib olan istehsalat sahəsi yaradıldı. Deponun ərazisində, sonradan bütöv bir təsərrüfat vahidinə çevrilən, vaqonların əsaslı təmir sexi inşa edildi. Hazırda bu təmir həcminə daxil olan bütün proseslər bu xidmətin vaqon təmirçiləri tərəfindən yerinə yetirilir.

Burada vaqonlar qum şırnağı ilə korroziyadan təmizlənərək rənglənir, salonları tamamilə yenilənir, vaqonaltı avadanlıqlar ən müasir qurğularla əvəz olunur, baş vaqonların ön hissələri modernləşdirilir, maşinist kabinaları genişləndirilir, yeni avadanlıqlarla təmin edilir. Hazırda xidmət bütün bu işləri yüksək səviyyədə yerinə yetirməyə qadir olan işçi heyətinə malikdir. Orta və əsaslı təmirə uyğun məsafə normasını başa vurmuş vaqonlar burada planlı surətdə təmir olunaraq istismara verilir. Bu ilin 9 ayı ərzində bir qatar tərkibi modernizasiya olunmaqla orta təmirdən keçib, bir qatar əsaslı şəkildə təmir olunub və modernləşdirilmiş edilmiş halda istismara verilib. Həm də bu qatarda aparılan işlər pandemyia dövrünün tələblərinə uyğun bütün sistemlərin quraşdırılması təchizatçı şirkətlə birlikdə internet üzərindən müasir kommunikasiya texnologiyaları vasitəsilə həyata keçirildi. Hazırda daha bir qatarda eyni həcmli işlər aparılmaqdadır. "B-3" stansiyasının yaxın vaxtlarda istifadəyə verilməsi ilə əlaqədar olaraq, "Bənövşəyi" xəttə lazımi sayda hərəkət vahidi vermək üçün Vaqonların əsaslı təmiri xidməti Depolar üzrə iş departamentinə yardım məqsədilə bir qatarın 2 saylı cari təmir işlərini də öz üzərinə götürüb. Bu isə metropolitendə təmir bazasının optimal səviyyədə və qarşılıqlı təşkilinin də nümunəsidir.

Vaqon parkının sağlamlaşdırılması ilə yanaşı, onun yeniləşdirilməsi üzrə də işlər davamlı şəkildə aparılır. Şəhərimizin yeraltı yollarında müasir tipli qatarların sayı ildən-ilə artmaqdadır. Bu gün onların sayı 15-ə çatıb. Onlardan 4-ü bu il xəttə buraxılıb. Ümumiyyətlə,

(Əvvəli qəzetin
6 noyabr tarixli nömrəsində)

Bakı Metropoliteninin lokomotiv təsərrüfatında vaqon parkının yeniləşməsi 2015-ci ildən başlayıb. 2019-cu ilin oktyabrında "Transmaşholdinq"lə bağlanmış müqaviləyə uyğun olaraq, müəssisənin tərkibinə daxil olan Mıtişşi "Metrovaqonmaş" Səhmdar Cəmiyyəti Bakı metrosunu növbəti iki il ərzində də, 40 vaqon olmaqla, ümumilikdə, 8 qatar tərkibi ilə təmin edəcək. Yeni qatarların istismar sürəti 90 km/saat, mühərriklərinin gücü 170 kilovattdır. Baş vaqonun çəkisi 38, orta vaqonun isə 36 tondur. Baş vaqon 38, orta vaqon 44 oturacaqlıdır. Vaqonların ümumi sərnişin tutumu müvafiq olaraq 315, orta vaqonlarda isə 329 sərnişindir. Vaqonlararası birbaşa keçid salonu 15 faiz genişləndirməklə daha çox sərnişin daşımağa imkan verir. Eyni zamanda sərnişinlərin qatar boyunca bərabər paylanması sərnişinlərin rahatlığını və təhlükəsizliyini artırır. Qapıların əvvəlki nəsil vaqonların qapılarından daha enli olması sərnişinlərin minib-düşmə intensivliyinə də xüsusi təsir edir. Ayaq üstə dayanan sərnişinlər üçün çoxfunksiyalı zonalar da var. İri yükləri, uşaq arabaları olanlardan ötrü xüsusi sahələr ayrılıb. Tutacaqlar da sərnişin sıxlığı nəzərə alınmaqla layihələndirilib. Baş vaqonların maşinist kabinasına yaxın hissəsində əlil arabaları üçün yerlər var.




















Məlumdur ki, 2019-cu ildən Bakı Metropolitenində əlil arabaları istifadəçiləri, ümumiyyətlə, fiziki imkanları məhdud olan sərnişinlərə xüsusi xidmət növü təqdim olunub. Metropoliten tarixində ən mühüm sosial addımlardan biri kimi dəyərləndirilən "Əlçatan metro" layihəsi çərçivəsində metropolitenin köhnə nəsil qatarlarında da belə yerlər quraşdırılıb. Bu layihə uğurla inkişaf etdirilir və xidmətdən istifadə edənlərin sayı müntəzəm olaraq artır. Layihənin inkişafı isə sərnişinlərə xidmət mədəniyyəti baxımından əhəmiyyətli hadisə kimi qeyd olunmalıdır.

Qatarlar Bakının iqlim şəraitinə hesablanmış kondisioner sistemi avtomatik tənzimlənən mikroiqlim nəzarət funksiyası ilə təchiz edilib. Bu sistem eləcə də ultrabənövşəyi lampalar vaqon salonunda havanı zərərsizləşdirir. Həmçinin tamburSuz konstruksiya istilik izolyasiyasının effektini artırmaqla, havanın salonlarda bərabər paylanmasına xidmət edir. Texniki tələblər sırasında paytaxtın yeraltı yollarının ağır hidrogeoloji şəraiti, eləcə də Bakı metropoliteninin mürəkkəb xüsusiyyətlərini nəzərə alan konstruktiv dəyişikliklər edilib. Qatar tərkibinin bütün vaqonları dartı mühərriki ilə təmin olunmaqla yanaşı, burada qəza, sürüşmə, yanğın əleyhinə ən müasir sistemlər qurulub. Vaqonların daxili və xarici videomüşahidə sistemləri maşinistə qatarı bütünlüklə nəzarətdə saxlamağa, istənilən sahəni qarşısındakı monitorunda müşahidə etməyə, ətrafındakı vəziyyəti qiymətləndirməyə imkan verir. Sahəsi genişləndirilmiş maşinist kabinası sürücünün sayıqlığına nəzarət edən texniki vasitələr və intellektual dəstək sistemləri ilə təchiz edilib. Qatarda, həmçinin məlumatın yığılması, saxlanması və maşinist monitoruna ötürülməsini nəzərdə tutan özünüdiaqnostika sistemi tətbiq edilib.

Bakı Metropoliteni tarixinin QSC dövrünü əlamətdar edən əsas məsələlərdən biri də stansiyalarda aparılan yenidənqurma və əsaslı təmir işləri, tunellərin sağlamlaşdırılması üzrə həyata keçirilən tədbirlərdir. 2015-ci ildə Bakıda I Avropa Oyunlarının açılışı ərəfəsində başlanan bu işlər bu gün də davam edir. İlk mərhələdə yenidənqurma işləri "Gənclik" və "Nəriman Nərimanov", "İnşaatçılar" və "20 Yanvar", "Qara Qarayev", "Neftçilər", "Elmlər Akademiyası" stansiyalarının keçid və vestübüllərində aparılıb. Eskalatoru olan bu stansiyalarda istismar müddəti başa çatmış eskalatorlar daha müasir analoqları ilə əvəz edilib. Əsaslı təmir işləri "Nizami", "Xətai", "Sahil" stansiyalarında aparılıb, metronun yeganə yerüstü stansiyası olan "Bakmil" tamamilə yenidən qurulub. Bu günlər irimiqyaslı təmir işləri "Cəfər Cabbarlı" stansiyasının 2-ci yolunda başa çatmaq üzrədir. Bu stansiya ilə "Xətai" stansiyasını birləşdirən tunellərdə böyükhəcmli bərpa işləri aparılıb. Stansiyanın uzun illər istismar olunmayan birinci yolunda və ona bitişik tunel sahəsində aparılan sağlamlaşdırma işləri tuneli, demək olar ki, tam yararsız və qəza halına düşməkdən xilas edib.

Yeni texnologiyaların tətbiqi, texniki müasirləşmə prosesi vaqon parkı ilə yanaşı, metropoliten təsərrüfatının hər bir sahəsini əhatə edib. İstər hərəkətin təşkili və idarə olunmasında, istərsə də yol təsərrüfatında, ventilyasiya sistemində, elektrik enerjisi ilə təminat sahəsində həyata keçirilən yeniliklər hərəkətin təhlükəsizliyinin, sərnişinlərə xidmət mədəniyyətinin səviyyəsini xeyli dərəcədə yüksəldib, sərnişinlərin rahatlığının təminatına çevrilib. Hərəkətin təşkili sahəsində bu gün metropolitendə tətbiq edilən SCADA (dispetçer idarəetmə sistemi) və onun tərkib hissəsi CBTC (qatarların hərəkətinin radiokanal əsasında təşkili) dünya dəmir yolları sisteminin ən son nailiyyəti sayılır. Bu proses Bakı Metropolitenində mərhələli şəkildə həyata keçirilir. "Nərimanov" elektrik deposunda başlanmış bu işin daha bir mərhələsi başa çatıb. Park yollarında köhnə birxətli rels dövrələrini ox sayğacları əvəz edib. İşlərin icrası prosesində depoda ən müasir avadanlıqla təchiz olunmuş yeni blok-post tikilib. Oradan park yollarındakı hərəkətə ən müasir kompüter proqramları ilə nəzarət edilir. Park yollarında 60 yoldəyişdirici, 16 birləşdirici qutu, 54 gödək, 19 qülləli svetofor yenilənib, 9 svetoforda istiqamət göstərici, yollarda 98 ox sayğacı quraşdırılıb. Bu işlərin mühüm tərkib hissəsi depo ərazisində inşa olunmuş dispetçer mərkəzləşməsi mərkəzidir. Unikal layihə əsasında inşa olunmuş 5 mərtəbəli bina hərəkətin təşkil edilməsi sistem və avadanlıqları, depo ərazisinə videomüşahidə mərkəzini, ən əsası, qatarların hərəkətinin idarə olunması, nizamlanması və tənzimlənməsinin həyata keçirildiyi mərkəzləşmə məntəqəsini özündə birləşdirir. Məntəqə növbətçisi bu funksiyaları ən müasir sistemlərlə təchiz edilmiş idarəetmə pultu ilə həyata keçirməklə, eyni zamanda, ona park yollarını əyani olaraq vizual müşahidə etməsi üçün də şərait yaradılıb. Bu səbəbdən bina dairəvi olaraq inşa olunub, otaq şüşəbənd formasında qurulub.

Bu xüsusda hazırda "Elmlər Akademiyası" stansiyasında yerləşən inzibati binada ən müasir şərait və idarəetmə funksiyalarını özündə cəm edən vahid dispetçer mərkəzinin qurulmasını da qeyd etmək lazımdır. İşlər sürətlə davam edir. Bu məqsədlə 2019-cu ilin mart ayında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Fransaya rəsmi səfəri zamanı "Thales" şirkəti ilə ikitərəfli saziş imzalanıb. Yeri gəlmişkən, məhz həmin səfər çərçivəsində "Bənövşəyi" xəttin Xocəsən qəsəbəsində inşa olunan deposunda da müasir sistemlərin qurulması bu şirkətlə əməkdaşlıq şəraitində həyata keçiriləcək.

Tək bu deyil, hər bir sahədə inqilabi yeniliklər diqqət çəkir. Yol infrastrukturunda son yeniliklər isə Bakı metrosunun tarixində yeni bir era adlandırılır. Burada söhbət ağac şpalların dəmir-beton bloklarla əvəz olunmasından, yeni yol sistemi olan ballastsız yol tikintisinin başlanmasından gedir. Məsələnin əhəmiyyətini Nazirlər Kabinetinin 2016-cı ilin 9 ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev də xüsusi vurğulayıb. Beton şpallar daha uzunömürlü, vibrasiyaya qarşı davamlıdır, istismar xərcləri daha aşağıdır.

İstismar olunan yollarda dəmir-beton şpallara keçid məsələsi hələ 2010-2011-ci illərdə qaldırılmışdı. Amma o vaxt bu məsələyə inamsız yanaşanlar, yeraltı yollarda bunu məqbul saymayanlar oldu. Bu mübarizədə mühafizəkar mövqe qalib gəldi. Lakin "Bakı Metropoliteni" QSC yaradıldıqdan sonra hər bir sahədə ən mütəfəkkir ideyalara yollar açıldı, dünya təcrübəsinin ən müasir nümunələrinə, onların öyrənilməsinə və yerli şəraitdə ən optimal tətbiqi imkanlarına geniş meydan verildi. Yolun üst quruluşu elementlərinin ballastsız əsaslar üzərində qurulması və burada dəmir-beton bloklardan istifadə olunması iqtisadi, texniki, istismar səmərəsi baxımından daha böyük imkanlara yol açır. Hazırda yeni sahələrdə yollar bu tərzdə salınır və tikinti sahələrinin dəmir-beton blokları metronun öz baza istehsalat sahəsi olan dəmir-beton konstruksiyalarının istehsalı sahəsində hazırlanır. "Bakı Metropoliteni" QSC-nin dəmir-beton konstruksiyaları istehsalatı sahəsində Almaniyanın "Vollert" şirkətinin quraşdırdığı yeni istehsal sexində yerli mütəxəssislər çalışır və yalnız yerli xammaldan istifadə olunur. Bu isə həm də "Made in Azerbaijan" brendinə bir töhfədir. Sınaq yolunun inqilabi yenilikləri sırasında yolun üstquruluş elementləri də var. Postsovet məkanında ilk dəfə yolda tətbiq edilən müasir "Vollert-Rheda" sisteminin quraşdırılmasına başlanılıb.

Dəmir-beton bloklar təkcə yeni inşa olunan "Bənövşəyi" xəttin "Memar Əcəmi-B-3", "Xocəsən deposu-Avtovağzal" sahələrində deyil, "Xətai" və "Cəfər Cabbarlı" stansiyalarının əsaslı təmir edilən stansiya yollarına qoyulmaqla daha bir mərhələnin başlanğıcı olub.

Ağac şpalların ölkəmizdə istehsal olunan dəmir-beton şpallarla əvəz edilməsi Nərimanov elektrik deposunun park yollarında da aparılır. İndiyə kimi "Bakmil" stansiyasının hər iki yolunda, stansiyadan portala qədər olan yol sahəsində, deponun təmir olunmuş qanovlarının davamında 2000-dən artıq dəmir-beton şpal qoyulub.

*(Ardı var)*

***Bəxtiyar ƏZİZLİ,***
***"Azərbaycan"***

# Müdafiə Nazirliyi xəbər verir

## Anar EYVAZOV: "Azərbaycan əsgəri düşmənin 30 il müddətində qurduğu istehkamları yarır, pusquları dağıdır və hədəfə yaxınlaşır"

**Ötən sutka ərzində düşmən bölmələri cəbhənin müxtəlif istiqamətlərində Azərbaycan Ordusunun mövqelərini, Tərtər, Goranboy daxil olmaqla, bir sıra yaşayış məntəqələrimizi, o cümlədən Ermənistanın Berd, Çəmbərək və Vardenis rayonları istiqamətindən Tovuz, Gədəbəy və Daşkəsəndə yerləşən mövqelərimizi müxtəlif atıcı silahlar, top və minaatanlardan atəşə tutub.**



AZƏRTAC xəbər verir ki, bu barədə Müdafiə Nazirliyinin Mətbuat xidmətinin mətbuat katibi polkovnik-leytenant Anar Eyvazov noyabrın 6-da Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə bildirib.

Anar Eyvazov deyib ki, əsasən cəbhənin Ağdərə, Ağdam, Xocavənd və Qubadlı istiqamətlərində gedən döyüş əməliyyatlarında düşmən bölmələri şəxsi heyət və texnika sarıdan itkilər verərək geriyə çəkilməyə məcbur edilib. Ordumuz Ağdam və Ağdərə istiqamətlərində pusquya salmaqla və atəş zərbələri ilə düşmənin hərbi kolonunu, artilleriya batareyasını və silah-sursat anbarını darmadağın edib. Düşmənin komandir heyəti daxil olmaqla xeyli sayda canlı qüvvəsi, bir rabitə avtomobili, sursatla dolu iki "KamAz" maşını və qoşqusunda top olan üç "Ural" maşını, xeyli sayda digər sursat və artilleriya qurğuları məhv edilib.

Mətbuat katibi qeyd edib ki, düşmənin Tərtərin işğal olunmuş Göyarx kəndinin ərazisindəki minaatan heyəti ordumuzun dəqiq atəşi ilə məhv edilib. Cəbhənin Ağdərə istiqamətində gedən döyüşlərdə canlı qüvvə və döyüş texnikası sarıdan xeyli itki verən düşmən bu itkilərin yerini doldura bilmir, bölmələrdə ərzaq, hərbi əmlak, döyüş sursatı və yanacaq çatışmır. Bölmələrinin idarə olunmasında problemlər var.

Qubadlı-Laçın istiqamətində gedən döyüşlərdə ordumuzun zərbələrinə tab gətirə bilməyən düşmən mövqeləri ataraq qaçıb.

Anar Eyvazov deyib ki, müzəffər Ali Baş Komandanın əmri ilə Azərbaycan əsgəri düşmənin işğal edilmiş ərazilərdə 30 il müddətində tikdiyi istehkam maneələrini yarır, qurduğu pusquları dağıdır və hədəfə yaxınlaşır. Əks-hücum əməliyyatında ordumuzun qarşısında duran əsas tapşırıq çətin relyef və iqlim şəraitində mütəşəkkil qaydada irəliləmək və işğal altında olan torpaqlarımızı cinayətkar ordu qruplaşmasından xilas etməkdir.

Mətbuat katibi qeyd edib ki, hazırda Azərbaycan Ordusunun qarşısında təkcə Ermənistan silahlı qüvvələrinin bölmələri deyil, həm də xaricdən cəlb edilmiş xeyli sayda muzdlu və əcnəbi terrorçu döyüşçülər var. Əldə edilən kəşfiyyat məlumatlarına görə, bu döyüşçülər erməni əsilli müxtəlif ölkə vətəndaşlarıdır. Ermənistanın hərbi-siyasi rəhbərliyi hiyləgərcəsinə onları qabağa, faktiki olaraq ölümə verməklə bu əcnəbilərin Azərbaycan tərəfindən döyüşlərə cəlb edildiyinə dair iftiralar atır, onların cəsədlərinə də sahib çıxmır. Əcnəbilərin belə ərazilərdə kifayət qədər döyüş təcrübəsi olmadığına və dil probleminə görə onların qarşılıqlı fəaliyyətinin təşkilində ciddi problemlər yaranır. Pərakəndə şəkildə fəaliyyət göstərən bu qruplaşmaların Azərbaycan Ordusu ilə döyüşə girməkdən imtina etmələrinə dair məlumatlar var. Əcnəbi döyüşçülər də Ermənistanın hərbi-siyasi rəhbərliyinin tələsinə düşdüklərini dərk etməli, dərhal silahı yerə qoymalıdır. Ali Baş Komandanımızın rəhbərliyi ilə uzun müddətdir bu günə hazırlaşan Azərbaycan əsgəri hazırda döyüşdə zəfər qazanır. Qələbə bizimlədir.

❖ ❖ ❖

Ermənistan mətbuatının Azərbaycan Ordusu tərəfindən Xankəndinin, guya, atəşə tutulması barədə xəbər məqsədyönlü şəkildə yayılan dezinformasiyadır.

Bu cür məlumatlar yaymaqla Ermənistanın Müdafiə Nazirliyi törətdiyi hərbi cinayətlərdən diqqəti yayındırmağa çalışır.

❖ ❖ ❖

Tərtər rayonunun işğal olunmuş Göyarx (keçmiş Levonarx) kəndinin ərazisindəki düşmənin atış nöqtələrinə çıxarılan minaatanların heyəti bölmələrimizin dəqiq atəşi ilə məhv edilib.

❖ ❖ ❖

Xankəndi yaxınlığında yerləşən silah-sursat anbarından yük avtomobillərinə yüklənən döyüş sursatlarının partlaması güclü yanğına səbəb olub. Alov tez bir zamanda anbara keçib və nəticədə güclü partlayış baş verib.

Sursat anbarı Ağdərədə yerləşən düşmənin 10-cu dağatıcı diviziyası və 5-ci dağatıcı alayının artilleriya və digər bölmələrini silah və döyüş sursatları ilə təmin edirdi.

❖ ❖ ❖

Cəbhənin Qubadlı-Laçın istiqamətində gedən döyüşlərdə Azərbaycan Ordusunun atəş zərbələrinə tab gətirə bilməyən düşmən mövqeləri ataraq qaçıb.

Ermənistandan gətirilərək müdafiə zolağına yerləşdirilən 556-cı və 522-ci motoatıcı alayların bölmələri onlara tapşırılan hədlərə çıxmayıb.

Eyni zamanda şəxsi heyət hazırlıqsız, təcrübəsiz və intizamsız olmaqla yanaşı, verilən əmr və tapşırıqlara da səhlənkar yanaşıb.

❖ ❖ ❖

Ermənistan silahlı qüvvələrinin Ağdərə yaxınlığındakı atış nöqtələrinə çıxarılan D-30 haubitsasının heyəti bölmələrimizin dəqiq atəşi ilə məhv edilib.





# Biz birlikdə güclüyük!

## Qlobal pandemiyanın fəsadları daha da artır

*Əvvəli 1-ci səh.*

Bu qərar dekabrın 1-dək qüvvədədir, amma o da istisna edilmir ki, epidemioloji vəziyyət bu cür olacağı təqdirdə göstərilən müddət uzadıla da bilər.

TƏBİB-in İdarə Heyəti yanında Tibbi-elmi komitənin sədri, professor Akif Qurbanov deyib ki, bir müddət əvvəl mütəxəssislər ilin soyuq fəsillərində bütün tənəffüs yolları infeksiyalarının artımının gözlənilməsi barədə xəbərdarlıq etmişdilər. Hazırda biz həmin dövrə çatmışıq: "Həmin infeksiyaların artım səbəbi soyuq havanın tənəffüs yollarının müdafiə qabiliyyətini zəiflətməsi nəticəsində infeksiyalara qarşı həssaslığın yaranmasıdır. Bunlara qrip və qripəbənzər xəstəliklər, digər tənəffüs infeksiyaları, o cümlədən yeni növ koronavirus aiddir. Yoluxma saylarının belə kəskin artımında bizdən asılı olmayan səbəblərdən biri budur".

A.Qurbanov vurğulayıb ki, lakin bizdən asılı olan səbəblər də var. Son bir aydan başlasaq, bu, bir qədər psixoloji məsələlərlə bağlıdır. Yəni müharibə dövründə biz psixoloji olaraq infeksiyadan qorunma qaydalarını sanki ikinci plana keçiririk. Bunun da yoluxma saylarının artımında müəyyən qədər rolu oldu.

Professor bildirib ki, hazırda ölkəmizdə xüsusi karantin rejimi davam edir. Karantin rejimində məhdudiyyətlər tətbiq olunsa da, müəyyən müddətdən sonra yumşaldılmalara gedilir. Bu zaman təmaslar artır. İnsanlar özlərini yaxşı qorumasalar, təmasların çoxalması da yoluxma saylarını artıra bilər. Ona görə də təmaslar artdıqca özümüzü daha ciddi qorumağa çalışmalıyıq. Belə olan halda yoluxmaları nəzarətdə saxlaya bilərik. Bir müddət əvvəl məktəblər də açılmışdı, müəssisələr, ictimai nəqliyyat vasitələri tam gücü ilə fəaliyyət göstərirdi. Bu da təmasların sayını artırdı. Təmaslar artdıqca qorunma qaydalarına daha ciddi əməl etsək, yoluxma sayları da artmaz: "İndiki dövrdə çox diqqətli olmalıyıq. Müharibə davam edir. Cəbhədən gələn şad xəbərləri, böyük qələbəni səbirsizliklə gözləyirik. Bu zaman COVID-19-la mübarizədə nəzərdən qaçırılmamalıdır. Çünki bizim səhiyyə sistemimiz ordumuzun, əsgərlərimizin xidmətində olmalı, koronavirusla xəstələnmiş ağır xəstələrlə yüklənməməlidir. Biz özümüzü, ətrafdakılarımızı qorumaqla vətənpərvərlik hisslərini ortaya qoymuş oluruq".

### Kəskin respirator virus infeksiyaları soyuq havalarda artıma meyillidir

TƏBİB-in Xəstəliklərin profilaktikası və kontrolu şöbəsinin müdiri Yaqut Qarayeva da koronavirusa yoluxma hallarında ciddi artımdan bəhs edərək bildirib ki, son vaxtlar, təəssüf ki, hər gün rekord yoluxma rəqəmləri görürük: "Həm yoluxanların, həm də COVID-19-dan ölənlərin sayında çox ciddi artım var. Yoluxma hallarının əsas səbəbi kimi vətəndaşların kütləvi olaraq bir yerə toplanmasını düşünürük. Artıma səbəb kimi hələ havaların soyumasını göstərə bilmirik. Çünki havalar yaxşı keçir. Proqnozlar onu göstərir ki, havalar soyuyandan sonra daha çox artım qeydə alına bilər. Çünki bu, virus infeksiyasıdır. Kəskin respirator virus infeksiyaları soyuq havalarda artıma meyillidirlər. Ona görə də biz daha da diqqətli olmalıyıq. Hər kəs özünü qorumalı, maskadan istifadə etməli, əl gigiyenasına riayət etməlidir. Qapalı məkanlarda bir yerə toplaşmamalıyıq, fiziki məsafəni saxlamalıyıq".

Y.Qarayevanın sözlərinə görə, dünyada tüğyan edən koronavirus pandemiyası ilə əlaqəli olaraq hazırda bütün ölkələrdə qrip peyvəndinə çox böyük ehtiyac var: "Bunu nəzərə alıb biz əvvəlcədən bu peyvəndlərin dövlət tərəfindən sifariş olunmasını təmin etmişdik. Çünki bütün dünyada bu gün qrip peyvəndinə çox böyük tələbat var. Vətəndaşların həm qrip virusuna, həm də koronavirusa tutulması onların səhhətində ciddi problem yaratmaqla yanaşı, tibb müəssisələrinin iş yükünü daha da artıra bilər. Ona görə də həmin peyvəndin olması çox vacibdir. Bu gün TƏBİB-in əməkdaşları həm tibb işçiləri olaraq, həm də cəbhə bölgəsində və pandemiya müəssisələrində aktiv fəaliyyət göstərdiklərinə görə qripə qarşı peyvənd olundular. Ümid edirik ki, həmin peyvənd qarşıdan gələn qrip mövsümündə səhhətimizə müsbət təsir edəcək".

Ümumdünya Səhiyyə Təşkilatının ekspertləri də pandemiya ilə əlaqədar olaraq qripə qarşı peyvənd olunmağı tövsiyyə edirlər. Xüsusilə də uşaqların, qocaların, xroniki xəstəlikləri olanların və hamilə qadınların qripə qarşı mütləq peyvənd edilmələrinin vacibliyini vurğulayırlar.

Mütəxəssislərin də həyəcan təbili çaldığı kimi, qarşıdan gələn soyuq dövr bizə pandemiya ilə bağlı heç də ürəkaçan proqnozlar vəd etmir. Amma gözlənilən təhlükədən qorunmağın yolları da bəllidir. Hamı xüsusi karantin rejiminin qaydalarına riayət etməli, maska taxmalı, şəxsi gigiyenasını gözləməlidir. Heç kim məsuliyyət hissini unutmamalıdır.

Eyni zamanda yuxarıda da bəhs olunduğu kimi, qripə qarşı peyvənd olunmaq da bizi COVID-19 bəlasına qarşı effektiv qoruya bilər.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

## Azərbaycanda koronavirus infeksiyasına daha 1465 yoluxma faktı qeydə alınıb, 805 nəfər sağalıb

**Azərbaycan Respublikasında koronavirus infeksiyasına daha 1465 yoluxma faktı qeydə alınıb, 805 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış 17 nəfər vəfat edib.

Hazırkı dövrədək ölkəmizdə 62 min 338 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib. Onlardan 47 min 270 nəfər müalicə olunaraq sağalıb, 811 nəfər vəfat edib. Aktiv xəstə sayı 14257 nəfərdir.

Ötən müddət ərzində 1 milyon 417 min 368 test aparılıb. Dünənki test sayı isə 12825-dir.




## Sərtləşdirilmiş xüsusi karantin rejiminin tətbiq olunduğu 10 şəhər və rayon üzrə 190 manat birdəfəlik ödəmə veriləcək

Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, növbəti sosial dəstək tədbirinin icrasına başlanılır.

Sərtləşdirilmiş xüsusi karantin rejiminin tətbiq olunduğu Lənkəran, Şəki şəhərləri və Cəlilabad, Biləsuvar, Qax, Zaqatala, Masallı, İsmayıllı, Quba, Xaçmaz rayonları üzrə işsiz və xüsusi karantin rejimində gəlirini itirən qeyri-formal işləyən aztəminatlılara yaşayış minimumu həcmində birdəfəlik ödəmə (190 manat) veriləcək. Bu barədə Nazirlər Kabinetinin müvafiq qərarı da qəbul edilib.

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsindən AZƏRTAC-a verilən məlumata görə, həmin şəhər və rayonlar üzrə 190 manat məbləğində birdəfəlik ödəməni almış şəxslərə Nazirlər Kabinetinin təsdiq etdiyi qaydalara uyğun olaraq təkrar yoxlama keçirildikdən sonra həmin məbləğdə ödəmənin verilməsi birdəfəlik şəkildə həyata keçiriləcək. Bunun üçün vətəndaşların təkrar müraciətinə ehtiyac yoxdur. Vəsait birdəfəlik ödəməni almaq üçün banklar tərəfindən verilmiş bank kartlarına köçürüləcək və bu barədə onlara SMS vasitəsilə rəsmi bildiriş göndəriləcək.

Birdəfəlik ödəmənin 100 mindən çox şəxsi əhatə edəcəyi proqnozlaşdırılır. Ödəmənin verilməsinə başlanarkən bu barədə əlavə məlumat veriləcək.

Xatırladaq ki, bu ilin aprel-may aylarında işsiz və xüsusi karantin rejiminə görə gəlirini itirən qeyri-formal işləyən şəxslərdən ibarət 600 min şəxsə, habelə sonralar sərtləşdirilmiş karantin rejimi tətbiq olunan rayonlar üzrə 3-cü və 4-cü dəfə birdəfəlik ödəmələr verilib və bu məqsədlə ümumilikdə 332 milyon manat sərf olunub.

## Mədəniyyət Nazirliyi Qubadlıdakı məscidin ermənilər tərəfindən təhqir olunması ilə bağlı bəyanat yayıb

**Mədəniyyət Nazirliyi Qubadlı rayonundakı məscidin ermənilər tərəfindən təhqir olunması ilə bağlı bəyanat yayıb.**

Nazirlikdən yayılan bəyanatda deyilir: "Ermənistan silahlı qüvvələrinin 30 ilə yaxın müddətdə işğal altında saxladığı Azərbaycan Respublikasının tarixi ərazisi - Dağlıq Qarabağ bölgəsi və onun ətrafındakı rayonlar bu günlər şanlı Azərbaycan Ordusu tərəfindən qarış-qarış yağılardan təmizlənir. Silahlı Qüvvələrimizin müzəffər Ali Baş Komandanı, Prezident İlham Əliyevin rəhbərliyi ilə qəhrəman hərbçilərimiz tərəfindən Cəbrayıl, Füzuli, Zəngilan və Qubadlı şəhərləri, həmçinin 200-dən çox qəsəbə və kənd işğaldan azad edilib.

Uzun illər davam etmiş işğal zamanı Ermənistanın təcavüzkar siyasəti nəticəsində Azərbaycan xalqına məxsus daşınmaz tarix və mədəniyyət abidələri dağıdılıb, mənimsənilib, tarixi-mədəni təyinatına uyğun olmayan şəkildə istifadə olunaraq vandalizmə məruz qalıb. Erməni silahlı qüvvələri tərəfindən ən çox dağıdılan daşınmaz mədəni irs nümunələri İslam dini abidələri - məscidlər, türbələr və digər inanc yerləri olub. Ermənilər məscidlərin içərisində ev heyvanları saxlamaqla azərbaycanlılara qarşı öz nifrətlərini ortaya qoyublar. İşğal olunmuş ərazilərdə yerləşən mədəni irsə, o cümlədən xüsusi əhəmiyyətə malik unikal abidələrə bu cür barbarcasına münasibət dünya irsinə qarşı yönəlmiş təhdid kimi dəyərləndirilməlidir.

İşğaldan azad olunmuş ərazilərdə yerləşən abidələrin bir çoxu, o cümlədən Qubadlı rayonunun Məmər kəndindəki XVIII əsrə aid məscid də, gözlənildiyi kimi, acınacaqlı vəziyyətdədir. Bədnam ermənilər bu dini-mədəniyyət abidəsindən də Zəngilan rayonundakı məscid kimi donuz tövləsi olaraq istifadə ediblər. Bu hal Ermənistan Respublikasının digər dinlərə münasibətini və həqiqi simasını əks etdirir. Eyni zamanda bu vandalizm faktı ümumilikdə dünyanın mədəni irsinə barbar münasibət olduğundan beynəlxalq təşkilatlar, tərəqqipərvər dünya birliyi tərəfindən kəskin qınaq obyektinə çevrilməli, hüquqi qiymətini almalıdır.

Sivil dünya dövlətlərini və xalqlarını Ermənistan Respublikasının bəşəri dəyərlərə qarşı bu cür mənfur əməllərini pisləməyə çağırırıq.

Xüsusilə diqqətə çatdırırıq ki, 1954-cü ildə Haaqada qəbul edilmiş "Silahlı münaqişə zamanı mədəni sərvətlərin qorunması haqqında Konvensiya"ya əsasən, işğalçı dövlət mədəni sərvətlərin dağılmasına, talan edilməsinə, qeyri-qanuni mənimsənilməsi hərəkətlərinə yol verməməli, bu sərvətlərə qarşı yönəlmiş düşmənçilik hərəkətlərindən çəkinməlidir".

## Koronavirusla mübarizəyə dəstək üçün Kubadan Azərbaycana növbəti həkim briqadası gəlib

Koronavirus pandemiyası ilə mübarizə çərçivəsində noyabrın 6-da Azərbaycan Hava Yollarının (AZAL) dəstəyi ilə Kubadan Azərbaycana 120 həkimdən ibarət növbəti həkim briqadası gətirilib.



AZƏRTAC xəbər verir ki, briqadanın rəhbəri Dalsi Torres Avila Kubadan ölkəmizə ilk həkim briqadasının bu ilin iyul ayında gəldiyini xatırladıb. Bildirib ki, həmin briqadada olan 115 həkim 1 nömrəli Klinik Xəstəxanada fəaliyyət göstərir. Azərbaycan hökumətinin dəvəti ilə gələn yeni həkim briqadası isə Abşeron rayonundakı modul tipli xəstəxanada yerli mütəxəssislərə dəstək məqsədilə pandemiyaya qarşı mübarizə aparacaq.

Kubanın Azərbaycandakı səfiri Alfredo Nieves Portuondo Kubadan Azərbaycana növbəti dəfə həkim briqadasının gəlməsinin iki ölkə arasındakı münasibətlərin inkişafına töhfə verəcəyini bildirib. Qeyd edib ki, bütün kubalılar kimi, o da Azərbaycana tibbi dəstəkdən məmnunluq duyur. "Azərbaycan və Kuba arasında bir çox sahələrdə sıx əlaqələr mövcuddur. Bu gün Azərbaycana Kubadan ikinci həkim briqadasının gəlməsi bu münasibətlərin əyani göstəricisidir. İnanıram ki, əlaqələrimiz bundan sonra da inkişaf edəcək", - deyə səfir qeyd edib.

TƏBİB-in şöbə müdiri Ramin Ağayev həkim briqadasının növbəti 3 ay ərzində Azərbaycanda COVID-19-a yoluxmuş xəstələrinin müalicəsini həyata keçirəcəklərini qeyd edib. O bildirib ki, COVID-19 ilə mübarizə sahəsində Azərbaycan dövləti tərəfindən zəruri tədbirlər həyata keçirilir. Kubadan ölkəmizə həkim briqadalarının dəvət edilməsi də bu tədbirlər çərçivəsində reallaşır.

## Baş Prokurorluq: "Ermənistanın təxribatları nəticəsində 3064 ev, 100 yaşayış binası və 504 mülki obyekt yararsız vəziyyətə düşüb"

Azərbaycan Respublikasının Baş Prokurorluğu Ermənistanın təxribatları nəticəsində sentyabrın 27-dən noyabrın 6-dək dinc əhaliyə qarşı törədilmiş cinayətlərin statistikasını təqdim edib.

Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ermənistan silahlı qüvvələrinin yaşayış məntəqələrimizi ağır artilleriya qurğularından və raket sistemlərindən atəşə tutması nəticəsində mülki şəxslərdən 92 nəfər həlak olub, 404 nəfər isə xəsarət alıb. Bundan başqa, Ermənistan ordusunun intensiv ağır artilleriya və raket atəşi nəticəsində 3064 ev, 100 çoxmənzilli yaşayış binası və 504 mülki obyekt yararsız vəziyyətə düşüb.

Qeyd edək ki, rəşadətli Azərbaycan Ordusunun sarsıdıcı cavab zərbələri qarşısında sürətlə geri çəkilən düşmən beynəlxalq hüququn norma və prinsiplərini, 1949-cu il tarixli Cenevrə konvensiyaları və onların Əlavə protokollarını, BMT-nin Təhlükəsizlik Şurasının qərar və qətnamələrini kobud şəkildə pozaraq, Azərbaycanın dinc əhalisini qəsdən hədəfə almaqla döyüş əməliyyatlarının aparıldığı bölgədən uzaqlıqda yerləşən Azərbaycan şəhərlərini və əhalinin sıx yaşadığı məntəqələri intensiv atəşə tutur.

## FHN-in yanğınsöndürmə qüvvələri işğaldan azad olunmuş ərazidə ilk yanğınsöndürmə əməliyyatı həyata keçirib

**Noyabrın 5-də düşməndən azad edilmiş Füzuli şəhərində inzibati binanın yaxınlığında açıq sahədə məişət tullantıları yanıb.**




Fövqəladə Hallar Nazirliyindən (FHN) bildiriblər ki, yanğın əraziyə dərhal cəlb olunmuş nazirliyin Dövlət Yanğından Mühafizə Xidmətinin müvafiq qüvvələri tərəfindən qısa müddətdə söndürülərək alovun inzibati binaya keçməsinin qarşısı alınıb. Yanğın nəticəsində 50 kvadratmetr sahədə məişət tullantıları yanıb.

Qeyd edək ki, bu, FHN qüvvələrinin işğaldan azad olunmuş torpaqlarımızda həyata keçirdiyi ilk yanğınsöndürmə əməliyyatıdır.

# Uğurlu əks-hücum əməliyyatı işğala son qoyacaq!






## Həsrət körpüsü qələbə rəmzinə çevrildi

**Az qala hər qarış ərazisində tarixin hələ də açılmamış sirləri yatan Azərbaycan zaman-zaman savaşlar meydanında mətinlik, əzmkarlıq nümayiş etdirməklə, yağı düşmən üzərində qələbə qazanaraq öz bayrağını ucaldıb.**

Bu günlərdə Cəbrayıl rayonunun işğaldan azad edilən ərazilərindəki tarixi abidələrdən hesab edilən, o taylı-bu taylı, şimallı-cənublu Azərbaycanı qovuşduran Xudafərin körpüləri də təcavüzkarların tapdağından qurtardı. İllər boyu hicran, ayrılıq simvoluna çevrilən Araz sanki Xudafərinlə birlikdə həsrətə son qoydu.

Tarixən Azərbaycanın quzeyi ilə güneyini birləşdirən, ermənilər tərəfindən işğal edilən Cəbrayıl rayonu ərazisində yerləşən Xudafərin körpüləri haqqında zaman-zaman söz açılıb. Mərhum yazıçımız Fərman Kərimzadənin "Xudafərin körpüsü" romanını oxuyan hər kəs bilir ki, əsər Şah İsmayıl Xətainin həyatı və dövlətçilik uğrunda mübarizəsinə həsr olunsa da, Xudafərin haqqında da burada bilmədiyimiz çox həqiqətlər var. Qədimlik və türkün tarixi hünərlərinə şahidlik rəmzi kimi əsərin adı da məhz buna görə "Xudafərin körpüsü" adlandırılıb.

Xudafərin körpüsü Azərbaycanı birləşdirən simvolik bir abidədir. Xudafərin deyəndə Araz çayı üzərindəki qədim körpülər yada düşür. Azərbaycan memarlıq sənəti tarixinin möhtəşəm abidələrindən hesab edilən, Araz çayı üzərində salınan iki körpüdən birincisi Baş Xudafərin körpüsüdür ki, uzunluğu 130, eni 6, hündürlüyü 12 metrdir. İkinci körpü isə 15 aşırımlı olmaqla, uzunluğu 200, eni 4,5, hündürlüyü 10 metrdir. Azərbaycanın memarlıq sənətində bu əzəmətli abidələr haqqında dünyanın bir çox alimləri qiymətli fikirlər söyləsələr də, onların nə vaxt inşa edilməsi haqqında tarixdə eyni fikrə az rast gəlinir.

Baş Xudafərin körpüsünün daha qədim olması ehtimal olunur. Belə ki, bu körpünün Əhəməni imperiyası zamanında ağacdan tikilməsi, Eldəgizlər dövləti zamanında isə daş və kərpiclə üzləndiyi güman edilir. Bəzi mənbələrdə isə ikinci körpünün ağacdan müvəqqəti qurğu kimi inşa edilməsi, Elxanilər dövləti zamanında (on üçüncü yüzillik) isə daş və kərpiclə üzlənməsi haqqında fikirlər söylənilir. İran tarixçisi Həmdullah Qəzvini əsərlərində körpülərin adını "Xuda-Afərin" kimi yazır. Bu da farsca "Allah tərəfindən yaradılmış" və "Allaha Mərhəba" mənalarını verir. H.Qəzvini yazır ki, Xudafərin körpüsü Məhəmməd peyğəmbərin yaxın adamı olan Bəkir ibn Abdulla tərəfindən miladi tarixlə 736-cı ildə inşa etdirilib. Bəzilərinin fikrincə isə, həmin şəxs körpünü tikdirməyib, yalnız təmir etdirib. Xudafərin körpüsünün Makedoniyalı İsgəndər, ya da Roma sərkərdəsi Pompey tərəfindən tikilməsi barədə də versiyalar var. Təəssüf ki, bu körpüləri inşa etdirən şəxsin adı barədə tarixi mənbələrdə heç bir dəqiq yazılı məlumata rast gəlinmir. Ümumi fikir yalnız ondan ibarətdir ki, hər iki körpünün dayaqları çayın ortasında olan təbii sal daşlar üzərində qurulduğundan onlara "Xudafərin" adı verilib. Xudafərin körpüsü tarixən Azərbaycanın quzeyi ilə güneyinin əlaqəsini möhkəmləndirən yeganə keçid kimi tanınıb. Lakin bu ayrılıq, hicran, intizar dolu baxışların altında belini bükən körpülər yüzillər boyu yadellilərin Azərbaycanın quzeyinə basqınlarına da şərait yaradıb.

Bu gün Xudafərin körpülərinin müzəffər Azərbaycan Ordusu tərəfindən işğalçılardan azad edilməsinin nəinki strateji, eyni zamanda tarixi əhəmiyyəti var.

Körpülərin birləşdiyi hər iki sahil gözəl dağlıq landşaftı olan yerlərdir. Bu təbiət abidəsinə üzvi olaraq daxil edilmiş körpülər insanın ətraf mühitlə qarşılıqlı münasibətinin uğurlu örnəyidir. Bu səbəbdən Xudafərin dərəsi təbiətin və tarixin dəyərli abidəsidir.

Körpülərin böyüyü Xudafərin kəndindəki 15 aşırımlıdır. Körpünün üç orta tağı salamat qalıb. Sahil tağları isə iyirminci yüzilin 30-cu illərində Şimali və Cənubi Azərbaycan arasında əlaqələri kəsmək üçün İran və SSRİ-nin birgə qərarı ilə dağıdılıb. Həmin vaxtdan da yerli əhali körpüyə ikinci - "Sınıq körpü" adını da verib. Xudafərin ədəbiyyat nümunələrində də geniş təsvir olunub: "Xudafərin körpüsünün üstündən 1068-ci ildə böyük səlcuq sultanı Alp Arslan qələbə yürüşü ilə, on altıncı yüzildə isə Aşıq Qurbani əsir kimi keçib:

*Qolubağlı keçdim Xudafərindən,*
*Üzüm gülməz, heç açılmaz, ah, mənim!"*

Uzun onilliklər boyu Azərbaycanı nəinki dünya ölkələri, hətta qitələrlə birləşdirən karvan yolları Araz çayı yatağında, yəni Xudafərin dərəsində bir-birinə qovuşub. Xudafərin də Qarabağımız kimi uzun zaman idi ki, əlçatmaz, ayaqdəyməz yer idi. Amma artıq 30 ilə yaxın həsrətə son qoyuldu, şanlı ordumuzun qələbəsindən sonra əfsanəvi körpünü görmək, üstündən keçmək artıq xəyal yox, reallıqdır... Bu gün şanlı Azərbaycan Ordusu əfsanəvi Xudafərin körpüsündə bayrağımızı dalğalandırır.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

*Əsgərə şeir sovqatı*

## Payız bilə-bilə özü yubanır...



Qarabağ uğrunda döyüşlər ağır,
qəlblərdə Vətənə sevgilər incə,
payız bilə-bilə özü yubanır -
bəlkə hər əsgərə gül çata, məncə.

Bulud ağlamağın arasın kəsib,
çiskin də, duman da çökmür yollara,
amma ki, bu dəfə "qara yel əsib"
bizə xain çıxan qəsbkarlara.

İllərlə qəzəbin kiridən Vətən
bu dəfə dözməyib zireh geyindi,
Ali Baş Komandan göstəriş verən -
Qarabağ rəhbərin diliylə dindi.

Qartallar qıy vurar zirvələrindən,
əlçatmaz yerlərdə yatar şəhidlər,
qurbanlar, şəhidlər verməyən Vətən,
Bayrağın rəngini soldura bilər.

Vətəni qoruyar igid ordular,
əsgərə verilsin ən böyük dəyər!
Oğullar doğuran bizim analar,
Övladın Vətənə qurbanlıq deyər.

Azadlıq uğrunda döyüşlər ağır,
qəlblərdə torpağa sevgilər incə,
payız bilə-bilə özü yubanır -
bəlkə hər əsgərə gül çata, məncə...

***Vahid ƏZİZ,***
***Xalq şairi***



## Ermənistan vətəndaş müharibəsi ərəfəsindədir

*Əvvəli 1-ci səh.*

"General nazirdən istefa verməyi tələb edib. Həmçinin V.Balasanyan D.Tonoyandan Nikol Paşinyana müraciət edərək onun özünü müdafiə naziri təyin etməsi barədə fərman imzalamağı tələb edib. Bəzi məlumatlara görə, tərəflər arasında əlbəyaxa dava düşüb. D.Tonoyan generalı həbs etdirməklə hədələyib" - sayt yazır.

Göründüyü kimi, müharibədəki məğlubiyyətdən, ölkədə yaşanan sosial-iqtisadi problemlərdən keçmiş xunta Paşinyana qarşı istifadə etməyə çalışır. Bu məqsədlə etiraz aksiyaları da təşkil olunur. Məsələn, bu günlərdə N.Paşinyanın əleyhdarları Yerevanda və ölkənin daha 6 şəhərində etiraz aksiyaları keçiriblər. Onlar bildiriblər ki, ordunun döyüş meydanında üzləşdiyi ağır məğlubiyyətlərə baxmayaraq, Ermənistan rəhbərliyi hələ də insanları qəsdən ölümə göndərir.

Ermənistanın "168.am" informasiya portalının yayımladığı son məqalədə də ölkə rəhbərliyinin insan həyatına dəyər verməməsi və vətəndaşları bilərəkdən ölümə göndərməsi tənqid olunub. Bildirilib ki, döyüşlərdə itkilərin sayı rəsmi olaraq 1100 nəfəri ötüb. Lakin bundan qat-qat artıq sayda hərbi qulluqçunun taleyi hələ də aydın deyil, cəsədlərin böyük hissəsinin Azərbaycanın azad etdiyi ərazilərdə olduğu güman edilir. "İnsan həyatının bizim üçün ən qiymətli olması həqiqətdir. Ermənistan hökumətinin bütün bunların vaxtında qarşısını almaq və faciəyə son qoymaq üçün nə etdiyini hələ heç kim bilmir. Şübhəsiz ki, hökumət buna görə cavab verəcək" - deyə qəzet yazır.

Məqalədə vurğulanır ki, bu günlərdə baş nazir Paşinyan sosial şəbəkə hesabında vətən üçün ölüm məntiqi üzərində qurulan mesajlarından başqa insan həyatı ilə bağlı heç bir qeyd etməyib: "Bu amansız müharibə nəyi göstərir? Bu hakimiyyət üçün insanın dəyəri yoxdur. Hakimiyyətin ambisiyaları, naməlum qüvvələrin borcları, qeyri-müəyyən siyasi hesablamalar var, hansı ki, Ermənistan xalqına çox baha başa gəlir. Ancaq mövcud hökumət sabah, birigün, bir həftə və ya bir ay sonra cəza anının gələcəyini anlamalıdır. Ermənistan Respublikasının səlahiyyətliləri cavab verməlidir".

"Akunk" Siyasi Araşdırmalar Mərkəzinin direktoru, Ermənistan parlamentinin sabiq deputatı Ruben Akopyan erməni xalqının xilasını fəaliyyət qabiliyyəti olmayan baş nazirin könüllü istefasında görür. O bildirib ki, baş nazirin könüllü istefası halında cəmiyyətdə yığılıb qalmış nifrət və kin azalar: "Nikol Paşinyan istefa ərizəsində xüsusi olaraq vurğulamalıdır ki, bu, ölkə və qələbə naminə edilir. Vaxtilə Rusiyanın Yerevandakı səfirliyi qarşısında bayraqları yandıranlar könüllü şəkildə özlərini təcrid etməli və ya danışıqlar prosesindən təcrid olunmalıdırlar. Yeni hakimiyyət isə xalqa müraciət etməli, ölkənin ağır vəziyyətdən çıxmasının dəqiq və real proqramını təqdim etməlidir".

Ermənistanın başqa bir problemi iqtisadi vəziyyətin kəskin pisləşməsidir. Onsuz da bu ölkə azad iqtisadiyyata sahib deyil. Pandemiya isə iqtisadiyyatın olan-qalan sahələrini da iflic etmişdi. Qarabağda müharibə başlayandan isə vəziyyət daha acınacaqlı hal alıb, o cümlədən xarici ticarət dövriyyəsi görünməmiş azalıb.

Yerli medianın verdiyi xəbərlərə görə, yaranmış ağır iqtisadi durum bazarların fonunda özünü göstərir. Belə ki, bazarlar kimsəsiz qalıb, heç kim gəlmir, alış-veriş yoxdur. Bazarlardakı satıcılar bildirirlər ki, qiymətlərin baha olması ilə əlaqədar alış-veriş kəskin azalıb. Satıcılardan biri deyib: "Bizdə almaların kiloqramı 3 dollara, armud 4 dollara yaxındır. Ona görə də insanlar bazara gəlmirlər. Onların pulu yoxdur, necə alış-veriş etsinlər?" Bazarlardakı qiymətlərdən daha çox pensiyaçılar şikayət edirlər. Onlar 60 dollar həcmində pensiya aldıqlarını, bununla alış-verişin mümkün olmadığını vurğulayırlar.

Görünən odur ki, Ermənistan hökuməti növbəti aylarda vətəndaşların əməkhaqlarını, pensiyalarını ödəyə bilməyəcək. 2021-ci ilin dövlət büdcəsini də formalaşdırmaq mümkün olmayacaq. Bütövlükdə, proseslərin gedişi Ermənistanı qarşıdakı dövr ərzində daha çətin günlərin və qarşıdurmaların gözlədiyini göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Neofaşizm

## Bu dəfə erməni işğalçılarının əməllərində

**Yaşlı və orta nəslin nümayəndələri vaxtilə unudulmaz müğənnimiz Müslüm Maqomayevin təkrarsız ifasında səslənən "Buhenvald harayı" mahnısını yaxşı xatırlayırlar. Bu, İkinci Dünya müharibəsindən sonra antifaşizm mövzusunda yaranmış mahnılardan biri, bəlkə də birincisi, yəni ən ecazkarı idi.**







Buhenvald (Buchen Wald) almancadan tərcümədə "fıstıq meşəsi" deməkdir. Almaniya ərazisindəki ən iri əsir düşərgələrindən biri məhz belə bir meşənin qoynunda yerləşmişdi. 1937-ci ilin iyul ayından 1945-ci ilin aprel ayınadək mövcud olan bu düşərgədə minlərlə insan həyatla vidalaşmışdı.

Lakin şair Sobolevin və bəstəkar Muradelinin əsl sənət nümunəsi olan sözügedən mahnısının mövzu əhatəsi təkcə Buhenvaldla məhdudlaşmır. Bu mahnı, ümumiyyətlə, faşizmə, günahsız insanların qətlə yetirilməsinə, uşaqlara, qocalara, qadınlara qəsd edilməsinə qarşı bir üsyan kimi səslənir.

O dövrdə dünyanın ayrı-ayrı guşələrində faşizm bir çox xalqların sinəsinə dağ çəkib. İllər, onilliklər keçir və həmin qəddarlıq hissləri heykəllərdə, memoriallarda, xatirə komplekslərində tarixiləşdirilərək yeni-yeni nəsillərə olmuş həqiqətləri nağıl edir.

Bir çoxlarımız Rusiyanın Sankt-Peterburq şəhərində (keçmiş adı Leninqraddır) olmuşuq və oradakı Piskaryov qəbiristanlığını görmüşük. Böyük xatirə kompleksinə çevrilmiş bu məkanda 1941-1942-ci illərdə Leninqrad blokadasında Hitler faşizminin məhvə məhkum etdiyi on minlərlə günahsız insan, müxtəlif yaşlı şəhər sakinləri uyuyur...

Polşanın Osvensim şəhərindəki həbs düşərgəsində də alman faşistləri minlərlə insana əzab verib və məhv ediblər. Müharibədən sonra polyaklar buranı muzeyə çeviriblər ki, hər dəfə olub-keçənləri xatırlayaraq faşizmə dönə-dönə lənət oxusunlar.

Belarusda isə 1943-cü ildə faşistlərin Yer üzündən sildiyi Xatın kəndi var. Daha doğrusu, bu kəndin yalnız yeri qalıb və indi orada memorial kompleksdən başqa heç nə yoxdur. 1941-1944-cü illərdə faşistlər Belarus torpağında çox belə faciələr törədiblər. Xatında isə partizanlara kömək göstərdikləri ehtimal edilən kənd sakinlərinə hitlerçilər tərəfindən ümumi cəza prinsipi tətbiq olunub. Onları bir-bir güllələyib, yaxud diri-diri yandırıblar... Faşizmin törətdiyi ən tüküRpədici, kədər və hiddət doğuran cinayətlərindən biridir bu.

Dünyada dinc əhalinin heç bir günahı olmadan məhv edildiyi barədə söz düşəndə tarixdən bildiyimiz daha iki hadisəni - ABŞ-ın 1945-ci il avqustun 6-da və 9-da Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə atom bombası endirməsini də xatırlayırıq.

Elə Müslümün "Buhenvald harayı" da məhz bütün bunları yada salırdı, bütün bunlara qarşı etiraz, üsyan kimi səslənirdi. Bu mahnını dinləyər və heç güman etməzdik ki, həmin hadisələrdən onilliklər keçəndən sonra Azərbaycan torpağında da günahsız qocalar, qadınlar, uşaqlar qətlə yetiriləcək, atəşə tutulacaq, bombalanan şəhərlərimizin uçuntuları altında qalacaq. Həm də bunu kim edəcək? Öz qonşumuz, bizə dildə "dost" deyən, sonra da torpaqlarımızın 20 faizini işğal edən ermənilər. Demə, içərilərindəki faşist xisləti getdikcə qabarır, genişlənir, rişələnirmiş.

Erməni faşistləri bizdən torpaq qoparmaq iddiasına düşərək olmazın çirkin oyunlardan çıxdılar. Bəşəriyyətin getdikcə inkişaf etdiyi, ağılla, kamalla xariqələr yaratdığı, xalqların bir-birinə daha da yaxınlaşdığı, mədəniyyətlərin, iqtisadi sahələrin dünyaya inteqrasiya etdiyi bir dövrdə mənfur qonşularımız ağıllarını itirdilər. İşğalçılıqla, oğurluqla, talançılıqla, qatilliklə məşğul oldular. Onlara daim yaxşılıq edən qonşularına xain çıxdılar. Qocalara atəş açdılar, təzə doğulmuş körpələri yandırdılar, qadına, qıza xəyanət etdilər... XX əsrin sonunda Xocalı soyqırımını törətdilər. Ah-naləsi göylərə bülənd olan günahsız insanları pərən-pərən salıb qışın oğlan çağında yollarda, meşələrdə qətlə yetirdilər...

1994-cü ildə əldə olunmuş atəşkəsi həmin vaxtdan indiyədək dəfələrlə pozan Ermənistan 2016-cı ilin Aprel döyüşlərində aldığı zərbədən belə nəticə çıxarmadı. Bu il yenə də təxribatlar törətdi, yeni ərazilər işğal etmək xülyasına düşdü. Bir neçə ay əvvəl sərhədin Tovuz istiqamətində daha bir vandalizmə əl atdı, evləri vurub dağıtdı, nəticədə yaşlı kənd sakini həlak oldu. Amma burada da düşmənin mənfur niyyəti gözündə qaldı. Çoxsaylı insan itkisi verdi, silahları darmadağın edildi. Eybəcər xislətindən yenə də dönmədi. Belə ki, sentyabrın 27-də Ermənistan silahlı qüvvələri bir neçə istiqamətdən, müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi və hərbi mövqelərimizi atəşə tutdu.

"Sirkə nə qədər tünd olsa, öz qabını çatladar" deyiblər. İndi ermənilər etdiklərinin cavabını alırlar. Azərbaycan xalqı öz müdrik Prezidenti ətrafında bir yumruq kimi birləşərək düşmənə qarşı haqq savaşına qalxıb. Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər Azərbaycan Ordusu işğalda olan kənd və şəhərlərimizi yağı tapdağından azad edir.

Döyüş meydanında qələbələr qazanan ordumuzla bacara bilməyən düşmən isə məğlubiyyət acısının və xəcalətinin əvəzini Azərbaycanın dinc əhalisindən çıxır. Namərdcəsinə şəhərlərimizi bombalayır, kəndlərimizi atəşə tutur, mülki-strateji obyektlərimizi hədəfə alır. Dəfələrlə Azərbaycanın ikinci böyük şəhəri Gəncəni, Tərtər, Bərdə və digər bölgələrimizi bombalayıb. Qadağan olunmuş silahlardan istifadə edərək döyüş meydanından xeyli uzaqda yerləşən ərazilərdə yaşayan, heç bir günahı olmayan dinc insanların qanına bais olub. Ata-ana körpə balasını itirib, uşaqlar yetim qalıb, bəzən də bütün ailə məhv olub. Deməli, Xocalı soyqırımını törədən erməni vandalları öz adətlərindən əl çəkməyiblər, dəhşətli, ağlasığmaz, qeyri-insani hərəkətlərini davam etdirirlər.

Biz bunların qisasını döyüş meydanında alırıq. Prezidentimizin dediyi kimi: "Baxmayaraq ki, namərd, xain, alçaq düşmən hərbi cinayətlər törədir, dinc əhalini atəşə tutur, bugünkü atəş nəticəsində azyaşlı uşaqlar da həlak olub, mən bir daha demək istəyirəm ki, biz qisasımızı mülki vətəndaşlardan almamalıyıq. Biz döyüş meydanında qisasımızı alırıq, alacağıq, şəhidlərimizin, həlak olanların qanı yerdə qalmır və qalmayacaqdır... Onsuz da onların iz-tozu o torpaqlarda qalmayacaq. Onsuz da onları biz sona qədər qovub torpağımızdan rədd edəcəyik".

Erməni vandalları ən ağır cəzaya layiqdirlər. Ermənistanın hərbi-siyasi rəhbərliyi cinayətkarlardan ibarətdir və onlar məsuliyyətdən boyun qaçıra bilməyəcək, əməllərinə görə cəzalarını alacaqlar. Onlar insanlığın, qanunun, Allahın, vicdanın və Azərbaycan xalqının qəzəbindən, mühakiməsindən can qurtara bilməyəcəklər.

"Əgər beynəlxalq birlik Ermənistanı törədilmiş cinayətlərə görə məsuliyyətə cəlb etmək istəmirsə, - necə ki, Xocalı soyqırımına görə heç kim onları məsuliyyətə cəlb etməyib, - biz özümüz onları məsuliyyətə cəlb edəcəyik. Biz özümüz onların cəzasını verəcəyik, özümüz onları cəzalandıracağıq və bizim cəzamız ədalətli cəza olacaqdır" - deyir müdrik Prezidentimiz.

Ərazilərimiz yağı tapdağından tam azad ediləcək. Ermənilərin dinc əhaliyə qarşı törətdiyi vandalizm isə tarixə qara ləkə kimi düşəcək. Gün gələcək, onlar bu cinayətlərə görə hərbi tribunallarda cavab verməli olacaqlar. Çünki hər bir faşizmin sonu budur - məğlubiyyət və rüsvayçılıq. Bunu tarix dönə-dönə sübut edib.

***Flora SADIQLI,***
***"Azərbaycan"***



# Arxa cəbhə



## “Kəndimizi tərk edəndə övladımı qucağımda gətirmişdim, indi isə körpə nəvəmlə qayıdacağam”

**Şanlı Ordumuzun zəfər yürüşü nəticəsində azad edilən yaşayış məntəqələrimizin sakinlərinin 27 illik arzuları gerçəkləşir.**



Belə yaşayış məntəqələrimizdən biri də Cəbrayılın Daş Veysəlli kəndidir. Bu kənddən olan Səfərli ailəsi illər öncə doğma kəndlərindən çıxarkən götürdükləri Qarabağ xalçasını kəndlərinə qayıtmaq ümidi ilə qoruyub saxlayıb və artıq arzularının reallaşmasına sayılı günlər qalıb.

AZƏRTAC xəbər verir ki, iyirmi yeddi ildir bu arzu ilə yaşayan kənd sakini Hidayət Səfərli sevinc hisslərini bizimlə bölüşüb: “Biz doğma kəndimizdən çıxarkən hər gün el-obamıza qayıdacağımız günü gözləmişik. Gördüyünüz bu xalçanı indiyədək saxlamağımız bizim inamımızın bir nişanəsidir. Ötən illər ərzində Vətən niskili hiss edəndə bu xalça ilə özümüzə təsəlli tapmışıq. Onu istifadə etməmişik ki, doğma kəndimizə qayıdacağımız gün bu xalça da bizimlə qayıdacaq. Artıq bu arzumuz gerçək olub. Oktyabrın 20-də Müzəffər Ali Baş Komandanımız azad edilən yaşayış məntəqələrimizin müjdəsini verəndə, sevincimizin həddi-hüdudu olmadı. Bu hissləri sözlə ifadə etmək çox çətindir”.

Daş Veysəlli ilə bağlı gözəl xatirələrinin olduğunu deyən həmsöhbətimiz qeyd edib ki, uşaqlıq, gənclik illəri ata yurdunda keçib. “Biz doğma torpağımıza qayıtmağı səbirsizliklə gözləyirik. Bu sevinci bizlərə bəxş etdiyinə görə Ali Baş Komandanımıza və şanlı Ordumuza təşəkkür edirik. Bizim Cəbrayıl kəhrizlər diyarıdır, rayonumuzda 118 kəhriz vardı. Onlardan 4-ü isə bizim kənddə idi. Hətta kəndimizdə çoxlu bulaq da vardı. 27 il ildir o yerlərə həsrət idik. Erməni faşistlərinin vəhşilikləri zamanı kənddən çıxmalı olduq. Həmin vaxt övladımın 3 ayı belə tamam olmamışdı. Köçkün düşdük, çadırlarda yaşadıq, daha sonra dövlətimiz bizlərə ev tikdi. Artıq o illər geridə qaldı. Mən doğma vətənimi tərk edəndə övladımı qucağımda gətirmişdim. Amma illər keçib, indi kəndimizə sevinc hissləri ilə qucağımda körpə nəvəmlə, ailəmlə qayıdacağam”, - deyə o vurğulayıb.

## Azərbaycan neftçisi xalqımıza və ordumuza fədakar əməyi ilə dəstək verir

**Fədakar Azərbaycan neftçiləri indiki çətin və həssas dövrdə də əmək növbəsindədirlər. Koronavirus pandemiyasından qorunmağın şərtlərinə ciddi əməl etməklə onlar yerin təkindəki və dənizin dibindəki sərvətlərimizi üzə çıxarırlar.**



Beləliklə, zəngin ənənələrini davam etdirirlər, ölkənin iqtisadi qüdrətini artırırlar, xalqımıza, döyüşən Ordumuza dəstək olurlar.

Digər yataqlarda olduğu kimi, “Azəri-Çıraq-Günəşli”də (AÇG) də neft və qaz hasilatı davam edir. Azərbaycan Respublikası Dövlət Neft Fondu (ARDNF) cari ilin əvvəlindən noyabrın 1-dək bu yataqlar blokunun işlənməsi layihəsinin reallaşdırılması çərçivəsində 3 milyard 57 milyon ABŞ dolları gəlir əldə edib. Bu barədə ARDNF-in İctimaiyyətlə əlaqələr departamenti məlumat verib.

AÇG-dən indiyədək əldə olunan hasilatın həcmi cari ilin yanvar ayında 500 milyon tona çatıb. Layihənin əməliyyatçısı olan BP şirkətinin məlumatına görə, bu ilin birinci yarısında AÇG gündə orta hesabla 498 min ,ümumilikdə isə təxminən 91 milyon barel, yəni 12 milyon tondan çox neft verib.

Prezident İlham Əliyev AÇG-də işlərin uğurla getdiyini qeyd edərək demişdir: “Bizim əsas gəlir mənbəyimiz “Azəri-Çıraq-Günəşli” yataqlarıdır. Orada işlər plan üzrə gedir. İndi orada “Mərkəzi Şərqi Azəri” adlanan yeni layihə icra edilir. Bu layihənin dəyəri təqribən 7 milyard dollara yaxındır. Bu layihənin icrası nəticəsində yeni mənbələrdən hasilat artacaq və təbii ki, enmənin kompensasiyasını təmin edəcəkdir. “Azəri-Çıraq-Günəşli” yataqlarında hazırda 120-dən çox quyu fəaliyyətdədir və eyni zamanda, bu yataqların çox zəngin qaz ehtiyatları vardır. Ona şərti olaraq “dərin qaz” deyilir və indi “dərin qaz”ın işlənməsi ilə əlaqədar Dövlət Neft Şirkəti öz tərəfdaşları ilə müvafiq işlər aparır”.

Məlumdur ki, neft yataqlarından, eyni zamanda, müəyyən həcmdə səmt qazı da hasil edilir. Qaz yataqlarından isə əksinə, kondensat da əldə olunur ki, bu da öz tərkibinə görə yüksək keyfiyyətli neftə bərabər mayedir. Xoşbəxtlikdən Azərbaycanın dənizdəki və qurudakı yataqlarından bu karbohidrogenlərin hamısı alınır. Məsələn, AÇG-nin səmt qazından ölkəmiz indiyədək çox bəhrələnib. Mavi yanacağın bir hissəsi təzyiqi artırmaq üçün yenidən laylara vurulur, qalanı isə təmənnasız olaraq Azərbaycan dövlətinə verilir. Qaz dənizdən Səngəçal terminalına daxil olur və buradan SOCAR-a məxsus kəmərlə “Azəriqaz” sisteminə ötürülür.

2020-ci ilin birinci yarısında AÇG-dən SOCAR-a əsasən Səngəçal terminalı, həmçinin Neft Daşlarındakı qurğu vasitəsilə gündə orta hesabla 6,9 milyon kubmetr, ümumilikdə isə 1,3 milyard kubmetr səmt qazı verilib. Hasil edilən səmt qazının qalan hissəsi yenidən kollektora vurulub.

Hazırda AÇG müqavilə sahəsində fəaliyyət göstərən 8 platformadan 6-da hasilat əməliyyatları aparılır. Digər 2 platforma isə emal, qazın kompressiyası, suvurma və texnoloji təchizat qurğularıdır.

“Azəri Mərkəzi Şərqi” AÇG-nin 9-cu platforması olacaq. Bu qurğu 2017-ci ilin sentyabr ayında imzalanmış AÇG-nin birgə işlənməsi və hasilatın pay bölgüsü haqqında dəyişdirilmiş və yenidən işlənmiş saziş çərçivəsində inşa edilib. Yeni müqavilə 2049-cu ilin sonunadək davam edəcək və növbəti illər ərzində AÇG-nin ölkəmizə gətirdiyi iqtisadi mənfəətləri maksimuma çatdıracaq.

“Azəri Mərkəzi Şərqi” platforması gündəlik 100 min barelədək neft hasil etmək gücündə layihələndirilib. İstismar müddəti ərzində qurğunun 300 milyon barelə qədər əlavə neft hasil edəcəyi gözlənilir. Layihə çərçivəsində ilk hasilatın 2023-cü ildə alınacağı nəzərdə tutulur.

**Bu ilin əvvəlindən AÇG-dən 3 milyard 57 milyon dollar gəlir əldə edilib**

Respublikanın Energetika naziri Pərviz Şahbazov AÇG-nin ölkəmizin həyatındakı rolunu vurğulayaraq demişdir: “Azəri-Çıraq-Günəşli” yataqlarının ölkənin əsas gəlir mənbəyi olduğunu və neft-qaz sektorunun gələcək illərdə də Azərbaycan iqtisadiyyatında mühüm yer tutacağını nəzərə aldıqda apstrim əməliyyatlarında davamlılıq strateji əhəmiyyət daşıyır. Neftə qlobal tələbatın azalması, aşağı qiymətlər şəraitində və enerji transformasiyası dövründə bir çox beynəlxalq enerji şirkətlərinin neft-qaz layihələrindən geri çəkildiyi, bərpa olunan enerjiyə üstünlük verən strategiyalar qəbul etdiyi vaxtda belə bir müqavilənin mövcudluğu kifayət qədər etibarlı təminatdır”.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

## Babək rayonunda 28 yeni istehsal və xidmət sahəsi fəaliyyətə başlayıb

Naxçıvan MR-də sahibkarlığın inkişafına dövlət himayəsi sistemli şəkildə həyata keçirilir, sahibkarlara dövlət dəstəyi tədbirlərinin səmərəsi yüksəldilir.

Bu hesaba muxtar respublikanın Babək rayonunda təkcə 2020-ci ilin doqquz ayında dövlət maliyyə dəstəyi hesabına 24, özəl investisiya qoyuluşu hesabına 4 olmaqla ümumilikdə 28 istehsal və xidmət sahəsi yaradılıb. Həmçinin müxtəlif təyinatlı 11 sahənin yaradılması istiqamətində işlər davam etdirilib.

Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyindən AZƏRTAC-ın Naxçıvan bürosuna bildirilib ki, özəl sektorun, kiçik və orta sahibkarlığın inkişafı yeni istehsal və xidmət sahələrinin yaradılmasına, ixracyönümlü məhsul istehsalının artırılmasına təkan verməklə yanaşı, əhalinin məşğulluğunun yüksəldilməsinə da öz töhfəsini verir. Belə ki, 2020-ci ilin yanvar-sentyabr aylarında yeni yaradılan müəssisələr hesabına rayonda ümumilikdə 64 yeni iş yeri açılıb.

Bu gün əlverişli sahibkarlıq mühiti formalaşan Babək rayonunda istehsal olunan məhsullar istehlakçılar tərəfindən rəğbətlə qarşılanır. Hazırda rayonda yüngül, yeyinti, kağız, karton və poliqrafiya, kimya, energetika sənayesi və tikinti sahələri olmaqla 70-dən artıq müəssisə fəaliyyət göstərir ki, bu müəssisələrdə də 150-dən çox çeşiddə məhsul istehsal olunur.

## Oktyabrda 195-2 Çağrı Mərkəzinə 1700-dən çox müraciət daxil olub

**Ötən ay ərzində İqtisadiyyat Nazirliyinin 195-2 Çağrı Mərkəzinə 1700-dən çox müraciət daxil olub.**

Müraciətlər əsasən, istehlakçıların hüquqlarının qorunması, qrant müqavilələrinin qeydiyyatı, güzəştli kreditlərin, investisiya təşviqi və təsdiqedici sənədlərin, lisenziyaların verilməsi mexanizmləri, reklam qanunvericiliyi, həmçinin Nazirliyin səlahiyyətlərinə və fəaliyyət istiqamətlərinə dair digər məsələləri əhatə edib. Çağrı Mərkəzinə daxil olmuş müraciətlər operativ şəkildə cavablandırılıb, araşdırma tələb edən müraciətlər üzrə nazirliyin aidiyyəti strukturları tərəfindən müvafiq tədbirlər görülüb və müraciət edən şəxslərə cavab verilib.

Qeyd edək ki, 195-2 Çağrı Mərkəzi ilə stasionar və mobil telefonlardan istifadə etməklə birbaşa əlaqə saxlamaq mümkündür. Stasionar telefonlardan zənglər və 195-2 tərəfindən göstərilən bütün xidmətlər ödənişsizdir.

## “Düşmənin təxribatları əlimizi işdən soyutmur”

Ermənistan silahlı qüvvələri cəbhəyanı yaşayış məntəqələrini artilleriya atəşinə tutmaqda davam edir.

Təhlükəli olsa da, cəbhəyanı kəndlərdə yaşayan sakinlər əlini işdən soyutmur. Çünki ön cəbhədən gələn xəbərlər - ordumuzun əldə etdiyi uğurlar, uzun illər işğal altında qalan torpaqlarımızın azad edilməsi onları işə daha da ruhlandırır.



AZƏRTAC xəbər verir ki, Ağdam rayonunun Mərzili kəndi işğal olunduqdan sonra Behbudovlar ailəsi Ergi düzündə məskunlaşıb. Əvvəllər heyvandarlıqla məşğul olan ailə dövlətimiz tərəfindən ərazidə subartezian quyuları qazıldıqdan sonra əkinçiliyə başlayıb. Behbud Behbudov bildirib ki, bu mövsüm 2,5 hektarda soğan becərsə də, ermənilərin sentyabrın 27-dən başlayaraq ərazini atəşə tutması səbəbindən məhsulu yığa bilməyib. Azərbaycan Ordusunun uğurlarını və düşmənin hərbi mövqelərinin məhv edildiyini bildikdən sonra sahədə qalan məhsulunu yığmağa başlayıb.

“Düşmən yaşayış məntəqələrini atəşə tutmaqda davam edir. Lakin bu, bizi qorxutmur. Görürsünüz, bütün ailəmiz evdədir, işimizdəyik, məhsulumuzu yığırıq. Yaxın günlərdə məhsul yığımını başa çatdıracağıq. Artıq növbəti əkin üçün hazırlıq işlərinə də başlamışıq. Bilirik ki, bizdən qabaqda müzəffər ordumuz var. Ordumuz düşmənə sarsıdıcı zərbələr endirir, işğal altında olan torpaqlarımızı azad edir. Düzdür, vaxtında yığmadığımız üçün becərdiyimiz məhsulun bir hissəsi zay olub. Lakin bu, bizi məyus etmir. Əminik ki, Prezidentimizin qətiyyəti, ordumuzun gücü sayəsində bizim kəndimiz də tezliklə işğaldan azad ediləcək və biz doğma yurdumuza qayıdacağıq. Sevincli və qürurluyuq, qələbəyə böyük inamımız var”, - deyə Behbud Behbudov deyib.

## Hacıqabulda 5 min hektarda taxıl səpini aparılıb

Hacıqabulda təsərrüfatın digər sahələri ilə yanaşı, taxılçılığın inkişafına da xüsusi diqqət yetirilir.

Dövlət tərəfindən taxılçılıqla məşğul olan mülkiyyətçilərə yanacaq və sürtkü yağlarına görə güzəşt edilməsi, buğda istehsalçılarına son məhsula görə əlavə subsidiyaların verilməsi torpaq mülkiyyətçilərinin bu sahəyə marağını daha da artırıb. Bunun nəticəsində rayonda taxıl istehsalı ilbəil artır, məhsuldarlıq yüksəlir.

Rayon Dövlət Aqrar İnkişaf Mərkəzindən AZƏRTAC-a bildiriblər ki, növbəti təsərrüfat ilində taxılçılıq sahəsində yüksək məhsuldarlığa nail olmaq üçün rayonda səpin kampaniyasına ciddi hazırlıq işləri görülmüşdü. Bu məqsədlə 28 min hektar sahədə keyfiyyətli şum aparılmış, fermerlər yüksək reproduksiyalı məhsuldar toxum sortları ilə təmin edilmişlər. Səpin kampaniyasının optimal müddətdə başa çatdırılması üçün lazım olan müxtəlif maşın-mexanizm, səpin aqreqatları sahibkarların ixtiyarına verilmişdi.

Məhsul istehsalçıları yaradılan şəraitdən bəhrələnərək qısa müddətdə 5 min 830 hektar sahədə səpin aparıblar ki, bunun da 3 min 300 hektarı buğda, 2 min 330 hektarını arpa sahələridir. İşin yaxşı təşkili nəticəsində əkinçilər hər gün 150-200 hektar sahəyə toxum səpirlər. Əkinçilər, həmçinin 250 hektar sahədə yaşıl yem üçün xəsil əkini də aparıblar.

Qeyd edək ki, bu il Hacıqabulda 28 min hektar sahədə payızlıq taxıl əkini aparılması planlaşdırılıb.

## Xüsusi əhəmiyyətə malik Şəhriyar-Kələxana avtomobil yolu yenidən qurulub

**Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən mütəmadi olaraq yol infrastrukturunun müasirləşdirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilir.**

Respublikamızda kənd yollarının inşası və yenidən qurulması layihələrinin icrası həm də vətəndaşların sosial rifah halına müsbət təsir göstərən sənaye, turizm və kənd təsərrüfatının inkişafına hesablanıb.

Azərbaycan Respublikası Prezidentinin sərəncamına uyğun olaraq, bu layihələrdən daha biri Şamaxı rayonunda həyata keçirilib. Belə ki, bir müddət əvvəl Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi tərəfindən yenidənqurma işlərinə start verilən Bakı-Şamaxı-Yevlax avtomobil yolunun 122-ci km-dən ayrılan Şəhriyar-Kələxana avtomobil yolunun tikintisi yekunlaşıb.

Ötən əsrin 70-ci illərinin normativləri əsasında tikilən, qara və çınqıl örtüklü olan Şəhriyar-Kələxana avtomobil yolu uzun illər təmir olunmadığından yolun torpaq yatağı deformasiyaya uğramış, yol geyimində çökmələr əmələ gəlmiş, istismar üçün yararsız vəziyyətə düşmüş və nəqliyyat vasitələrinin hərəkətində çətinliklər yaranmışdır. Bu səbəbdən yolun əsaslı şəkildə təmir olunmasına ehtiyac var idi.

Artıq 3 min nəfər əhalinin yaşadığı iki yaşayış məntəqəsini birləşdirən Şəhriyar-Kələxana avtomobil yolu 2 hərəkət zolaqlı olaraq IV texniki dərəcəyə uyğun təkmilləşdirilib.




Layihə çərçivəsində ilkin mərhələdə marşrut boyu mövcud örtüyün sökülməsi, yararsız yol geyiminin və torpaq yatağının deformasiyaya uğramış hissələrinin qazılaraq kənara daşınması, əvəzinə karxana çınqılı tökülərək kipləşdirilməsi və yeni yol yatağının inşası işləri aparılıb. Daha sonra işlərin yekunlaşdığı ərazilərdə 12 sm qalınlıqda olmaqla yeni asfalt-beton örtüyünün döşənməsi işləri görülüb.

Ümumi uzunluğu 8 km olan yolun hərəkət hissəsinin eni 6, çiyinlərin eni 2 metrdir.

Tikinti işlərinin sonuncu mərhələsində avtobus dayanacaqları inşa edilib, hərəkətin normal təşkili üçün yol nişanı və məlumatverici lövhələr quraşdırılıb, həmçinin yolcizgi və yolgöstərici xətlər çəkilib. Tərtib olunmuş qrafikə uyğun kompleks şəkildə görülən bu işlər bütün hərəkət iştirakçılarının rahatlığı və təhlükəsizliyi üçün hesablanıb.

Qeyd edək ki, Kələxana kəndi ərazisində yerləşən XVII əsrə məxsus Kələxana türbələri dünyanın ən unikal tarixi komplekslərindən sayılır. Bura daxil olan 9 abidə orta əsrlərdə formalaşmış Şirvan-Abşeron memarlıq məktəbinə aiddir.

Üzümçülüyün sahəsinin inkişaf etdiyi ərazilərdən sayılan Şəhriyar qəsəbəsi isə dünya şöhrətli “Mədrəsə”, “Şirvanşahı”, “Şamaxı mərəndisi”, “Qara mərəndi”, “Qızılı mərəndi” kimi qiymətli üzüm sortlarının yarandığı və becərildiyi yer kimi məşhurdur.

Ümumiyyətlə isə qədim Şamaxının bu əraziləri tarixi abidələrlə, təbiət gözəllikləri ilə zəngindir.

Bu baxımdan Şəhriyar-Kələxana avtomobil yolunun yenidən inşası təkcə vətəndaşların rahat gediş-gəlişinin təmin olunmasına deyil, həm də kənd təsərrüfatının və turizmin inkişafına xidmət edəcək.

## Həftə ərzində 700-dən çox fərdi yaşayış evinə qaz verilib

**“Azəriqaz” İstehsalat Birliyi payız-qış mövsümünə hazırlıqla bağlı qazlaşma işləri aparılan yaşayış məntəqələrində fəaliyyətini bir qədər də sürətləndirib.**



Belə ki, qazlaşma işləri aparılan yaşayış məntəqələrində qaz açılışları təmin edilir. Bu həftə Tovuz rayonu Çatax kəndində 70 fərdi yaşayış evinə qaz verilib. Bundan başqa, Xəzər rayonu “Albalılıq” və “Təmənis” adlandırılan ərazilərə düşən yeni massivdə 358, Sabunçu rayonu Zabrat qəsəbəsi, yeni massivdə 137 və Qaradağ rayonunda bir neçə yaşayış massivində bir qrup fərdi yaşayış evinə təbii qaz verilib. Eyni zamanda Göyçay rayonu Ərəbşahverdi kəndində 68, Şıxlar kəndində 71 fərdi yaşayış evi qazla təmin edilib.

Hazırda regionlarda və Bakı şəhərində cari il üzrə qaz çəkilişləri aparılan 43 yaşayış məntəqəsi (5299 fərdi yaşayış evindən ibarət) və 43 yaşayış massivində (8585 fərdi yaşayış evindən ibarət) ümumi işin əksər hissəsi tamamlanmaq üzrədir. Bu günə olan məlumata görə, artıq 11 yaşayış məntəqəsində 821, 26 yaşayış massivində 4528 fərdi yaşayış evi təbii qazla təmin edilib. 19 yaşayış məntəqəsi və 9 yaşayış massivində işlər tamamlanıb, qaz açılışına dair son prosedurlar icra olunur. 13 yaşayış məntəqəsi və 8 yaşayış massivində isə qazlaşdırma işləri davam edir.

Gəncə şəhərinin Şıxzamanlı və Cavadxan, Abşeron rayonunun Qobu və Hökməli qəsəbələrindəki yeni yaşayış massivlərinə, Ağdaş rayonunun Şıxlı, Yenikənd, Aşağı Qobuüstü, Qobuüstü və Yuxarı Nemətabad, Şabran rayonunun Ceyranlı və Vələsli, Gədəbəy rayonunun Arıqıran və Əyrivəng, Lerik rayonunun Bibiyani və Siyəreqon, Siyəzən rayonunun Məşrif kəndlərində qaz xətləri çəkilir.

# Ombudsman Azərbaycanın işğal altındakı ərazilərində Ermənistanın törətdiyi ekoloji terrorla bağlı beynəlxalq ictimaiyyətə müraciət edib

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) Səbinə Əliyeva işğal altında olan Azərbaycan ərazilərində Ermənistanın törətdiyi ekoloji terror və Şuşa meşələrinin qəsdən yandırılaraq məhv edilməsi ilə bağlı beynəlxalq ictimaiyyətə müraciət edib. Müraciəti təqdim edirik.

BMT Baş Assambleyasının 2001-ci il 5 noyabr tarixli qətnaməsinə əsasən, hər il 6 noyabr tarixi Müharibə və Silahlı Münaqişələr Zamanı Ətraf Mühitin İstismarının Qarşısının Alınması Beynəlxalq Günü kimi qeyd olunur.

Təəssüf hissi ilə bildiririk ki, ekoloji terror Azərbaycandan da yan keçməmiş, 30 ilə yaxın davam edən Ermənistanın hərbi təcavüzü nəticəsində Azərbaycan Respublikasının təbiətinə, bioloji müxtəlifliyinə, su hövzələrinə, ümumilikdə işğal altında olan ərazilərin ekologiyasına ciddi ziyan dəymiş, ətraf mühitin məhvi və ciddi zərər görməsi ilə nəticələnən fəsadlara gətirib çıxarmışdır.

Ermənistan Respublikası silahlı qüvvələrinin hərbi fəaliyyəti və qadağan olunmuş silahlardan istifadəsi nəticəsində ətraf mühit fiziki və kimyəvi çirklənməyə məruz qalmaqla yanaşı, burada mövcud olan müxtəlif nadir bitki və heyvan növləri məhv edilmiş, flora və faunaya külli miqdarda ziyan vurulmuşdur. Təmiz su mənbələrinin kimyəvi çirklənməsi nəticəsində çay və göllərdə özü-özünü tənzimləmə prosesi dayanmış, nəticədə su hövzələri bütün canlılar üçün zərərli, ölü bir zonaya çevrilməkdədir.

Təsadüfi deyil ki, BMT Baş Assambleyası tərəfindən hələ 2006-cı ildə qəbul edilmiş "Azərbaycanın işğal olunmuş ərazilərində vəziyyət" adlı qətnamədə işğal altında olan Azərbaycan torpaqlarında törədilmiş yanğınların regionun ekoloji təhlükəsizliyinə təsirinin qiymətləndirilməsi məsələsi qaldırılmışdı.

Bununla yanaşı, 2016-cı ildə Avropa Şurası Parlament Assambleyası tərəfindən qəbul olunan Azərbaycanın sərhədyanı rayonlarının sakinlərinin qəsdən sudan məhrum edilməsi ilə bağlı 2085 nömrəli qətnamədə Ermənistan silahlı qüvvələrinin sözügedən regiondan dərhal çıxarılması, müstəqil mühəndis və hidroloqlar tərəfindən yerində təhqiqat aparılmasının təmin edilməsi tələb olunub.

Bu müddət ərzində Ermənistan tərəfindən Azərbaycan Respublikasının işğal altında saxlanılan ərazilərində təbii sərvətlər talan edilmiş, 163 faydalı qazıntı yatağı, o cümlədən qızıl, civə, mis, qurğuşun, sink, daş kömür, meşə örtüyü, nadir ağaclar və digər sərvətlər qanunsuz istismara məruz qalmışdır.

2020-ci il 27 sentyabr tarixindən başlayaraq Ermənistan silahlı qüvvələri Azərbaycanın mülki əhalisinin sıx məskunlaşdığı yaşayış məntəqələrini, sosial, mədəni və strateji əhəmiyyətli obyektləri ağır artilleriya qurğularından, xüsusi raket sistemlərindən və qadağan olunmuş silahlardan istifadə edilməklə intensiv şəkildə atəşə tutmaqla sülh və insanlıq əleyhinə cinayətlərini davam etdirirlər.

Cəbhə bölgəsindən uzaq məsafədə yerləşən yaşayış məntəqələrini və hərbi əməliyyatların iştirakçısı olmayan mülki əhalini hədəf almaq, çoxsaylı dinc sakinləri, o cümlədən uşaq və qadınları qətlə yetirmək, tarixi, mədəni və dini abidələri, qəbiristanlıqları belə ballistik raket və ağır artilleriyadan atəşə tutmaq Ermənistan hərbi birləşmələrinin törətdiyi cinayətlərin yalnız bir hissəsidir.

Azərbaycan Respublikasının rəhbər tutduğu mövqe isə BMT Nizamnaməsinin 51-ci maddəsinə, BMT Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul etdiyi 4 qətnaməyə və beynəlxalq humanitar hüquq normalarına əsaslanır.

Ermənistan işğal etdiyi Azərbaycan ərazilərində 30 ilə yaxın həyata keçirdiyi ekoloji terrorun davamı olaraq hazırda Şuşa meşələrində zəhərli və çətin söndürülən maddələrdən istifadə etməklə qəsdən yanğınlar törədərək nadir meşə örtüyünü məhv etməkdə davam edir.

Hazırda ümumi sahəsi 8000 hektardan çox olan, qiymətli və çoxillik palıd, ardıc, fıstıq, vələs, şam, göyrüc, qoz ağaclarından ibarət sıx meşəliklərdən ibarət unikal bir ekosistemin məhv edilməsi, əsasən endem xarakterli bioloji müxtəlifliyə ciddi zərbə vurmaqdadır. Bu isə Ermənistanın qoşulduğu ekologiya və ətraf mühitlə bağlı beynəlxalq konvensiyaların, o cümlədən "Ətraf mühitin dəyişdirilməsi üsullarının hərbi və ya hər hansı başqa düşmənsayağı istifadəsinin qadağan edilməsi" haqqında BMT Konvensiyasının pozulması deməkdir. Ekspertlərin bildirdiklərinə görə, ağ fosfor tipli bombalardan istifadə edilməklə törədilən yanğınların söndürülməsi, eləcə də təbii yollarla sönməsi mümkün deyil və belə yanğınlar uzun müddət davam edir. Bu, ekoloji terrordur.

Qeyd olunan faktlara əsaslanaraq, 6 Noyabr - Müharibə və Silahlı Münaqişələr Zamanı Ətraf Mühitin İstismarının Qarşısının Alınması Beynəlxalq Günü ərəfəsində beynəlxalq təşkilatlara, o cümlədən ekoloji təhlükəsizliyin təmini və ətraf mühitin mühafizəsi sahəsində fəaliyyət göstərən beynəlxalq qurumlara müraciət edərək, Ermənistan tərəfindən törədilmiş və hazırda davam etdirilən ekoloji terrorun dayandırılması, qarşısının alınması və gələcəkdə baş verməməsi üçün təcavüzkar ölkəyə münasibətdə beynəlxalq hüquqi məsuliyyət müəyyən edən tədbirlər görməyə çağırırıq.

